www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 iyun 2016-cı il Cümə axşamı № 142 (6463) Qiyməti 60 qəpik

## Xəbər

**Kürdəmirdə ailə dramı; oğul atasını öldürdü**

yazısı səh.14-də

## Gündəm

### Türkiyəni silkələyən xain terrorun pərdəarxası



Qardaş ölkədə matəm elan edildi; Azərbaycan prezidenti türkiyəli həmkarına telefon açıb başsağlığı verdi; qanlı akt Ankaranın Rusiya və İsraillə barışığına İŞİD-dən cavabdırmı...

yazısı səh.7-də

### Bakıda terrora qarşı təhlükəsizlik tədbirləri gücləndirildi

yazısı səh.4-də

### Altı ayın iqtisadi yekunları - vəziyyət ürəkaçan deyil...

yazısı səh.6-da

### Fransa parlamentində Azərbaycanla bağlı məsələ müzakirə olunacaq

yazısı səh.8-də

### Rusiya ilə yaxın münasibətdə olmağın faydası

yazısı səh.10-da

### Bakıda 1 çaynik çay 1 şiş kababdan bahadır

yazısı səh.12-də

### Britaniyasız Avropa İttifaqı: hansı tərəfin zərəri böyük olacaq?

yazısı səh.10-da

### Çoxevlilik - əvvəl sərvətin, indi isə cahilliyin rəmzi...

yazısı səh.13-də

### İsti yay günlərinin qida menyusu - nə yeyək?

yazısı səh.12-də

### Bu gecə ilk yarımfinalçının adı bilinəcək: iki "P"dən hansı?

yazısı səh.15-də

### Ramazan ayının 24-cü günü

İftar 20.31. İmsaq 03.12-dək (QMİ)

24-cü günün duası: "İlahi, bu gün Səndən, Səni razı salan əməlləri istəyirəm və Səni qəzəbə gətirən əməllərdən Sənə pənah aparıram. Səndən istəyirəm ki, belə bir gündə məni, Sənə itaət etməyə və günah etməməyə müvəffəq edəsən. Ey, hacəti olanlara səxavət və kərəm edən Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## "Mehriban düşmənlər" təzədən bir arada

# KREMLDƏN KRİTİK ZƏNG - MƏKTUBU ƏRDOĞAN YAZDI, SÜKUTU PUTİN POZDU...

Uzun fasilədən sonra Rusiya lideri həmkarına telefon açdı; iki dövlət arasında 7 aylıq əsəb savaşı bitdi; 45 dəqiqə sürən söhbətdə prezidentlər təkbətək görüş barədə də razılığa gəldilər; əməkdaşlığın önü yenidən açıldı, Türkiyəyə qarşı turizm qadağası götürüldü...




yazısı səh.8-də

## Binəqədidəki binanın qəsdən yandırılmasına dair sensasion iddia - yeni faktlar

Vəkil İlhamə Həsənova: "16 may, 2015-ci il tarixdə Nərimanovda poliuretanla üzlənmiş binanın yandırılmasına cəhd olub, bununla bağlı cinayət işi açılıb"; "Bakıda müxtəlif binalarda silsilə yanğınlar planlaşdırılmışdı"

yazısı səh.5-də



*Şahin Cəfərli:*

### "Türkiyəyə öz dövlətimiz kimi yanaşmağa başlamışıq"

yazısı səh.4-də




### QMİ-nin şöbə müdirinin işi məhkəməyə göndərildi

yazısı səh.2-də



*Ərəstun Oruclu:*

### "Dünya siyasətində prezidentin üzr istəməsi faktları çoxdur, burada qəbahət heç nə yoxdur"

yazısı səh.9-da

# 30 iyun 2016

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016



# Apelyasiya Komissiyası QHT-lərin müraciətlərini cavablandırıb

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Apelyasiya Komissiyasının iclası keçirilib. Şura üzvü Sahib Məmmədovun sədrliyi ilə keçirilən iclasda 2016-cı il ikinci maliyyə müsabiqəsinin nəticələri ilə razılaşmayan 18 QHT-nin müraciətinə baxılıb.**

Qarşılıqlı anlaşma və müzakirə şəraitində keçən iclasda komissiyaya təqdim olunmuş hər bir layihə yenidən nəzərdən keçirilib və onların hazırlanmasında yol verilmiş nöqsanlar QHT rəhbərlərinin nəzərinə çatdırılıb.

Müzakirələrdən sonra ekspertlərin rəyi də nəzərə alınaraq Şuraya 6 QHT-nin layihə təklifinə yenidən baxması tövsiyə olunub. 12 QHT-nin layihə təklifi ilə bağlı isə Şuranın qərarı məqbul hesab edilib.

Apelyasiya Komissiyasının üzvləri QHT rəhbərlərinin nəzərinə çatdırıb ki, müsabiqəyə təqdim olunan layihələr ictimai baxımdan aktuallığı ilə, yerinə yetiriləcək fəaliyyətlərin isə konkretliyi ilə seçilməsi vacibdir. İclasda Şura tərəfindən layihələrin qiymətləndirilməsində şəffaflığın təmin olunması üçün mütamadi iş aparıldığı bir daha qeyd olunub.



# "Fransa yeni danışıqlara ev sahibliyi etməyə hazırdır"

**"Paris Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yeni danışıqlara ev sahibliyi etməyə hazırdır". APA-nın Rusiya bürosunun məlumatına görə, bunu Fransanın xarici işlər naziri Jan-Mark Eyro rusiyalı həmkarı Sergey Lavrovla Parisdə görüşdən sonra keçirilən birgə mətbuat konfransında bildirib.**

O, Fransanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı yeni görüşü keçirməyə hazır olduğunu söyləyib: "Biz Dağlıq Qarabağdakı vəziyyəti müzakirə etdik. Sergey Lavrov məni Sankt-Peterburqda Rusiya prezidenti Vladimir Putinin Azərbaycandan və Ermənistandan olan həmkarları ilə apardığı danışıqların yekunu barədə məlumatlandırdı. Mən bir daha xatırlatdım ki, Parisdə yeni müzakirələrə ev sahibliyi etməyə hazırıq".

**Rusiya xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında fransalı həmkarını Rusiya prezidentinin iyunun 20-də Azərbaycan və Ermənistan prezidentləri ilə Sankt-Peterburqda keçirdiyi görüş barədə məlumatlandırdığını deyib:** "Görüşdə regional təhlükəsizliyi təmin etmək və Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli barədə müzakirələr aparılıb".

# "Bu tarixdən sonra NATO aktivləşəcək"

**Varşava sammitindən sonra NATO Rusiya sərhədlərində daha da aktivləşəcək. Axar.az xəbər verir ki, bunu Rusiya Müdafiə Nazirliyinin kollegiya iclasında çıxışı zamanı nazir Sergey Şoyqu söyləyib.**

Nazir bildirib ki, NATO-nun Rusiya sərhədlərində aktivliyini artırması Avropada strateji təhlükəsizliyi pozacaq.

Onun sözlərinə görə, Rusiya NATO-ya cavab verəcək. O, NATO-nun Polşa, Rumıniya, Bolqarıstan və Baltikyanı ölkələrdə aktivliyini artırmasının Rusiyanı narahat etdiyini bildirib.

Qeyd edək ki, Varşava sammiti iyulun 8-də start götürəcək. Sammitin keçiriləcəyi məkanlardan biri Prezident Sarayı olacaq. Məhz bu sarayda 1955-ci ildə Varşava müqaviləsi imzalanıb. Bu müqavilə ilə o zaman NATO-ya alternativ olaraq Varşava Müqaviləsi Təşkilatı yaradılıb.

# "Qənimət Zahidə görə bizdən qisas aldılar"

## Mühacirətdə olan baş redaktorun qohumlarına üst-üstə 12 il cəza verildi; **Cəsarət Zahidov:** "Sadə vətəndaşlara qarşı əzələ nümayiş etdirirlər"

**Fransada mühacirətdə yaşayan "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin həbsdə olan qardaşı oğlu Rüfət və əmisi oğlu Rövşən Zahidovların məhkəmə prosesləri yekunlaşıb. Bakı Ağır Cinayətlər Məhkəməsində Eldar Mikayılovun sədrliyi ilə keçən prosesdə təqsirləndirilən şəxslərin hər birinə 6 il həbs cəzası verilib.**



Qənimət Zahid

Məhkəmə qərarından apelyasiya şikayəti veriləcək. Bu barədə "Yeni Müsavat"a Zahidovların vəkili Bəhruz Bayramov məlumat verdi: "Qanunsuz bir hökm oldu. Tam sübut etdik ki, bəraət hökmü verilməlidir. Məhkəmə proseslərinin gedişində bunlar açıq şəkildə özünü göstərdi. Təəssüflər olsun ki, məhkəmə məsələyə heç bir hüquqi qiymət vermədi. Nəticədə qanunsuz hökm çıxarıldı. Qərardan apellyasiya şikayəti verəcəyik. Ardınca Ali Məhkəməyə, sonra da Avropa Məhkəməsinə müraciət ünvanlayacağıq. Bundan sonrakı instansiya məhkəmələri barədə nəsə demək çətindir. Hüquqlarını müdafiə etdiyim şəxslər qərara hazır idilər. Qanunsuz həbs olunduqlarını yaxşı bilirlər".

**Qənimət Zahidin qardaşı Cəsarət Zahidov** əvvəlcədən belə bir qərarın çıxarılacağını gözlədiklərini bildirdi: "Bütün bu proseslər Qənimətin üzərində fırlanırdı. Gözlədiyimiz qərar da oldu. Qərarı çox pis qarşıladıq. Hakimiyyətdən ədalət gözləmirdim. Sadə vətəndaşlara qarşı əzələ nümayiş etdirirlər. Təqsiri olmayan iki sadə vətəndaşı həbsə atdılar. Rüfət və Rövşən bəraət istədilər. Amma tapşırıq nə idisə, ona uyğun da qərar çıxarıldı".

**Məhbus atası müraciət edəcəkləri növbəti instansiya məhkəmələri barədə danışdı:** "Qismən də olsa ümidim var. Mənim və oğlumun ətrafı məhkəməyə sərt münasibət bildirdilər. Məhkəmə də hakimiyyət deməkdir. İndiyə qədər dövlət orqanlarına müraciətlərim oldu. Amma şablon cavablar aldım. Ciddi işlər görülmədi. Bu həbslərin sifariş olduğu məlumdur. Hər iki həbs edilən şəxs bildirdi ki, bunlar Qənimətə görədir. Məhkəmə heç bir söz demədi. Oğlumu və qohumumu həbs edənlər, müstəntiq və bu prosesdə iştirak edənlərin hər biri həbsin Qənimətə görə olduğunu dedilər. Evi dolandıran oğlum idi. Oğlumun həbsindən iki ay sonra məni də işdən çıxardılar. Kooperasiya Universitetində işləyirdim. İşdən çıxarılanda dedilər ki, Qənimətin qardaşısan. Ərizəmdə yazdım ki, səhhətimə görə işdən çıxıram. Çünki məni də işə qəbul edən şəxs var idi. Bir ailəni məhv etməyə ad tapmaq çətindir. Oğlum həbs ediləndə övladı təzə dünyaya gəlmişdi. Artıq bir yaşı tamam olub. Bu ədalətsizliyi Allah götürməz. Ailəmizin vəziyyətinin necə olduğunu təsəvvür etmək çətin deyil. Qohumların, tanışların hesabına yaşamaq sürünmək deməkdir".

**Qeyd edək ki, Zahidovlar narkotik iddiası ilə tutulublar.**

**❑ Cavanşir ABBASLI**

# Ukraynada daha bir azərbaycanlı iş adamı öldürüldü

**Ukraynanın Pokrovsk şəhərində (keçmiş Krasnoarmeysk) azərbaycanlı iş adamını öldürərək, 40 min dollarını apardılar.**

Pokrovsk Azərbaycanlılar Konqresindən APA-ya verilən məlumata görə, öldürülən şəxs əslən Azərbaycanın Xaçmaz rayonundan olan, 1966-cı il təvəllüdlü Ukrayna vətəndaşı Abdulla Abdullayevdir.

Ukraynanın bir neçə şəhərində valyutadəyişmə məntəqələri olan A.Abdullayev iyunun 14-də axşam saatlarında evinə gedərkən öldürülüb.

İş adamının meyiti yararsız hala salınmış avtomobilində tapılıb. Onun başında güllə yarası aşkarlanıb. Qatillər avtomobildəki 40 min dollara yaxın pulu da aparıblar.

Yaşadığı şəhərdə dəfn olunan iş adamının qətli ilə bağlı cinayət işi başlanılıb, qatillər axtarılır.

Qeyd edək ki, bu günlərdə Donetsk vilayətinin Qorlovka şəhərində də azərbaycanlı iş adamı İlqar Aşurov oğurlanaraq öldürülüb. Cinayəti törədənlər onun avtomobilini və killi miqdarda pulu oğurlayıblar.

Bundan başqa, Pokrovskda "Azərbaycan" Cəmiyyətinin sədri Şahin Bəylərovun mülkləri və iki avtomobili partladılıb.

**Son bir ildə isə Ukraynada 25 azərbaycanlının yoxa çıxdığı bildirilir.**



# Nyu-York aeroportunda terror həyəcanı

**Nyu-York şəhərindəki Con F. Kennedi hava limanının bir terminalı şübhəli paket səbəbi ilə boşaldılıb. APA-nın "Milliyet" qəzetinə istinadən verdiyi məlumata görə, terminalda bir sahibsiz çanta aşkarlayan hüquq-mühafizə orqanları terminalı boşaldıb.**

Hava limanının giriş və çıxışları qapadılıb, nəqliyyatın hərəkəti dayandırılıb. Çanta kənardan idarə edilən qurğu vasitəsilə partladılıb.

# Obama Ərdoğana zəng edib

**ABŞ və Türkiyə prezidentləri Barak Obama ilə Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

"Report" Türkiyə KİV-ə istinadən xəbər verir ki, B.Obama türkiyəli həmkarına zəng edib.

ABŞ prezidenti İstanbulun Atatürk Hava Limanında törədilən terror aktında həlak olanlarla əlaqədar R.T.Ərdoğana başsağlığı verib.

Məlumata görə, ABŞ lideri İstanbulda törədilən terroru qəti şəkildə qınayıb.

# QMİ-nin şöbə müdirinin işi məhkəməyə göndərildi

**Həbsdə olan ilahiyyatçı, Qafqaz Müsəlmanları İdarəsinin sektor müdiri işləmiş Elşən Mustafaoğlu barəsində olan cinayət işi üzrə materiallar Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

Vəkil Əfqan Məmmədovun APA-ya verdiyi məlumata görə, yaxın günlərdə cinayət işi üzrə məhkəmə prosesi başlayacaq: "Biz cinayət işinin materialları ilə tanış olmuşuq. Cinayət işində heç bir şahid, sübut yoxdur. Hesab edirik ki, bu iş xitam olunmalı idi".

Qeyd edək ki, E.Mustafaoğlu 2014-cü ildə həbs olunub. O, Cinayət Məcəlləsinin 274-cü *(dövlətə xəyanət)* maddəsinə əsasən təqsirləndirilir.

# Azərbaycan Mərkəzi Bankı (AMB) iyunun 30-a olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb

**AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi iyunun 30-a 1,5394 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5363 manata bərabər olub.**

# Rusiya Türkiyə tərəvəzinə qoyduğu məhdudiyyəti aradan qaldıracaq

**"Təhlükəsizliyə təminat aldıqdan sonra Rusiya Kənd Təsərrüfatı Məhsullarına Dövlət Nəzarəti Xidməti Türkiyədən tədarük edilən tərəvəzlərə tətbiq etdiyi məhdudiyyətləri qaldıra bilər".**

"Report" xəbər verir ki, bunu xidmətin mətbuat katibi Yuliya Melano "İnterfax"a müsahibəsində bildirib.

Onun sözlərinə görə, bu, 2016-cı il yanvarın 1-də Rusiya hökumətinin tətbiq etdiyi qadağaya deyil, ancaq Rusiya Kənd Təsərrüfatı Məhsullarına Dövlət Nəzarəti Xidmətinin yasaqlarına aiddir: "Qadağanın götürülməsi texniki məsələdir və onun siyasətlə heç əlaqəsi yoxdur. Türkiyənin səlahiyyətli orqanları məhsulların təhlükəsizliyinə lazım olan təminatı verdikdən sonra tədarük mümkün olacaq".

**Qeyd edək ki, xidmət bu il martın 17-dən bibər və narın, aprelin 25-dən badımcanın, mayın 16-da kahının, mayın 19-dan isə balqabaq və kabakın Türkiyədən Rusiyaya tədarükünü qadağan edib.**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

**Ölkədə sənədsiz evlərin problemi illərdir ki, həll olunmadan qalıb. Dövlət başçısının dəfələrlə bu istiqamətdə hökumətə tapşırıqları olsa da, vəziyyət dəyişməyib. Ekspertlər musavat.com-a açıqlamalarında növbəti dəfə bu problemə diqqət çəkiblər.**

# Sənədsiz evlərin bitməyən problemi

## Məsələnin həll olunmaması kimə sərf edir; ekspertlər səbəbləri və şərtləri sadalayırlar...




**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, problemin həllini tapmamasında maraqlı olan qüvvələr var: "Çox açıq-aşkar görünür ki, rəsmiləşdirmə işlərinə nəzarət edən müəyyən hakimiyyətdaxili qrupların çox ciddi müqaviməti var. Bu prosesin normal sonuclanmasını istəmirlər. Əgər sənədsiz evlərin sənədləşməsi prosesi baş versəydi, insanlar öz mülkiyyətlərinə qovuşub mülkiyyət hüququ əldə etsəydilər, sonradan həmin mülkiyyətlə bağlı bəzi dövlət və hökumət orqanlarının apardığı iş, yaxud digər projelərdə çətinliklərlə qarşılaşacaqdılar. Sənədsiz evlərin söküntüsünü indi daha asan həyata keçirə bilirlər, bəzən heç məhkəmə qərarı olmadan belə bu addımları ata bilirlər. Amma sənədli ev olduqdan sonra bu proses uzun çəkir və mülkiyyətçi ciddi üstünlükləri malik olur. Bu nöqteyi-nəzərdən, həm də ki, sənədləşmə işində qeyri-leqal ödənişlərin həcmi böyük olduğundan, problem həll olunmamış qalır. Əgər ASAN Xidmətə bu da tapşırılsaydı, ancaq rusum hesabına evlərin sənədləşmsi başa çatsaydı, büdcəyə xeyli əlavə vəsait daxil ola bilərdi. Amma indi görünən odur ki, bəzi icra strukturları bu sənədləşmə işini öz inhisarına alaraq sonralar insanlar bu addımı atmaq istəyərkən, onlardan qeyri-leqal ödənişlər tələb edirlər. Hər hansı evin sənədləşməsi zamanı rüşvətini verirsənsə, bu, mümkün olur. Amma bunu qanuni çərçivəyə salmaq rüşvətdən gələn böyük pulların qarşısını almaq demək olardı".

**Ekspert Ramil Osmanlı** isə musavat.com-a açıqlamasında qeyd edib ki, evlərin sənədləşməməsinin müxtəlif səbəbləri var: "Ən vacibi xüsusi yaşayış yerlərinin ilkin qeydiyyatının olmamasıdır. Yəni söhbət torpaq ayırma ilə bağlı sənədlərdən gedir. Torpaq çıxarışı problemi bir qədər dərinləşdirir. İkinci məsələ qanunsuz evlərin müvafiq qaydada inşa olunmamasıdır. Tikinti ilə bağlı qaydaları dəqiq şəkildə icra etməməklə bağlıdır. Bu problem bir qədər də dərinləşib. Üçüncü səbəb bəzi torpaq sahələrinin təyinatı üzrə istifadə olunmamasıdır. Həmin torpaq sahələrindən əksəriyyətinin kənd təsərrüfatı üçün ayrılması ilə bağlıdır. Fərdi yaşayış evləri kənd təsərrüfatı təyinatlı torpaqlarda tikilib. Onların sənədləşdirilməsi ümumiyyətlə problem yaradır. Çünki bununla bağlı Nazirlər Kabineti qərar verməlidir. Yerli icra hakimiyyəti orqanlarının rəhbərləri isə hələ də qanunsuz tikililərin sənədləşməsinə qarşıdırlar. Sual oluna bilər ki, icra başçıları niyə razı deyillər? Çünki bu məsələdən öz məqsədləri üçün istifadə edirlər. Bu gün hələ də Bakı şəhərində analoji yaşayış evlərinin tikintisi prosesi davam etdirilir. Bu tikinti prosesindən bilavasitə müvafiq yerli icra hakimiyyəti orqanları xəbərdardırlar və buna şərait yaradırlar. Yəni bu problemlərdən əlavə gəlir mənbəyi kimi istifadə edirlər. Onlar problemin həllinə ciddi maneələr yaradırlar".

**Ekspert Nüsrət İbrahimov** isə "SalamNews"a açıqlamasında bildirib ki, Azərbaycanda 90-cı illərdən tikilən və indiyədək sənədsiz qalan evlərin sahibləri evlərini bələdiyyə, icra hakimiyyətindən torpağın ayrılması haqqında ilkin sənəd olmaqla vətəndaş Daşınmaz Əmlakın Dövlət Reyestr xidmətinə müraciət edə bilərlər. Onun sözlərinə görə, daha sonra torpaq üzərindəki tikilinin sənədləşdirilməsi reallaşdırmaq mümkündür. Əgər torpağın çıxarışı yoxdursa, amma ilkin hüquqyaradıcı sənədləri *(məsələn bələdiyyə sənədi və sair)* varsa, onun sənədləşdirilməsi məhkəmə qətnaməsində əksini tapacaq. Ekspert bildirib ki, torpağın ayrılması haqqında ilkin sənəd yoxdursa, torpaq zəbt olunub üzərində tikilibsə, məhkəmə fərdi qaydada evin bölgüsünü apara bilər. Daşınmaz Əmlak Dövlət Reyestr Xidməti isə torpağa heç bir hüquqi təsdiqedici sənəd verməyəcək. Evin ilkin ayrılma sənədi yoxdursa və mülkün iki nəfərə aid bölünmə sənədi varsa, faktiki evin ölçülərinə görə bölünmə aparılacaq, lakin hüquqi sənəd verilməyəcək. N.İbrahimov əlavə edib ki, sənədsiz evlər dövlət satınalmadırsa, bu cür yaşayış sahələrinin köçürülməsi zamanı ev sahibinə pul veriləcək. Ev bölünmə olduqda isə, məhkəmə qərarı ilə mülk sahibi sənəddə kimin adındadırsa, köçürülmə zamanı bölünmə nəticəsində əldə olunan pul həmin şəxsə veriləcək.

**İqtisadçı ekspert Rövşən Ağayev** isə qeyd edib ki, Azərbaycanda şəhər yerlərində 300, kəndlərdə isə azı 200 min mənzilin sənədləşdirilməsinə ehtiyac var: "Rəsmi statistikaya görə, ölkədə 1,9 milyon mənzil var. Bunun 1,1 milyon vahidi şəhər yerlərinin, 800 mini isə kənd məskənlərinin payına düşür. Rəsmi statistikada yalnız uçota alınan mənzillər qeyd edilir". İqtisadçı rəsmi rəqəmlərin reallığı əks etdirmədiyini vurğulayır. "Bunu *(sənədli və sənədsiz)* dəqiqləşdirmək üçün ən yaxşı mənbə elektrik enerjisi ilə təmin olunmuş mənzillərin sayıdır. Çünki içməli su və təbii qazdan fərqli olaraq, bütün mənzillər elektriklə təmin ediliblər",- deyən ekspert bildirir ki, hazırda Azərbaycanda elektrik enerjisi verilən mənzillərin sayı 2.4 milyondur. "Bu o deməkdir ki, ölkədəki mənzillərin təxminən 500 mini (21 faizi) rəsmi qeydiyyatda deyil. Bu sıraya həm qanuni sənədlər əsasında (ən azından mənzil tikintisi hüququ verən torpaq sahəsi mövcuddur) tikilən, amma mülkiyyət sənədi almayan mənzillər, həm də qanunsuz tikililər daxildir". Ekspert 2,4 milyon mənzilin təxminən 1,4 milyonunun şəhərlərin, 1 milyonunun isə kəndlərin payına düşdüyünü bildirir. "Bu fakt onu göstərir ki, şəhər yerlərində 300 min, kəndlərdə isə 200 min vahid mənzilin sənədləşdirilməsinə ehtiyac var",- R.Ağayev bildirir. Qanunsuz evlərin, digər tikililərin sayı barədə dəqiq rəsmi bilgi verilmir.

Qeyd edək ki, dövlət başçısı İlham Əliyev öz çıxışlarında bir neçə dəfə bu məsələyə toxunub. Dövlət başçısı ötən ilin əvvəlində sənədsiz evlərin rəsmiləşdirilməsi ilə bağlı fərman da verib.

❑ **Röya RƏFİYEVA**

# Ünvanlı sosial yardımla bağlı şikayətlər səngimir



**Elman Babayev:** "Müraciətlər yalnız elektron qaydada qəbul olunur, hər hansı işçinin orada rolu sıfırdır"



**Vahid Əhmədov:** "Yardımın verilməsi elektronlaşdırılıb və heç bir məmura müraciət etməyə ehtiyac yoxdur"

**Azərbaycanda ünvanlı sosial yardımın verilməsi ilə bağlı problemlər dəfələrlə mətbuatın gündəminə gətirilib. Tez-tez bölgələrdən redaksiyamıza məmurların vətəndaşlarla qeyri-rəsmi sövdələşməyə girməsi, dövlət tərəfindən verilən yardımın bir neçə ay məmura verilməsi ilə bağlı şikayətlər daxil olur.**

Redaksiyamıza daxil olan son şikayətdə bildirilir ki, ailəyə verilən ünvanlı sosial yardımın müddəti bitdiyindən, yenidən yardım almaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edilib. Nazirliyin müvafiq rayon şöbəsinin əməkdaşları isə vətəndaşa ona artıq ünvanlı sosial yardım verilməyəcəyini bildiriblər. Daha sonra təklif ediblər ki, yardım almaqda vətəndaşa kömək edə bilərlər. Bir şərtlə ki, yardım alan şəxs ödənilən vəsaiti 6 ay onlara versin, növbəti 6 ayı isə özü götürsün.

Şikayətçi kimliyi haqqında məlumatları mətbuata açıqlamaqdan imtina edərək bildirir ki, əgər mətbuata şikayət etdiyi məlum olsa, o bundan sonra da ünvanlı sosial yardım almaqdan məhrum olacaq. Qeyd edək ki, oxşar şikayətlər mütəmadi şəkildə digər bölgələrdən də daxil olur.

Əvvəlki illərdə də dəfələrlə mətbuatda Baş Prokurorluğun korrupsiya ilə mübarizə tədbirləri çərçivəsində Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyinin işçilərini həbs etməsi haqqında məlumatlar yer alıb. Belə ki, əlillik dərəcəsinin təyin olunması üçün rüşvət tələb olunması, sosial yardım alan şəxslərin bank kartlarını özlərində saxlayaraq şəxsən və digər şəxslər vasitəsilə aylıq ödənişlərin bankomatlardan çıxarılması kimi hallara görə, həbslər aparıldı. Bu proseslər daha çox 2011-2013-cü illərdə baş verib.

Nazirlik rəsmiləri isə bildirir ki, hazırda tətbiq olunan yeni elektron sistem bu cür halların baş verməsini mümkünsüz edir.

"Yeni Müsavat" qəzeti olaraq, şikayətçinin qeyd etdiyi məlumatlara **Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Babayev**dən münasibət öyrəndik. E.Babayev bildirdi ki, qeyd olunan halların baş verməsi imkansızdır və ünvanlı sosial yardımın verilməsi ilə bağlı tətbiq olunan yeni sistem buna heç bir şəkildə imkan vermir: "Bu deyilənlər ağ yalandır. Ünvanlı sosial yardım elektronlaşdırılıb. Elektron şəkildə vətəndaşın müraciətinə cavab verilir. Tutaq ki, 6 ayını aldım, bu 6 ayı alıb nə edəcəyəm? Bunu deyənlər yalan danışır, bu nağıldır. Yəqin ki, ünvanlı sosial yardım üçün müraciət edib, görüb verilmir, ona görə şər atır. Müraciətlər yalnız elektron qaydada qəbul olunur. Orada yazılı, kağız üzərində heç bir prosedur yoxdur. Hər hansı işçinin orada rolu sıfırdır. Heç kim heç bir rol oynamır. Müraciət edirsən və sənə cavab gəlir ki, yardım düşür, ya da düşmür. Səbəb də göstərilir. Düşürsə, qeyd edilir ki, gəlin kartınızı filan yerdən götürün".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** da bildirdi ki, ünvanlı sosial yardımın verilməsi elektronlaşdırılıb və heç bir məmura müraciət etməyə ehtiyac yoxdur: "Elektron qaydada müraciət qəbul olunur. Orada 12 sənəd tələb olunur. Həmin sənədlər yoxlanılır və cavab verilir. Orada sosial müdafiə fondunun sədri belə heç nə edə bilməz. Orada kimsə "maşenniklik" edə bilər. Yalandan vətəndaşı kimsə aldada bilər ki, sənin işini düzəldərəm və sair. Mən özüm də bu işin içində olmuşam və bilirəm ki, belə bir hal ola bilməz. Qubada vətəndaşlarla görüşəndə imkansız ailələrin ünvanlı sosial yardımla təmin olunmasına yardım etmişəm. Bilirəm ki, sistem necədir. Ola bilər ki, elektron sistemdən başı çıxmayan rayon adamlarıdır. Hansısa tanışı deyir ki, mən sənin üçün ünvanlı sosial yardım düzəldərəm, sən də mənə bir neçə ayını verərsən. Əks halda kompüter sisteminə müdaxilə etmək mümkün deyil".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

# "Türkiyəyə öz dövlətimiz kimi yanaşmağa başlamışıq"

## Şahin Cəfərli: "Şüurlardakı sərhədlər, psixoloji maneələr çoxdan götürülüb"

**Azərbaycanda qardaş Türkiyəyə münasibətdə hər zaman birmənalı mövqe olub. Orada nə hadisə baş verirsə, keçirdiyimiz hisslər tək olur. Adi bir futbol oyununda türk millisi qalib gələndə bütün ölkəmiz sevinir, məğlub olanda isə hər kəs üzülür. Hazırda Fransada davam edən Avropa Çempionatı bunu bir daha təsdiqlədi.**

Təkcə idman növlərində qardaş ölkənin qələbəsinə sevinmirik, yaxud məğlubiyyətinə üzülmürük. Türkiyənin dövlət siyasəti ilə bağlı da bu hissləri keçiririk. Uğurlu siyasət olanda hamımız sevinirik, uğursuz siyasət olduqda isə bunun əksi baş verir. Bütün ölkə səviyyəsində üzüntümüzü Türkiyə hökumətinin rəhbərliyində təmsil olunan şəxslərin siyasətini təftiş etməklə sübut edirik. Son 10 ay bunu təsdiqlədi. Sayı-hesabı itən terror aktlarında Ərdoğan hökuməti Azərbaycanda sərt tənqidlərə məruz qaldı. Səbəb isə çox sadə idi, keçirdiyimiz üzüntülər hər kəsi buna vadar edirdi.

Maraqlıdır ki, dünyada Azərbaycan və Türkiyə ictimaiyyəti qədər bir-birinə yaxın olan xalqlar var. Amma onların heç birinin arasında bizim qədər yaxınlıq yoxdur. Yəni "bir millət, iki dövlət" deyimi qədər əlaqələri sıx deyil.

Bu yaxınlıqla bağlı siyasətçilərin, alimlərin və politoloqların fikirləri daim müxtəlif olub. Fikirlərin də hər birində həqiqət axtarmaq mümkündür.

**Politoloq Şahin Cəfərli** hesab edir ki, bu yaxınlığın kökündə etno-tarixi amil dayanır: "Azərbaycan və Türkiyə xalqlarının qardaş xalqlar olduğunu vurğulamaqla, suala standart cavab vermək mümkündür. Əlbəttə ki, bizim Türkiyəyə həssas münasibətimizin təməlində etno-tarixi yaxınlıq dayanır, bu, başlıca amildir. Lakin fikrimcə, əsas səbəb Azərbaycan müstəqillik qazandıqdan sonra iki ölkə və iki xalq arasında başlayan inteqrasiya prosesidir və illər ötdükcə, xüsusən mədəni-mənəvi baxımdan inteqrasiya güclənir. Bu gün Azərbaycan xalqının mütləq əksəriyyəti Türkiyə informasiya resurslarının gündəlik təsiri altındadır. Kimsəyə sirr deyil ki, biz yerli telekanallardan daha çox, Türkiyə telekanallarını izləyirik. Hətta Azərbaycan telekanallarını ümumiyyətlə, seyr etməyən, yaxud nadir hallarda yerli TV-lərə göz atan çoxlu sayda vətəndaşımız var. Azərbaycanlılar Türkiyə telekanallarında əsasən xəbərlərə, seriallara və idman proqramlarına baxır. Təbii ki, danışdığımız dilin, adət-ənənələrin, mədəniyyətin çox yaxın olması, bir çox halda eyniliyi burada başlıca faktordur. Türkiyəyə yad bir dövlət kimi baxmırıq. Müstəqillik dövründə Türkiyə musiqiləri, filmləri ilə böyümüş nəsillər formalaşıb. Türkiyə musiqilərini çox sevirik və Azərbaycandakı dərin yaradıcılıq böhranının fonunda hər bir azərbaycanlı Türkiyə mənbələrində öz musiqi zövqünə uyğun kifayət qədər musiqi



əsəri tapa bilir. Türkiyə futbol komandalarının beynəlxalq arenadakı uğurlarına ən azı onlar qədər sevinirik. Türkiyə mediasını gündəlik izləyirik. Yəni, Türkiyənin "yumşaq gücü"nün Azərbaycanı öz təsiri altına aldığını söyləyə bilərik. Türkiyə futbol komandalarına azarkeşlik etməyimiz, onları öz yerli komandalarımızdan daha çox dəstəkləməyimiz, onların rəqabətini burada mübahisə mövzusuna çevirməyimiz, Türkiyədəki siyasi prosesləri diqqətlə izləyib, bu barədə mövqe bildirməyimiz, hətta Türkiyədaxili siyasi rəqabətdə tərəf tutmağımız, bu mövzuda mübahisə etməyimiz Türkiyənin bizim şüurumuzda "özgə" deyil, "özümüzünkü" kimi yer etdiyini göstərir. Bu "özümüzünkü" duyğusu onlarla birlikdə üzülüb, onlarla birlikdə sevinməyimizi şərtləndirir. Yəni, Türkiyə-Azərbaycan birliyinin mədəni-mənəvi müstəvidə gerçəkləşdiyini vurğulamaq yanlış olmaz. Şüurlardakı sərhədlər, psixoloji maneələr çoxdan götürülüb".

**Politoloq qardaş ölkədə cərəyan edən proseslərə yanaşmamızın normal qəbul edilməsinin vacibliyini də vurğuladı:** "Xeyli həmvətənimizin Türkiyəyə tez-tez səfər etməsi də önəmli məqamlardan biridir. Bəzən il ərzində bir neçə dəfə Türkiyəyə gedirik, azacıq maddi imkanı olanlar istirahət üçün Türkiyəni seçir. İstanbul başda olmaqla, Türkiyənin şəhərlərini öz şəhərimiz sayırıq, bir doğmalıq hissi yaranıb. Atatürk hava limanındakı terror bizi də ən azı türkiyəlilər qədər kədərləndirir, narahat edir. Çünki bir çoxumuz o hava limanından tez-tez istifadə edir, özümüz getməyəndə hansısa yaxınımız, dostumuz, tanışımız mütləq orada olur, biz onlara görə də narahatlıq duyuruq. Yaxud, tutaq ki, Taksimdə partlayış baş verəndə oradakı xatirələrimiz canlanır, öz-özümüzə "mən orada çox olmuşam, yemək yemişəm, alış-veriş etmişəm" deyir və üzülürük. Ötən illər Türkiyədə çoxlu şəxsi dostluqlar qurmuşuq, o dostlarla müntəzəm əlaqə saxlayırıq, bir hadisə baş verəndə həmin dostlarımıza görə də əndişələnirik. Biz Türkiyəni hər zaman güclü görmək istəyirik, çünki güclü Türkiyəni öz təhlükəsizliyimizin təminatı sayırıq, dara düşəndə onlara müraciət edə biləcəyimizi bilirik. Bəlkə də bu cür yanaşmaq yanlışdır, amma alt şüurumuzda bu arxayınlıq özünə yer edib. Bütün bunların təsiri ilə Türkiyəyə öz dövlətimiz kimi yanaşmağa başlamışıq və Türkiyədə baş verənlərə bizim cəmiyyətdəki reaksiyaları bu baxımdan normal və təbii qarşılamaq lazımdır".

❑ **Cavanşir ABBASLI**

# Bakıda terrora qarşı təhlükəsizlik tədbirləri gücləndirildi

## İlham İsmayıl: "Ölkəyə gələn şəxslərə xüsusi diqqət yönəldilməlidir"

**İyunun 28-də İstanbulun "Atatürk" hava limanında törədilən terror aktında ölənlərin sayı 41-ə çatıb. Onlardan 28-i türk, 13-ü isə xarici vətəndaşlardır. Son məlumata görə, hadisə zamanı 239 nəfər yaralanıb. Türkiyənin baş naziri Binəli Yıldırım terror aktının izlərinin İŞİD terror qruplaşmasına işarə etdiyini bildirib.**

Qardaş Türkiyədə baş verən terror hadisəsi dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda da pislənildi. Eyni zamanda bu hadisədən sonra Bakıda da təhlükəsizlik tədbirləri gücləndirilib. Paytaxtda, insanların sıx olduqları yerlərdə, o cümlədən metro stansiyalarında və xüsusilə də Heydər Əliyev Beynəlxalq Hava Limanında təhlükəsizlik tədbirləri gücləndirilib.

Xatırladaq ki, aprelin əvvəllərində cəbhədə vəziyyətin gərgin olduğu dönəmlərdə də ictimai yerlərdə təhlükəsizlik tədbirləri gücləndirilmişdi. Həmin ərəfədə Bakı hava limanına uçuş bileti olmayanlar daxil ola bilmirdilər. Əldə etdiyimiz məlumata görə, İstanbuldakı terror hadisəsindən sonra Bakı hava limanında aprel ayındakı qadağa bərpa olunub. Daxili İşlər Nazirliyinin əməkdaşları hava limanı ərazisinə daxil olan bütün maşınları xüsusi təlim görmüş itlərlə yoxlamadan keçirirlər. Hava limanına isə insanlar yalnız uçuş biletlərini və xarici pasportlarını təqdim etdikdən sonra buraxılırlar.



Məsələni **təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** da təsdiqlədi. O, "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dünən aeroportda olub və yoxlamaların əvvəlki günlərlə müqayisədə ciddiləşdiyini müşahidə edib. Ekspert eyni zamanda hazırda Azərbaycanda terrorla bağlı hansı qabaqlayıcı tədbirlərin görülməli olduğu barəsində aşağıdakıları danışdı: "Qonşu ölkələrdə son zamanlar elə hadisələr baş verir ki, hesab edirəm, bu kimi addımlar kampaniya xarakteri daşımamalıdır və buna ciddi yanaşılmalıdır. Avtomobilin yük yerini açıb baxmaqla məsələ həll olunmur. Çünki elə yük yerinin altında da içəri çox şey keçirmək olar. Bu işi görmək istəyən adam, ən gizli yerlərə partlayıcını maddə qoyub, içəri keçirə bilər. Yəni tədbir görmək yaxşı haldır, ancaq bunu daha diqqətlə etmək lazımdır. Hər şey ciddi araşdırılmalıdır. Hava limanı ən zəif yerdir. Doğrudur, bura daxil olub, təyyarəyə minmək üçün çox böyük prosedurlardan keçməlisən. Ancaq tarixə nəzər salsaq görərik ki, terrorçular olub ki, təyyarənin içərisinə qədər gediblər".

**Ekspertə görə, Azərbaycan indiki dönəmdə daxildəki tədbirləri artırmaqla yanaşı, ən böyük diqqəti dünyanın aparıcı dövlətlərinin xüsusi xidmət orqanları ilə ciddi əməkdaşlığa yönəltməlidir:** "Terrorizmə qarşı birgə mübarizə apardığımız ölkələr var. Misal olaraq, İsraili, ABŞ-ı, Qərbi Avropanın bir sıra ölkələrini göstərmək olar. Həmin ölkələrin xüsusi xidmət orqanları ilə informasiya mübadiləmiz olmalıdır. Eyni zamanda bizim özümüzün də kəşfiyyat məlumatlarımız olmalıdır. İsrail kimi bir dövlət, radikal dindarların bayrağı altında fəaliyyət göstərən terror təşkilatlarının içərisində daha çox əməliyyat mənbələrinə malikdir və daha geniş informasiya alır. Bu baxımdan hesab edirəm ki, İsrail xüsusi xidmət orqanları ilə əməkdaşlığa daha çox önəm vermək lazımdır. Təbii ki, ABŞ üçün də bu keçərlidir. Bütün bunlar olarsa, qabaqlayıcı tədbirlər almaq mümkündür. Eyni zamanda ölkənin ərazisinə daxil olan şəxslərin kimliyi diqqətlə yoxlanılmalıdır. Çünki ölkəmizin içərisində, cəmiyyətimizdə terrora meyl demək olar ki, yoxdur. Terrora meylli çox az sayda insan var idi ki, onlar da Suriyaya və digər bu kimi yerlərə getdilər. Oradan geri qayıdanlar da həbs olunublar. Elə cəmiyyətlər var ki, orada terrorçu, qatil yetişdirmək çox asan prosesdir. Bu, bizim ölkəyə xas olan məsələ deyil. O baxımdan bildirirəm ki, diqqəti daha çox xaricdən gələnlərə yönəltmək lazımdır. Bu ərəfə xüsusilə də Şimali Qafqazdan gələnlərə daha çox diqqət edilməlidir".

❑ **Əli RAİS**

# Binəqədidəki binanın qəsdən yandırılmasına dair sensasion iddia - yeni faktlar

## Vəkil İlhamə Həsənova: “16 may, 2015-ci il tarixdə Nərimanovda poliuretanla üzlənmiş binanın yandırılmasına cəhd olub, bununla bağlı cinayət işi açılıb”; “Bakıda müxtəlif binalarda silsilə yanğınlar planlaşdırılmışdı”



**Bakı Ağır Cinayətlər Məhkəməsində ötən il mayın 19-da Binəqədi rayonunda yaşayış binasında baş vermiş yanğınla bağlı təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəməyə hazırlıq iclası maraqlı faktları ortaya çıxarıb. Bəlli olub ki, binanın poliuretanla üzlənməsini “Global Construction” şirkətinə Binəqədi rayon İcra Hakimiyyəti sifariş edib.**

Şirkət icra hakimiyyətinin sifarişi ilə binaya məhz poliuretan adlı üzlüyü çəkib. Amma bu günə qədər icra hakimiyyəti orqanı sifariş etdiyi, gördürdüyü işlərin qarşılığında “Global Construction” şirkətinə ödəməli olduğu 22 milyon manatı verməkdən yayınır. Təqsirləndirilən şəxs, “QlobalStone” MMC-nin baş direktorun müavini Uğur Bəşirovun vəkili Cavid Rzazadə “Yeni Müsavat”a açıqlamasında deyib ki, binanın yanmasında “Qlobal Stone” və “Global Constuction”nın əlaqəsi yoxdur. Çünki binanın üzlənməsini Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü və sifarişi əsasında “Global” şirkəti icra edib: “Bunu təsdiqləyən tərəflərin arasında müqavilə də var.

**Vəkil bildirib ki, sifarişçi - yəni Binəqədi RİH binanın məhz poliuretanla üzlənməsini sifariş edib:** “Müqavilədə bilavasitə sifarişçi göstərir ki, binaya poliuretan üzlük vurulmalıdır. Yəni müqavilədə sifarişçi beton və ya ağlay daş göstərməyib. Belə bir müqavilə ortada ikən, podratçı binanı digər materialla üzləyə bilərdi? Üstəlik binanı podratçı sifarişçiyə 2012-ci ildə təhvil verib. 3 il sonra binada yanğın baş verirsə, məsuliyyət podratçının ola bilməz. Bu işdə məsuliyyət müvafiq dövlət orqanlarının üzərindədir”.

**Vəkil bildirib ki, məhkəmədə bu məsələni həmkarı Pərviz Namazlı aydınlaşdırıb:** “2006-cı ilə qədər məsuliyyət Mənzil İstismar Sahələrinin (*MİS*) üzərində idi. Həmin yanğın təhlükəsizliyinə nəzarət MİS-dən alınıb Fövqəladə Hallar Nazirliyinə verilib”.

Vəkil “bu işdə təqsirkar kimdir”sualına belə cavab verib: “Bu işdə təqsirli Binəqədi İcra Hakimiyyəti və FHN-in müvafiq qurumudur”.

**“Global Constraction” MMC-nin təsisçisi Miryusif Mahmudovun vəkili İlhamə Həsənova** “Yeni Müsavat”a ilginc faktlar açıqlayıb.

Bakıda müxtəlif binalarda silsilə şəkildə olaraq qəsdən, xüsusi üsulla yandırılma faktları olub!

Vəkil bildirib ki, binadakı yanğından sonra araşdırma aparıblar və Bakıda müxtəlif binalarda silsilə şəkildə olaraq qəsdən, xüsusi üsulla yandırılma ilə bağlı məlumatları əldə ediblər:

“Həmin hadisədən (2015-ci il mayın 19-da Binəqədidə binanın yanmasını nəzərdə tutur - E.M ) az əvvəl, may ayının 7-də möhtərəm prezident Nərimanov rayonu, Koveroçkin küçəsində yerləşən, veteranlar üçün nəzərdə tutulan binanın açılışında iştirak edib. Həmin binanı da poliuretanla ”Global Constraction" şirkəti üzləmişdi. Mayın 7-dən 9 gün sonra, 16 may tarixində, Binəqədidəki bina yanmazdan 3 gün əvvəl Nərimanovdakı veteranlar üçün nəzərdə tutulmuş binaya bitişik binada yanğın törədilib. Yanğın birmənalı şəkildə qəsdən törədilib. Sadəcə həmin yanğının qarşısı daha tez alınıb.

Həmin bina ilə Binəqədidə yanan binanın xarici görünüşü, bitişik binanın olması da üst-üstə düşür. İstintaq deyir ki, Binəqədidəki binada yanğın həmin binaya bitişik binanın damından başlayıb. Nərimanovda, veteranların binasında da eyni cür yanğın törədilib. Binanın damından neftə batırılmış kəndirləri yandırıb veteranlar üçün nəzərdə tutulan binaya bitişik binanın divarından sallamışdılar. Bunu niyə, nə məqsədlə etmişdilər?

3 gün fərqlə belə bir hadisə baş verib.

Sadəcə olaraq Nərimanovda olan yanğın xoşbəxtlikdən tez söndürülüb deyə veteranlar üçün nəzərdə tutulan binada yanğın olmayıb. Həmin vaxt veteranlar binası yansaydı, “Global Constraction” şirkətinin rəhbərliyini bu fakta görə istintaqa cəlb edəcəkdilər".

Vəkil bildirib ki, bu hadisədən sonra da oxşar silsilə hadisələr baş verib: “Bakıda analoji materiallarla üzlənmiş binaların yandırılması cəhdləri olub. Bunlar istintaqa məlumdur. Bu haqda biz istintaqa əldə etdiyimiz məlumatları təqdim etmişik. Bu hadisələrin silsilə törədilməsi qəribə deyil?”

İ.Həsənova bildirib ki, Nərimanovda, veteranlar üçün nəzərdə tutulan binanın qəsdən yandırılmasına cəhd faktı ilə əlaqədar Nərimanov Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işi başlanıb.

Vəkil Binəqədidə yanğın baş vermiş binanın sakinləri özləri də poliuretanla eksperiment aparıblar: “Özləri də əmin olublar ki, binanın üzləndiyi poliuretan yanmır. Onlar ”qarelka"nı yandırıb poliuretanın üzərinə tutublar, poliuretan tüstüləyib, amma yanmayıb. O boyda binanın 1 siqaret külünün düşməsindən yanması məntiqə sığmır. “Qarelka”nın davamlı alovu qarşısında yanmayan poliuretan siqaret külündən yana bilər? İstintaq ekspertiza rəyinə istinad edir ki, orada yanğından sonra kənar maddənin qalıqları qalmayıb. Amma ekspertlər də deyirlər ki, heç də hər bir maddənin yanğından sonra qalıqları qalmır. Məsələn, asetonu hər hansı bir materialın üzərinə tökub yandırsaq və yanğından sonra ekspertiza təyin edilsə, həmin materialın alışmasına səbəb olan asetonun qalıqlarını müəyyən etmək mümkün olmur. Biz ehtimal edirik ki, həmin mayeni binanın damından kimsə tökə bilərdi.

İstintaq tərəfi bildirir ki, kameralarda elə bir şey görünmür. Axı o boyda binanı yandırmaq istəyən adam hamının gözü qabağında oradan həmin təzalışan mayeni səpələməyəcəkdi ki?!".

Vəkil “hansı kameralardan söhbət gedir” sualına belə cavab verib: “İstintaqın mülahizəsinə görə orada notariat kontorunun böyründə kameralar var. Amma yanan bina həmin kameraların əhatə dairəsinə düşmür. İşə də həmin kameraların yaddaşından çıxarışları əlavə ediblər. İstintaq ehtimal edir ki, siqaret külü orada binaya bitişik qeyri-yaşayış sahəsinin damında yığışan zibilin üzərinə düşüb. Ehtimal edilir ki, qeyri-yaşayış sahəsinin damında başlayan yanğın sonra binaya keçib. İttiham ehtimal üzərində qurula bilməz. Ona görə də biz ittiham tərəfindən xahiş etdik ki, bütün versiyalar, binanın qəsdən yandırılması versiyası da yoxlansın. Bunun üçün çox ciddi əsaslar var”.

Qeyd edək ki, qulluq mənafeləri tələb etdiyi halda səlahiyyətlərindən istifadə etməmələri nəticəsində vətəndaşların və dövlətin hüquqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarında kifayət qədər əsaslar olduğundan binaların üzlənməsində istifadə olunan “poliuretan” məmulatını istehsal edən “QlobalStone” MMC-nin baş direktorun müavini Bəşirov Uğur Firuz oğlu, “Global Construction” MMC-nin təsisçisi Mahmudov Miryusif Mircəfər oğlu, həmin cəmiyyətin idarə heyətinin sədr müavini Əsgərov Ələkbər İldırım oğlu, Binəqədi rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini Novruzov Qəzənfər Məhərrəm oğlu, 2012-2013-cü illərdə Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi vəzifəsində işləmiş rayon İcra Hakimiyyətinin Təsərrüfat şöbəsinin müdiri Rəcəbov Ədalət Şəmsəddin oğlu, Binəqədi rayonu, 72 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Orucov Nizami Qara oğlu Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarının pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə, “poliuretan” məmulatlarının sınaq yoxlamalarını keçirən “Dərnəgül Boru Zavodu” Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri Məmmədov Ağacavad Hacı oğlu Cinayət Məcəlləsinin 308.2 və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə, “poliuretan” məmulatlarına dair texniki şərtləri razılaşdırmış Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Əlibəyov Akif Muradəli oğlu Cinayət Məcəlləsinin 308.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qisminə cəlb olunaraq, onlara həmin maddələrdə nəzərdə tutulan ittihamlar elan edilib. Xatırladaq ki, yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb.

# Ərdoğanın suçu nə...



Azər AYXAN

**İndiki anda Ərdoğanı qınamaq, onu baiskar kimi göstərmək terrora dəstək verməyə bərabər əməldi. 70-80-ci illərdə ASALA terror əyləmləri ilə Türkiyəni sarsıdanda, 78-ci ildən 2002-ci ilə kimi PKK terroru qardaş ölkəni cənginə alanda, Türkiyə əsgərini, sivil vətəndaşları öldürəndə iqtidarda AK Partiyaydı? 100 illər boyu Osmanlını, 10 illərdir Atatürkün qurduğu Türkiyəni zəiflətmək, parçalamaq, imkan olarsa, hətta xəritədən silmək uğrunda iş gedir. Bu, Ərdoğanın, AK Partiyanın məsələsi deyil, bu, Türkiyə Cümhuriyyəti Dövlətinə qarşı xain plandı - iqtidarda kim olur-olsun, bu xain plan dayanmır, əksinə, daha da şiddətlənir.**

R.T.Ərdoğanın bir siyasi lider, ölkə rəhbəri kimi yanlışları, səhvləri var, bunu kimsə danmır. Zatən siyasətçilər - prezidentlər, baş nazirlər yanlış yapar. Bəzən də inandıqları proses sonda özünü doğrultmaz. Tarixdə, bu günümüzdə bu cür nümunələr çoxdu. ABŞ prezidentlərinin yanlış qərarlarını azmı gördük bu günə kimi? Avropa ölkələrinin liderləri də siyasi yanlışlara yol verirlər. “Ərəb baharı” kimi avantürist qərarlar alan dünya liderləri sonda bu yanlışa görə bataqlıqda çabalamadılarmı? Orta Doğunu qan gölündə boğdular, Avropa indi həmin ölkələrdən qaçqın düşən ərəblərin tapdağı altında qalıb. Avropa Avropa olmaqdan çıxıb az qala. Amma kimsə Fransa, Almaniya, İngiltərə dövlətlərini və hökumətlərinin başçılarını Ərdoğanı qınayacaq qədər qınamır.

Türkiyədə terror aktları həyata keçirilən kimi İslam və Ərdoğan qınanır, tənqid olunur. Niyə? Hansı dövlət başçısı istəyər ki, ölkəsində qan axsın, vətəndaşı ölsün, məmləkətində xaos yaşansın?! Bu cür yanaşmalar savadsızlıq və qərəzlilikdi. Ərdoğan bu gün istefa verib çəkilsə, iqtidardan və hətta siyasətdən getsə, Türkiyə həmən abadmı olacaq? Terror dayanacaqmı? PKK-nın, İŞİD-ın arxasındakı güclər qanlı əllərini Türkiyəmizin yaxasından çəkəcəklərmi? Əsla. Məsələ Ərdoğan və onun komandası deyil. Məsələ Türkiyə Cümhuriyyətina, Türkiyə vətəndaşlarına göz dağı verməkdi. Savaş Türkiyə və onun xalqı ilə gedir, Ərdoğanla yox. Bu sadə həqiqəti görməzdən gəlmək terrorçuların dəyirmanına su tökməkdən başqa bir işə yaramır.

Avropada son illər bir-birinin ardınca terror aksiyaları oldu. Parisdə, Brüsseldə ard-arda terror olayları yaşandı. Onlarla dinc insan öldürüldü. Dərhal müsəlmanlar lənətləndi, İslam pisləndi. Qərb dövlətləri illərlə terror təşkilatlarını bəsləməklə məşğul olub - bu, danılmaz faktdı. ABŞ Əfqanıstanda Sovet İttifaqı ilə döyüşmək üçün əl-Qaida terror təşkilatını yaratdı. Üsamə bin Ladeni əfsanəvi qəhrəmana çevirdi. Sonra bu hörgüt ABŞ-ın baş ağrısına çevrildi. 2001-ci ilin 11 sentyabrında eyni gündə, az zaman fərqi ilə Nyu-Yorkda, Vaşinqtonda dəhşətli terror aksiyalarından bütün dünya sarsıldı. Qərb mediası, ideolojisi, siyasəti ABŞ-ın əl Qaidaya qarşı savaşını anti-terror aksiyaları kimi qələmə verdi. İraqda Səddam Hüseynə qarşı başladılan mənasız savaş isə demokratiya və azadlıq mücadiləsi kimi düşüncələrə yeridildi. Nə Əfqanıstan terrorçulardan təmizləndi, nə İraqa demokratiya, sülh gəldi. Vəziyyət daha da pisləşdi. İndi hər gün İraqda insanlar terrorun qurbanı olur. Amerika əsgərinin çəkməsinin dəydiyi hansı torpaqda indiyədək əmin-amanlıq yaranıb?

Bəziləri Ərdoğanı PKK-nı gücləndirməkdə suçlayır. Türkiyə prezidenti “çözüm süreci”nə görə tənqid olunur. Türkiyə hökuməti bu prosesi məhz Qərbin israrlı tələbləri fonunda başlatdı. Dövləti qorumaq üçün Ərdoğan manevr etmək zorundaydı. Qərb PKK-ya nəfəs alması, dağdan Türkiyənin böyük şəhərlərinə enib təşkilatlanması üçün vaxt qazandırdı. Həmin vaxt Ərdoğan bunun tərsini etsəydi, bu, Türkiyəyə baha başa gələrdi. Bəlkə də bugünkü terror əyləmləri o zaman olacaqdı.

Demirik Rəcəb Tayyib Ərdoğan və iqtidarı 14 ildə yanlış yapmayıb, səhvlər buraxmayıb. Olub. Türkiyəni özbəöz vətəni kimi sevən bizlər bu yanlışları illərcə ələşdirdik, yanlış hesab etdiyimiz siyasəti kəskin tənqid etdik. Fəqət bu gün dünyanın dörd bir yanından Türkiyəyə basqı varsa, onun zəifədilməsi istiqamətində alçaqca iş aparılırsa, bunun faturasını Ərdoğana kəsmək ədalətli yanaşma deyil.

Türkiyədə ona görə terror olmur ki, Ərdoğan iqtidardan getsin. Türkiyə canlı bombaların hədəfinə ona görə gətirilir ki, bu ölkə zəifləsin, İraqın, Əfqanıstanın gününə düşsün. Türkiyə kimi qüdrətli, azman bir dövlətin varlığı dünyaya ağalıq etmək iddiasında olanları rahatsız edir. Türkiyə zəiflədilsə, parçalansa, bölünsə, Azərbaycanın da varolma şansları minimuma enəcək. Tək dəstəkçimiz, gerçək müttəfiqimiz, əsl dostumuz Türkiyə Cümhuriyyətidi. Onu iqtidarlara görə yox, məhz Türkiyə olduğuna görə sevdik, sevirik.

**Sevgimizi və dualarımızı Türkiyəmizdən əsirgəməyək.**

# Binəqədidəki binanın qəsdən yandırılmasına dair sensasion iddia - yeni faktlar

## Vəkil İlhamə Həsənova: “16 may, 2015-ci il tarixdə Nərimanovda poliuretanla üzlənmiş binanın yandırılmasına cəhd olub, bununla bağlı cinayət işi açılıb”; “Bakıda müxtəlif binalarda silsilə yanğınlar planlaşdırılmışdı”

**Bakı Ağır Cinayətlər Məhkəməsində ötən il mayın 19-da Binəqədi rayonunda yaşayış binasında baş vermiş yanğınla bağlı təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəməyə hazırlıq iclası maraqlı faktları ortaya çıxarıb. Bəlli olub ki, binanın poliuretanla üzlənməsini “Global Construction” şirkətinə Binəqədi rayon İcra Hakimiyyəti sifariş edib.**

Şirkət icra hakimiyyətinin sifarişi ilə binaya məhz poliuretan adlı üzlüyü çəkib. Amma bu günə qədər icra hakimiyyəti orqanı sifariş etdiyi, gördürdüyü işlərin qarşılığında “Global Construction” şirkətinə ödəməli olduğu 22 milyon manatı verməkdən yayınır. Təqsirləndirilən şəxs, “QlobalStone” MMC-nin baş direktorun müavini Uğur Bəşirovun vəkili Cavid Rzazadə “Yeni Müsavat”a açıqlamasında deyib ki, binanın yanmasında “Qlobal Stone” və “Global Constuction”nın əlaqəsi yoxdur. Çünki binanın üzlənməsini Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü və sifarişi əsasında “Global” şirkəti icra edib: “Bunu təsdiqləyən tərəflərin arasında müqavilə də var.

**Vəkil bildirib ki, sifarişçi - yəni Binəqədi RİH binanın məhz poliuretanla üzlənməsini sifariş edib:** “Müqavilədə bilavasitə sifarişçi göstərir ki, binaya poliuretan üzlük vurulmalıdır. Yəni müqavilədə sifarişçi beton və ya ağlay daş göstərməyib. Belə bir müqavilə ortada ikən, podratçı binanı digər materialla üzləyə bilərdi? Üstəlik binanı podratçı sifarişçiyə 2012-ci ildə təhvil verib. 3 il sonra binada yanğın baş verirsə, məsuliyyət podratçının ola bilməz. Bu işdə məsuliyyət müvafiq dövlət orqanlarının üzərindədir”.

**Vəkil bildirib ki, məhkəmədə bu məsələni həmkarı Pərviz Namazlı aydınlaşdırıb:** “2006-cı ilə qədər məsuliyyət Mənzil İstismar Sahələrinin *(MİS)* üzərində idi. Həmin yanğın təhlükəsizliyinə nəzarət MİS-dən alınıb Fövqəladə Hallar Nazirliyinə verilib”.

Vəkil “bu işdə təqsirkar kimdir”sualına belə cavab verib: “Bu işdə təqsirli Binəqədi İcra Hakimiyyəti və FHN-in müvafiq qurumudur”.

**“Global Constraction” MMC-nin təsisçisi Miryusif Mahmudovun vəkili İlhamə Həsənova** “Yeni Müsavat”a ilginc faktlar açıqlayıb.

Bakıda müxtəlif binalarda silsilə şəkildə olaraq qəsdən, xüsusi üsulla yandırılma faktları olub!

Vəkil bildirib ki, binadakı yanğından sonra araşdırma aparıblar və Bakıda müxtəlif binalarda silsilə şəkildə olaraq qəsdən, xüsusi üsulla yandırılma ilə bağlı məlumatlar əldə ediblər:

“Həmin hadisədən *(2015-ci il mayın 19-da Binəqədidə binanın yanmasını nəzərdə tutur - E.M.)* az əvvəl, may ayının 7-də möhtərəm prezident Nərimanov rayonu, Koveroçkin küçəsində yerləşən, veteranlar üçün nəzərdə tutulan binanın açılışında iştirak edib. Həmin binanı da poliuretanla "Global Constraction" şirkəti üzləmişdi. Mayın 7-dən 9 gün sonra, 16 may tarixində, Binəqədidəki bina yanmazdan 3 gün əvvəl Nərimanovdakı veteranlar üçün nəzərdə tutulmuş binaya bitişik binada yanğın törədilib. Yanğın birmənalı şəkildə qəsdən törədilib. Sadəcə, həmin yanğının qarşısı daha tez alınıb.

Həmin bina ilə Binəqədidə yanan binanın xarici görünüşü, bitişik binanın olması da üst-üstə düşür. İstintaq deyir ki, Binəqədidəki binada yanğın həmin binaya bitişik binanın damından başlayıb. Nərimanovda, veteranların binasında da eyni cür yanğın törədilib. Binanın damından neftə batırılmış kəndirləri yandırıb veteranlar üçün nəzərdə tutulan binaya bitişik binanın divarından sallamışdılar. Bunu niyə, nə məqsədlə etmişdilər?

3 gün fərqlə belə bir hadisə baş verib.

Sadəcə olaraq Nərimanovda olan yanğın xoşbəxtlikdən tez söndürülüb deyə veteranlar üçün nəzərdə tutulan binada yanğın olmayıb. Həmin vaxt veteranlar binası yansaydı, “Global Constraction” şirkətinin rəhbərliyini bu fakta görə istintaqa cəlb edəcəkdilər".

**Vəkil bildirib ki, bu hadisədən sonra da oxşar silsilə hadisələr baş verib:** “Bakıda analoji materiallarla üzlənmiş binaların yandırılması cəhdləri olub. Bunlar istintaqa məlumdur. Bu haqda biz istintaqa əldə etdiyimiz məlumatları təqdim etmişik. Bu hadisələrin silsilə törədilməsi qəribə deyil?”

İ.Həsənova bildirib ki, Nərimanovda, veteranlar üçün nəzərdə tutulan binanın qəsdən yandırılmasına cəhd faktı ilə əlaqədar Nərimanov Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işi başlanıb.

Vəkil Binəqədidə yanğın baş vermiş binanın sakinləri özləri də poliuretanla eksperiment apardılar: “Özləri də əmin oldular ki, binanın üzləndiyi poliuretan yanmır. Onlar "qarelka"nı yandırıb poliuretanın üzərinə tutublar, poliuretan tüstüləyib, amma yanmayıb. O boyda binanın 1 siqaret külünün düşməsindən yanması məntiqə sığmır. “Qarelka”nın davamlı alovu qarşısında yanmayan poliuretan siqaret külündən yana bilər? İstintaq ekspertiza rəyinə istinad edir ki, orada yanğından sonra kənar maddənin qalıqları qalmayıb.



Xaləddin İsgəndərov

Amma ekspertlər də deyirlər ki, heç də hər bir maddənin yanğından sonra qalıqları qalmır. Məsələn, asetonu hər hansı bir materialın üzərinə töküb yandırsaq və yanğından sonra ekspertiza təyin edilsə, həmin materialın alışmasına səbəb olan asetonun qalıqlarını müəyyən etmək mümkün olmur. Biz ehtimal edirik ki, həmin mayeni binanın damından kimsə tökə bilərdi.

İstintaq tərəfi bildirir ki, kameralarda elə bir şey görünmür. Axı o boyda binanı yandırmaq istəyən adam hamının gözü qabağında oradan həmin tezalışan mayeni səpələməyəcəkdi ki?!"

**Vəkil “hansı kameralardan söhbət gedir” sualına belə cavab verib:** “İstintaqın mülahizəsinə görə orada notariat kontorunun böyründə kameralar var. Amma yanan bina həmin kameraların əhatə dairəsinə düşmür. İşə də həmin kameraların yaddaşından çıxarışları əlavə ediblər. İstintaq ehtimal edir ki, siqaret külü orada binaya bitişik qeyri-yaşayış sahəsinin damında yığışan zibilin üzərinə düşüb. Ehtimal edilir ki, qeyri-yaşayış sahəsinin damında başlayan yanğın sonra binaya keçib. İttiham ehtimal üzərində qurula bilməz. Ona görə də biz ittiham tərəfindən xahiş etdik ki, bütün versiyalar, binanın qəsdən yandırılması versiyası da yoxlansın. Bunun üçün çox ciddi əsaslar var”.

**Qeyd edək ki, qulluq mənafeləri tələb etdiyi halda səlahiyyətlərindən istifadə etməmələri nəticəsində vətəndaşların və dövlətin hüquqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarında kifayət qədər əsaslar olduğundan binaların üzlənməsində istifadə olunan “poliuretan” məmulatını istehsal edən “QlobalStone” MMC-nin baş direktorun müavini Bəşirov Uğur Firuz oğlu, “Global Construction” MMC-nin təsisçisi Mahmudov Miryusif Mircəfər oğlu, həmin cəmiyyətin idarə heyətinin sədr müavini Əsgərov Ələkbər İldırım oğlu, Binəqədi rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini Novruzov Qəzənfər Məhərrəm oğlu, 2012-2013-cü illərdə Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi vəzifəsində işləmiş rayon İcra Hakimiyyətinin Təsərrüfat şöbəsinin müdiri Rəcəbov Ədalət Şəmsəddin oğlu, Binəqədi rayonu, 72 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Orucov Nizami Qara oğlu Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə, “poliuretan” məmulatlarının sınaq yoxlamalarını keçirən “Dərnəgül Boru Zavodu” Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri Məmmədov Ağacavad Hacı oğlu Cinayət Məcəlləsinin 308.2 və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə, “poliuretan” məmulatlarına dair texniki şərtləri razılaşdırmış Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Əlibəyov Akif Muradəli oğlu Cinayət Məcəlləsinin 308.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, onlara həmin maddələrdə nəzərdə tutulan ittihamlar elan edilib. Xatırladaq ki, yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ərdoğanın suçu nə...



**Azər AYXAN**

**İndiki anda Ərdoğanı qınamaq, onu baiskar kimi göstərmək terrora dəstək verməyə bərabər əməldi. 70-80-ci illərdə ASALA terror əyləmləri ilə Türkiyəni sarsıdanda, 78-ci ildən 2002-ci ilə kimi PKK terroru qardaş ölkəni cənginə alanda, Türkiyə əsgərini, sivil vətəndaşları öldürəndə iqtidarda AK Partiyaydı? 100 illər boyu Osmanlını, 10 illərdir Atatürkün qurduğu Türkiyəni zəiflətmək, parçalamaq, imkan olarsa, hətta xəritədən silmək uğrunda iş gedir. Bu, Ərdoğanın, AK Partiyanın məsələsi deyil, bu, Türkiyə Cümhuriyyəti Dövlətinə qarşı xain plandı - iqtidarda kim olur-olsun, bu xain plan dayanmır, əksinə, daha da şiddətlənir.**

R.T.Ərdoğanın bir siyasi lider, ölkə rəhbəri kimi yanlışları, səhvləri var, bunu kimsə danmır. Zatən siyasətçilər - prezidentlər, baş nazirlər yanlış yapar. Bəzən də inandıqları proses sonda özünü doğrultmaz. Tarixdə, bu günümüzdə bu cür nümunələr çoxdu. ABŞ prezidentlərinin yanlış qərarlarını azmı gördük bu günə kimi? Avropa ölkələrinin liderləri də siyasi yanlışlara yol verirlər. “Ərəb baharı” kimi avantürist qərarlar alan dünya liderləri sonda bu yanlışa görə bataqlıqda çabalamadılarmı? Orta Doğunu qan gölündə boğdular, Avropa indi həmin ölkələrdən qaçqın düşən ərəblərin tapdağı altında qalıb. Avropa Avropa olmaqdan çıxıb az qala. Amma kimsə Fransa, Almaniya, İngiltərə dövlətlərini və hökumətlərinin başçılarını Ərdoğanı qınayacaq qədər qınamır.

Türkiyədə terror aktları həyata keçirilən kimi İslam və Ərdoğan qınanır, tənqid olunur. Niyə? Hansı dövlət başçısı istəyər ki, ölkəsində qan axsın, vətəndaşı ölsün, məmləkətində xaos yaşansın?! Bu cür yanaşmalar savadsızlıq və qərəzlilikdi. Ərdoğan bu gün istefa verib çəkilsə, iqtidardan və hətta siyasətdən getsə, Türkiyə həmən abadmı olacaq? Terror dayanacaqmı? PKK-nın, İŞİD-ın arxasındakı güclər qanlı əllərini Türkiyəmizin yaxasından çəkəcəklərmi? Əsla. Məsələ Ərdoğan və onun komandası deyil. Məsələ Türkiyə Cümhuriyyətina, Türkiyə vətəndaşlarına göz dağı verməkdi. Savaş Türkiyə və onun xalqı ilə gedir, Ərdoğanla yox. Bu sadə həqiqəti görməzdən gəlmək terrorçuların dəyirmanına su tökməkdən başqa bir işə yaramır.

Avropada son illər bir-birinin ardınca terror aksiyaları oldu. Parisdə, Brüsseldə ard-arda terror olayları yaşandı. Onlarla dinc insan öldürüldü. Dərhal müsəlmanlar lənətləndi, İslam pisləndi. Qərb dövlətləri illərlə terror təşkilatlarını bəsləməklə məşğul olub - bu, danılmaz faktdı. ABŞ Əfqanıstanda Sovet İttifaqı ilə döyüşmək üçün əl-Qaida terror təşkilatını yaratdı. Üsamə bin Ladeni əfsanəvi qəhrəmana çevirdi. Sonra bu hörgüt ABŞ-ın baş ağrısına çevrildi. 2001-ci ilin 11 sentyabrında eyni gündə, az zaman fərqi ilə Nyu-Yorkda, Vaşinqtonda dəhşətli terror aksiyalarından bütün dünya sarsıldı. Qərb mediası, ideolojisi, siyasəti ABŞ-ın əl Qaidaya qarşı savaşını anti-terror aksiyaları kimi qələmə verdi. İraqda Səddam Hüseynə qarşı başladılan mənasız savaş isə demokratiya və azadlıq mücadiləsi kimi düşüncələrə yeridildi. Nə Əfqanıstan terrorçulardan təmizləndi, nə İraqa demokratiya, sülh gəldi. Vəziyyət daha da pisləşdi. İndi hər gün İraqda insanlar terrorun qurbanı olur. Amerika əsgərinin çəkməsinin dəydiyi hansı torpaqda indiyədək əmin-amanlıq yaranıb?

Bəziləri Ərdoğanı PKK-nı gücləndirməkdə suçlayır. Türkiyə prezidenti “çözüm süreci”nə görə tənqid olunur. Türkiyə hökuməti bu prosesi məhz Qərbin israrlı tələbləri fonunda başlatdı. Dövləti qorumaq üçün Ərdoğan manevr etmək zorundaydı. Qərb PKK-ya nəfəs alması, dağdan Türkiyənin böyük şəhərlərinə enib təşkilatlanması üçün vaxt qazandırdı. Həmin vaxt Ərdoğan bunun tərsini etsəydi, bu, Türkiyəyə baha başa gələrdi. Bəlkə də bugünkü terror əyləmləri o zaman olacaqdı.

Demirik Rəcəb Tayyib Ərdoğan və iqtidarı 14 ildə yanlış yapmayıb, səhvlər buraxmayıb. Olub. Türkiyəni özbəöz vətəni kimi sevən bizlər bu yanlışları illərcə eləşdirdik, yanlış hesab etdiyimiz siyasəti kəskin tənqid etdik. Fəqət bu gün dünyanın dörd bir yanından Türkiyəyə basqı varsa, onun zəifldilməsi istiqamətində alçaqca iş aparılırsa, bunun faturasını Ərdoğana kəsmək ədalətli yanaşma deyil.

Türkiyədə ona görə terror olmur ki, Ərdoğan iqtidardan getsin. Türkiyə canlı bombaların hədəfinə ona görə gətirilir ki, bu ölkə zəifləsin, İraqın, Əfqanıstanın gününə düşsün. Türkiyə kimi qüdrətli, azman bir dövlətin varlığı dünyaya ağalıq etmək iddiasında olanları rahatsız edir. Türkiyə zəifldilsə, parçalansa, bölünsə, Azərbaycanın da varolma şansları minimuma enəcək. Tək dəstəkçimiz, gerçək müttəfiqimiz, əsl dostumuz Türkiyə Cümhuriyyətidi. Onu iqtidarlara görə yox, məhz Türkiyə olduğuna görə sevdik, sevirik.

**Sevgimizi və dualarımızı Türkiyəmizdən əsirgəməyək.**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016



# Terrorla yanaşı yaşamaq vərdişi

Xalid KAZIMLI

**Yaponlar zəlzələdən qorxmurlar, çünki vərdiş ediblər. Onlarda "zəlzələdən qorxmaq lazım deyil, zəlzələ ilə yanaşı yaşamağı öyrənmək lazımdır" kimi bir neo-hikmət mövcuddur.**

Türkiyədəki silsilə terror aktları Yaponiyadakı yeraltı təkanlara dönüb. Ancaq hələlik terrorla yanaşı yaşamaq mümkün deyil, terror olan yerdə həyat yoxdur.

İndilikdə yalnız media terrorla yanaşı fəaliyyət göstərir, ölkədə və ya dünyada dəhşətli terror hadisəsi baş verəndə media avtomatik olaraq terror moduna keçir.

İlk xəbər adətən belə olur: "... şəhərində terror aktı baş verib - yaralananlar var". İki cümlə, üç sətir. Sıfır təfərrüat.

Üç dəqiqə keçir. Xəbər yenilənir: "...şəhərindəki terror aktında 3 nəfər ölüb, beş nəfər yaralanıb". Teraktı naməlum kamikadze törədib.

On dəqiqədən sonra artıq terror xəbərində xeyli yenilik var: "Teraktda ölənlərin sayı 10-u keçib, yaralılar 30-a çatıb. Terrorun hədəfi filan yerdir".

Daha sonra dövriyyəyə terrora məruz qalan ölkənin baş səhiyyə idarəsinin rəsmiləri çıxır. Bundan belə ölənlərin və yaralananların sayına onlar baxır.

Eyni zamanda kriminalistlər olaya müdaxilə edirlər, terroru törədənlər barədə ilk informasiyalar verilir.

Ölkənin prezidenti və ya baş naziri çox ləngimir, kameralar qarşısına çıxır, terroru lənətləyir, deyirlər ki, bu terakt demokratiyaya, mədəni dünyaya müharibə elan etməkdir.

Səhiyyə rəsmiləri ölənlərin sayının artdığını bildirir, ağır yaralananların hesabına ölənlərin sayının artacağını istisna etmirlər.

Kriminalistlər teraktı törədənlərin mənsub olduğu təşkilatın adını çəkir, kamera görüntülərinə əsasən onların kimliyini müəyyən etmək üzrə olduqlarını bildirirlər.

Qonşu və uzaq ölkələrdən terroru qınaq bəyanatları və başsağlığı mesajları gəlir. Bu sırada həmin ölkəni istəməyən düşmən ölkələrin rəhbərləri də olur.

Prezident və ya baş nazir hospitala baş çəkir, yaralılarla görüşür, sonra telekamera önünə keçərək, terrorun cəzasız qalmayacağını, onu törədənlərin mütləq cəzalandırılacağını bəyan edirlər.

Səhiyyə rəsmiləri ölənlərin və yaralananların sayına dair son rəqəmi açıqlayırlar. Rəqəmin böyüklüyü əhalini sarsıdır.

Kriminalistlər terrorçuların kimliyini təsbit edir, adlarını çəkir, əlaqələrini açıqlayırlar. Adı çəkilən terror qruplaşması məsuliyyəti ya lovğa-lovğa öz üzərinə götürür, ya da bic tərpənib, götürmür.

Prezidentin və ya baş nazirin rəhbərliyi ilə ölkənin təhlükəsizlik şurasının təcili toplantısı keçirilir, xüsusi xidmət və asayiş orqanlarının rəhbərlərinin hesabatı dinlənilir.

Dünya birliyi, ikinci, üçüncü dərəcəli ölkələr, eləcə də dördüncü, beşinci dərəcəli beynəlxalq qurumlar, o cümlədən onuncu, otuzuncu dərəcəli təşkilatlar terroru qınayan məlumatlar yayırlar.

Bunların hamısı mediada işıq üzü görür, yayılır. Politoloqlar terrora aid ilkin analizlərini ortaya qoyurlar. Sonra o analizlər dərinləşir və mütləq bu terrorda ABŞ-ın və ya Rusiyanın, bəzən isə ikisinin də əlinin ola biləcəyinə dair gümanlar irəli sürülür.

Bir az sonra daha ağıllı ekspertlər yavaş-yavaş eyham edirlər ki, bu teraktı filan-filan səbəblərə görə ölkə hakimiyyətinin özü törətmiş ola bilər - hansısa məqsədə çatmaq üçün.

Səhiyyə rəsmiləri ağır yaralılardan daha birinin öldüyünü xəbər verir və siyahının başını bağlayırlar. Ölənlərin və yaralıların siyahısı, yaşları, cinsi tərkibləri açıqlanır.

Kriminalistlər terrorçuların bütün əlaqələrini aşkara çıxarır, terrorun nə cür hazırlandığını göstərirlər. Bir neçə şübhəlinin həbs olunduğu xəbər verilir.

Daha sonra ölənlərin bəziləri haqda ürəkparçalayan detallar məlum olur: "Üç gün əvvəl toyu olubmuş"; "Bir həftədə sonra nişanlanacaqmış"; "15 gündən sonra övladı doğulacaqmış"; "15 il əvvəl atası da terror hadisəsində ölüb" və s.

Dünyadan başsağlığı mesajlarının gəlməsi, terrora kömək edənlərin həbsi, yüngül yaralıların evə buraxılması, həlak olanların dəfni, terrora aid təfərrüatların açıqlanması, versiyaların şaxələnməsi, hadisənin turizm sektoruna mənfi təsiri barədə ekspertlərin açıqlamaları davam edir.

Mediada terrorda ölümdən qıl payı qurtulanların hekayətləri yayılır - 5 saniyəlik gecikmə və ya tələsmə onların həyatını xilas edib. "Qismət" deyə müdrik-müdrik rezüme edənlərin sayı artır.

Sonra... sonra hər şey növbəti terror aktı baş verənə qədər unudulur. 40 gündən sonra jurnalistlər "müdhiş terakt"ın baş verdiyi günü xatırlamaq üçün Google-yə baxırlar.

**Həmin gün və ya ertəsi gün yeni bir terror aktı baş verir və mediada ilk xəbər yayılır. İki cümlə, üç sətir...**

# Altı ayın iqtisadi yekunu-vəziyyət ürəkaçan deyil...

## Ekspertlər vacib iqtisadi hadisələri sadalayırlar; hökumətin gələcəklə bağlı proqramı yoxdur

**İlin altı ayı ərzində ölkə iqtisadiyyatında baş verən proseslər ürəkaçan deyil. Ekspertlər bildirirlər ki, mənfi proseslər daha çox ötən il baş verən iki devalvasiyanın nəticəsi olaraq meydana çıxıb. Hökumətin atdığı addımlar isə böhranı önləmək üçün yetərli deyil.**

Ekspertlər musavat.com-a ötən müddətin yaddaqalan iqtisadi olaylarını açıqlayıblar. Ən yadda qalan hadisələrdən biri yanvar-fevral aylarında Azərbaycanda özəlləşmənin olacağı haqqında müxtəlif rəsmilər tərəfindən verilən bəyanatlardır. Sonradan bu, arxa plana keçib və tam əks proseslər baş verib. Dövlət idarələrinin yaradılması başlanıb. Üstəlik, bank sektoru ilə bağlı, pərakəndə ticarətlə bağlı ciddi problemlər yaşanır. Bu ilin altı ayı ərzində manat sabitləşə bilməyib. Hökumət manatın sabitləşməsi ilə bağlı tədbirlər görməyə çalışsa da, ekspertlər hesab edirlər ki, bu, yetərli deyil. Ekspertlər devalvasiyadan aylar keçsə də, hələ də manatın sabitləşə bilməmə təhlükəsinin olduğunu vurğulayırlar. İlin əvvəlindən banklar bir-birinin ardınca bağlanmağa başlayıb və bank sistemi ciddi narahatlıq mərhələsinə daxil olub.



Natiq Cəfərli



Fikrət Yusifov

Bank böhranını aradan qaldırmaq üçün olan ən ciddi addımlardan biri kimi hökumət əmanətlərin sığortalanması istiqamətində addımlar atıb. Hökumət əhalinin bank sisteminə inamının artırılmasına cəhd göstərsə də, ekspertlər bunun da effekt verdiyini düşünmürlər.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bu ilin altı ayında baş verən prosesləri ötən ilin davamı kimi qiymətləndirmək lazımdır: "Bu, bəzi rəsmi rəqəmlərdə də özünü büruzə verir. Azərbaycanda çox ciddi iqtisadi problemlər artıq dərinləşməkdədir. Ümumdaxili məhsulun bu ilin beş ayında 4,5 faiz azalması, xarici ticarət dövriyyəsinin azalmaları olması, kreditləşmənin iki milyarda yaxın azalması, bütün bu makroiqtisadi göstəricilər, bu faktorlar iqtisadi vəziyyətin daha çox dərinləşdiyini göstərir. Ən böyük problemlər bank sektorunda nəzərə çarpır. Bank sektorundakı problemləri hökumət və Mərkəzi Bank sadəcə ertələməklə məşğuldurlar. Ciddi şəkildə heç bir problem həll olunmur. Problemli kreditlərin həcmi hər ay arta-arta gedir. Banklar kreditləşməsi bərpa edə bilmir. Çünki əvvəl verdikləri kreditləri geri qaytara bilmirlər. Ən böyük problem də valyuta kreditləri ilədir. Keçən il iki dəfə baş verən kəskin devalvasiya kreditlərin faizlərindən əlavə, özünü iki dəfə bahalaşdırmışdı. Əhali bu kreditləri qaytara bilmir. Buna görə də bu ilin ilk altı ayının nəticələri ürəkaçan deyil. Müəyyən dərəcədə poztiv hadisələr oldu. Keçən aylarda, aprel-may aylarında manatın məzənnəsində stabillik müşahidə olundu. Amma yenidən, bu aydan etibarən artıq bu sahədə də müəyyən dalğalanmaları müşahidə edirik. Yəni bu sahədə hökumət qarşısına qoyduğu məqsədlərə çata bilmədi. Kiçicik bir dövr ərzində müəyyən stabilliyə nail olsa da, stabillik qalıcı olmadı. Çünki ölkənin çox ciddi xarici faktorlardan asılılığı bu günə qədər davam edir. Bu nöqteyi-nəzərdən ilk altı ayın nəticələri heç də ürəkaçan deyil".

**Ekspert Fikrət Yusifov** isə musavat.com-a açıqlamasında qeyd edib ki, problemlər qorxulu deyil: "Cari ilin birinci yarısı artıq başa çatmaq üzrədir. İlin birinci yarısı hansı iqtisadi, maliyyə göstəriciləri ilə yadda qala bildi. Ümumilikdə birinci yarım il iqtisadi azalmalarla müşayiət olunsa da, ayrı-ayrı sahələr üzrə pozitiv nəticələr də əldə olundu. Rəsmi dövlət statistikası bu günə hələlik cari ilin beş ayının nəticələrini bəyan edə bilir. Bu rəqəmlərdən görünür ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə ötən beş ay ərzində ümumi daxili məhsul 4,2 faiz azalıb. Lakin buna baxmayaraq, qeyri-neft sənayesi 3,5 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 5,8 faiz, informasiya və rabitə xidmətləri 11,1 faiz artıb. İlin ikinci yarısında iqtisadiyyatın bir qədər sabitləşməsi və azalma meyllərinin minimuma enməsi gözlənilir. Sabitləşmə ilk növbədə ölkə rəhbərliyi tərəfindən iqtisadiyyatın real sektorunun inkişafı istiqamətində keçən ilin sonlarından başlayaraq qəbul edilmiş qərarların icrası nəticəsində təmin ediləcək. Cari ilin ötən dövrü ərzində də real sektorun sürətli inkişafını təmin edə biləcək bir sıra ciddi qərarlar qəbul olundu. İndi başlıca vəzifə bu qərarların daha çevik həyata keçirilməsini təmin edə biləcək mexanizmlərin ortaya qoyulmasından ibarətdir. Hazırda bu mexanizmlərin daha çevik işləyə bilməsi məqsədilə bir sıra vacib addımlar atılır. İslahatların daha sürətli getməsini əsaslandıracaq əsas şərtlərdən biri budur ki, proseslər bilavasitə ölkə prezidentinin şəxsi nəzarəti altında aparılır. Bu sahədə çevikliyi təmin etmək, mümkün ola biləcək bütün maneələri aradan qaldırmaq məqsədilə bu gün prezidentin iqtisadi islahatlar üzrə köməkçisi xidməti ictimai rəyi öyrənmək təşəbbüsü ilə çıxış edir. Bunun özü islahatlara ən yüksək səviyyədə verilən diqqətin nəticəsi kimi dəyərləndirilməlidir".

**Ekspertin sözlərinə görə, neftin qiymətlərinin kəskin azalması səbəbindən cari ilin birinci yarısında bir neft ölkəsi olaraq ölkəmizin iqtisadiyyatı və onun maliyyə sistemi kifayət qədər ciddi problemlərlə üzləşib:** "Ötən il ərzində manatın iki kəskin devalvasiyası praktik olaraq onun iki dəfə ucuzlaşmasına gətirib çıxardı. Nəticədə bank sektoru sürətlə dollarlaşma məngənəsinə düşdü. Bu gün banklarda olan əmanətlərin 80 faizdən çoxu, kreditlərin isə 50 faizə qədəri xarici valyutadadır. İndi əsas vəzifə manatın tədricən sabitləşməsini, ona inamın bərpasını və ölkənin bank sisteminin sağlamlaşdırılmasını təmin edə biləcək addımların atılmasından ibarət olmalıdır. İlk öncə dollarlaşma səviyyəsini optimal həddə endirə biləcək düşünülmüş bir maliyyə siyasətinin aparılması zəruridir. Bu siyasət nəticə etibarilə milli valyutaya olan inamın bərpa olunmasına gətirib çıxarmalıdır. Ötən ilin birinci yarısında bu istiqamətdə atılan ən mühüm addımlarda biri prezident tərəfindən bütün əmanətlərin üç il müddətinə tam sığortalanmasına dair qəbul edilmiş qərar oldu. Eyni zamanda maliyyə bazarlarında proseslərə dövlət səviyyəsində nəzarəti daha yüksək səviyyədə həyata keçirmək məqsədilə Maliyyə Bazarlarına Nəzarət Palatası yaradıldı".

**F.Yusifov qeyd edib ki, bu gün ölkənin bank sisteminin ciddi islahatlara ehtiyacı var:** "Dövlət başçısı son aylarda keçirilən toplantılarda ölkədə sağlam bank sektorunun formalaşmasının zəruriliyini xüsusi vurğulayıb və bununla bağlı bank sisteminin qarşısında ciddi tələblər qoyub. Sağlam bank sistemi olmadan ölkə iqtisadiyyatının normal inkişafı da mümkün deyil. Bu səbəbdən də cari ilin ikinci yarısında Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası ölkənin bank sektorunun sağlamlaşdırılması istiqamətində kardinal tədbirlərin görülməsini təmin etməlidirlər. Cari ilin birinci yarısında ölkə iqtisadiyyatında əsasən neft qiymətlərinin kəskin azalması səbəbindən baş verən azalmalara baxmayaraq, ayrı-ayrı istiqamətlər üzrə pozitiv nəticələrin əldə olunması, real sektorun inkişafı istiqamətində ən yüksək səviyyədə ciddi addımların atılması deməyə əsas verir ki, bu il iqtisadi sabitləşmənin başlanğıc ili olacaq".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

**İyunun 28-də İstanbulun Atatürk Hava Limanında törədilmiş dəhşətli terror aktı nəticəsində 41 nəfər həlak olub, 147 nəfər yaralanıb.**

# Türkiyəni silkələyən xain terrorun pərdəarxası

## Qardaş ölkədə matəm elan edildi; Azərbaycan prezidenti türkiyəli həmkarına telefon açıb başsağlığı verdi; Bakıdakı Türkiyə səfirliyinə ziyarətçilər axışdı

Türkiyənin baş naziri Binəli Yıldırım partlayışların baş verdiyi ərazidə olub. O, partlayışların İŞİD terror qruplaşması tərəfindən həyata keçirildiyini bildirib. Dünyanı şoka salan bu xain hücum nəticəsində həlak olanların 13-ü əcnəbilər, qalanları isə Türkiyə vətəndaşlarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlət başçısı İstanbulun Atatürk Hava Limanında törədilmiş dəhşətli terror aktı nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Prezidentinə, ölənlərin ailə üzvlərinə və Türkiyə xalqına dərin hüznlə başsağlığı verib.

Prezident İlham Əliyev terrorçuların çirkin əməllərini qətiyyətlə pisləyərək Azərbaycanın həmişə olduğu kimi, bu ağır günlərdə də Türkiyənin yanında olduğunu vurğulayıb.

İngiltərənin baş naziri Devid Kemeron, İordaniya kralı 2-ci Abdullah, Yunanıstanın baş naziri Aleksis Çipras, Bosniya və Hersoqovina lideri Bəkir İzzetbeqoviç də Türkiyə prezidenti R.T.Ərdoğana zəng edərək xain hücumu pisləyiblər və Türkiyənin yanında olduqlarını bəyan ediblər. Bundan əlavə, Rusiya prezidenti V.Putin türkiyəli həmkarı ilə telefon danışığı zamanı ona başsağlığı verib.

ABŞ İstanbul şəhərinin Atatürk adına Beynəlxalq Hava Limanında baş vermiş terror hadisəsinin təhqiqatı prosesindəTürkiyəyə yaxından kömək edəcək. "Report" xəbər verir ki, bu barədə Birləşmiş Ştatların Dövlət Departamentinin açıqlamasında bildirilir.

**Dövlət Departamentinin açıqlamasına görə, ABŞ terror aktının araşdırılmasında Türkiyə ilə sıx əlaqədə olacaq:** "Biz terrorizmə qarşı mübarizədə NATO-dakı müttəfiqimiz Türkiyə ilə həmrəyik. Bu hücumlar bütün regionda terrorizm bəlası ilə mübarizə aparmaq işində Türkiyə hökuməti ilə işləməyə və ona dəstək verməyə sədaqətimizi gücləndirir”.

Dəhşətli hadisə ilə əlaqədar olaraq Türkiyədə birgünlük matəm elan olunub və ölkədə bütün bayraqlar endirilib.

İstanbulun Atatürk Hava Limanında törədilmiş terror aktı ilə əlaqədar iyunun 29-da çoxlu sayda Azərbaycan vətəndaşı Türkiyənin Bakıdakı səfirliyinin binası qarşısında toplaşaraq qardaş ölkə xalqının dərdinə şərik olub, ölənlərin xatirəsinə ehtiramlarını bildirib.

“Azərtac” xəbər verir ki, Atatürk parkından başlayan aksiyanın iştirakçıları səfirliyin binasının önünə yürüş edib, həlak olanların xatirəsinə hörmət əlaməti olaraq burada qərənfillər düzüb, əklillər qoyublar.

Əllərində Azərbaycanın və Türkiyənin bayraqlarını tutan insanlar hadisədən kədərləndiklərini bildirib, terroru lənətləyib, ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinə dair şüarlar səsləndiriblər. Tədbir iştirakçıları terrorla mübarizədə Azərbaycanın hər zaman Türkiyə xalqının və dövlətinin yanında olduğunu qeyd ediblər.

Yeri gəlmişkən, Türkiyə XİN-dən bildirilib ki, terror aksiyasında ölən və yaralananların şəxsiyyətlərinin müəyyənləşdirilməsi prosesində Azərbaycan Respublikası vətəndaşının adına rast gəlinməyib. (APA)

Türkiyəyə qarşı törədilən xain basqın əslində bütün dinc



insanlara, bəşəriyyətə qarşı hücum sayılır. Çünki söhbət hansısa hərbi obyektə deyil, dünyanın dörd bir tərəfindən Türkiyəyə gəlib-gedən dinc insanların olduğu hava limanında törədilən dəhşətli hadisədən gedir. Dünya mediası baş verənlərə xüsusi diqqət ayırıb. Xarici mətbuat türk polis əməkdaşının Atatürk Hava Limanında terror törədən kamikadzenin üstünə atılaraq başqalarını qorumaq üçün özünü qurban verməsinə xüsusi diqqət çəkib və onun qəhrəmanlığından bəhs edib. Axar.az xəbər verir ki, bu haqda NBC Nyus kanalının müxbiri məlumat yayıb. O, partlayışdan bir neçə saniyə əvvəl qəhrəman polisin özünü terrorçunun üstünə atmasından yazıb. Hadisə ilə bağlı İngiltərənin “Deyli Meyl” qəzeti də məlumat yayıb. Görüntülərdə bir deyil, iki polis əməkdaşının terrorçu ilə mücadiləsi əksini tapıb.

***

Türkiyədə törədilən terror aktının arxasında daha ciddi qüvvələrin dayandığı barədə ehtimallar səslənir. Hesab olunur ki, hava limanına hücum Ankaranın İsraillə 7 ildən, Rusiya ilə isə 7 aydan sonra pozulmuş münasibətləri normallaşdırmağa qərar verməsinə hansısa güc mərkəzlərinin cavab reaksiyasıdır.

“İstanbulda törədilən terror aktı Türkiyə hakimiyyətinin Rusiya və İsraillə münasibətləri bərpa etmə cəhdinə qarşı yönəlib”. AzVision.az xəbər verir ki, bunu Rusiya Federasiya Şurasının Beynəlxalq İşlər Komitəsinin sədri Konstantin Kosaçev deyib. Onun sözlərinə görə, terror aktının arxasında başqa məqsədlər dayanır: “Görünür ki, Türkiyəni başda Rusiya olmaqla yeni yaradılan vahid antiterror cəbhəsində iştirak etməsin deyə "xəbərdarlıq" ediblər. Terror aktı Rusiya və Türkiyə liderləri arasında dialoqa mane olmayacaq. Əksinə, münasibətlər daha da yaxşılaşacaq. Bütün bunlara baxmayaraq, biz bu gün Türkiyə xalqı ilə həmrəyik".

## Atatürk Hava Limanında törədilmiş qanlı akt Ankaranın Rusiya və İsraillə barışığına İŞİD-dən cavabdırmı; ekspertlərdən ilginc açıqlamalar

“İstambul Atatürk hava limanında baş verən terror aktı heç şübhəsiz ki, Türkiyəni bir dövlət və millət kimi həzm etməyən böyük güclərin, dövlətlərin və onların kəşfiyyat orqanlarının törətdiyi hadisədir”. Bu fikirlər isə **politoloq Zərdüşt Əlizadə**yə məxsusdur. Gununsesi.info-ya açıqlamasında deyib ki, Türkiyənin güclü ordusunun, NATO üzvü, oturuşmuş dövlət olmasına baxmayaraq, əsrlər boyudur bəzi böyük güclər və dövlətlər osmanlıları, Türkiyəni məhv etmək siyasəti həyata keçirirlər. “Biz bunu etiraf etməliyik ki, bu siyasət bu gün də davam edir. Elə son illərdə Türkiyədə baş verən terror hadisələri buna xidmət edir. Türkiyəni məhv etmək. Ancaq ümid edirik ki, Türkiyə nə vaxtsa bu çağırışlarla cavab verəcək”, deyə politoloq vurğulayıb.

Politoloq ölkədə baş verən müntəzəm terror hadisələrinə qarşı təhlükəsizlik qüvvələrinin effektiv mübarizə apara bilməməsində də qınayıb.

**Politoloq turizm mövsümündə belə bir hadisənin hava limanında baş verməsini Türkiyənin turizm potensialına vurulan zərbə kimi dəyərləndirib:** “Aeroportlar böyük turizm sənayesinin tərkib hissəsidir. Hava limanlarında, dəniz limanlarında, avtobuslarda, taksilərdə, otellərdə terror hadisələrinin törədilməsi birbaşa xarici ölkə turistlərin həmən ölkəyə səfərini əngəlləyən amildir. Bu yolla xarici ölkə vətəndaşının həmən ölkəyə gedərək istirahət etmək, pul xərcləmə həvəsini öldürürlər. O baxımdan İstambul hava limanında baş verən terror hadisəsi də Türkiyənin turizm sənayesinə vurulan böyük zərbənin tərkib hissəsidir”.

Z.Əlizadə sonda onu da əlavə etdi ki, dünyadakı bəzi güclər Misirdə, Türkiyədə və digər ölkələrdə belə terror hadisələri həyata keçirməklə həmən ölkələrin turizm sənayesinə ağır zərbələr endirirlər.

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, İstanbul hava limanında terror aksiyasının məhz Türkiyənin İsrail və Rusiya ilə barışdığı gün həyata keçirməsi təsadüfi deyil: “DAİŞ-in əsas düşmələri içərisində Rusiya və İsrail də yer alır. Ona görə bu iki dövlətlə barışan Türkiyəni bu yolla cəzalandırmaq istəyirlər. Hava limanının seçilməsi də təsadüfi deyil. Çünki Rusiya ilə barışdıqdan sonra rusiyalı turistlərin böyük əksəriyyəti məhz İstanbul hava limanından istifadə edəcəklər. Ancaq DAİŞ istəyinə çata bilməyəcək, tam əksinə, hava limanındakı partlayış Rusiya-Türkiyə yaxınlaşmasını daha da sürətləndirəcək və mümkündür ki, bu iki dövlətin DAİŞ-ə qarşı birgə mübarizəsi, koalisiyası formalaşsın. Bu terror aksiyasının arxasında hansısa üçüncü dövlətin olduğunu düşünmürəm. Çünki hansıda dövlət bu yollar Türkiyə-Rusiya barışığın pozmaq istəyibsə, tam əks nəticə ilə üzləşəcəyini anlamalıydı. Rusiya prezidenti Vladimir Putin Türkiyəyə qarşı bütün qadağalar ortadan qaldırmağı tapşırıb. İqtisadi sanksiyalar da qaldırılır, Rusiya vətəndaşlarına Türkiyədə istirahət etmələrinə də icazə verildi”.

**Politoloq Toğrul İsmayıl** isə əməkdaşımızın sualına cavabında dedi ki, hər bir ehtimalı irəli sürmək, ətrafında fikir yürütmək mümkündür: “Düzdür, bu terror aktı aylar öncədən planlaşdırılıbmış. Eyni zamanda səslənən ehtimallar da kənara qoyulmamalıdır”.

Əksini düşünənlər də var. **Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu** Moderator.az-a açıqlamasında hələlik hansısa dövləti bu terror aktında ittiham etmək üçün gərəkli əsas olmadığını vurğulayıb: “Bu terroru hansısa dövlətin ayağına bağlamaq düzgün olmaz.




Çünki hansısa dövləti terrorda ittiham etmək üçün əldə çox ciddi faktlar, əsaslar olmalıdır. Ən azından dolayı faktlar olmalıdır ki, bu da hələlik yoxdur. 11 sentyabr kimi ciddi terror aktının "Əl-Qaidə" kimi terror təşkilatı tərəfindən törədilməsinin şahidi olmuşuq ki, İŞİD ondan heç də zəif təşkilat deyil. İstənilən dövləti, o cümlədən, ABŞ, Rusiya, Suriya və s. dövləti o zaman terrorda ittiham etmək olar ki, əldə ciddi dəlillər olsun. Hələlik məlum olan budur ki, bu terror aktını İŞİD törədib".

İstanbul Atatürk hava limanında törədilən terror hücumundan sonra ABŞ şok iddia səsləndirib.

Publika.az CNN Türk-ə istinadən xəbər verir ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) direktoru Con Brennan 30 İŞİD üzvünün Türkiyəyə göndərildiyini deyib. Brennan İŞİD döyüşçülərinin “Əl-Qaidə”nin ən güclü olduğu dövrdən belə çox olduğunu bildirib. CİA-nın direktoru ötən həftə ABŞ Senatının kəşfiyyat komitəsini İŞİD təhlükəsi haqqında məlumatlandırıb. Brennan təşkilatın Liviyanı əməliyyat mərkəzi olaraq istifadə etməsindən narahatlığını ifadə edib. Komitəyə təqdim edilən hesabatda bildirilib ki, İŞİD-in Liviyada aktivləşməsi Avropada terror hücumlarını artıra biləcək bir faktordur.

Məlum olub ki, ABŞ Türkiyədə terror törədiləcəyindən xəbərdar imiş. Belə ki, iyunun 28-də ABŞ dövlət katibi Con Kerri vətəndaşlarına müraciət edərək, Türkiyəyə səyahət edərkən onları ehtiyatlı olmağa çağırıb. Dövlət katibi Türkiyənin 16 şəhərinin adını çəkərək, vətəndaşlarının özəlliklə bu şəhərlərdə ehtiyatlı olmalarını tövsiyə edib. Bu xəbərdarlıqdan bir neçə saat sonra dəhşətli terror akti törədilib. Antiterror koalisiyasının və NATO-nin üzvü olan Türkiyənin terrorla bağlı xəbərdar edilməməsi, yaxud xəbərdarlıq edildiyi halda ciddi təhlükəsizlik tədbirlərinin görülməməsi ortaya suallar çıxarır. Hətta CNN Türk 20 gün əvvəldən İŞİD-in bir sıra ünvanlarda, o cümlədən “Atatürk”də qanlı terror aktını həyata keçirəcəyi barədə müvafiq qurumların xəbərdar edildiyini açıqlayıb. Hətta bu xəbərdarlıqların fonunda “canlı bombalar”ın, üstəlik, “Kalaşnikov” avtomatı ilə silahlanmış terrorçunun hava limanına hansı yolla daxil olduğu ortaya ciddi suallar çıxarır.

Terror aktının Putin və Ərdoğan arasında yarım ildən sonra baş tutacaq ilk birbaşa əlaqə - telefon danışığından bir gün öncə törədilməsi də təsadüf olmaya bilər. Qeyd edək ki, 29 iyunda telefon danışığı baş tutub. Məhz bu danışıqdan sonra Rusiya hökuməti rus turistlərin Türkiyəyə getməsinə “yaşıl işıq” yandırıb.

****

İstanbul Atatürk hava limanında törədilən terror aktından sonra Türkiyə Silahlı Qüvvələri Suriyada İŞİD-ə qarşı hərbi əməliyyatlara başlayıb. Publika.az xəbər verir ki, Suriyanın şimalında İŞİD-ə aid silah bazası da daxil olmaqla 15 hədəf məhv edilib. İŞİD-ə aid hədəflər “Fırtına” qaubitsaları və döyüş təyyarələri ilə bombalanıb. Türkiyə ordusu paralel olaraq Şimali İraqda PKK-ya qarşı da hücuma keçib. Türkiyə döyüş təyyarələri PKK-ya aid sığınacaqları və bazaları məhv edib.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016



# 94 qəpiklik nazirlik

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanda ən bərbad xidmətlərdən biri rabitə xidmətləridir. Təsəvvür edin, dünya artıq internet üzərindən cərrahiyyə əməliyyatı da aparır, ancaq bizim rabitə xidmətlərinin haqqını elektron qurğular, ödəmə aparatları vasitəsi ilə vermək imkanımız yoxdur. Qotur bir telefon abunəsini ödəmək üçün gərək poçta gedəsən. İnternet sahəsində inhisarçı "Bakinternet"in aylıq haqqını da həmçinin elektron ödəmək imkanı yaradılmayıb, mütləq hansısa poçta girib bir tiplə üz-üzə gəlməlisən. Əli Abbasov işdən çıxarıldı, yerinə başqa nazir gəldi. MTN əhvalatında rabitə sektorundan da xeyli cinayətkarı dənlədilər, türmələrə doldurdular. Di gəl, vəziyyət dəyişmədi ki, dəyişmədi. Adam özünü Mirzə Cəlilin "Poçt qutusu" hekayəsinin qəhrəmanı kimi hesab edir - bunların üzündən.**

İki gün qabaq isə bizim ev telefonunu kəsiblər. Abunəni, internetin haqqını bir neçə ay qabaqdan ödəyən adam kimi təəccübləndim. Beynəlxalq danışıqlara çıxış imkanlarını da neçə il öncə ATS-ə ərizə verib bağlamışam. Bəs telefon niyə xəbərdarlıqsız bağlanıb? Gedirəm poçta, tragikomik bir məlumat alıram: "119-a iki dəfə zəng etmisiniz, bu da 94 qəpik edir. Buna görə telefon kəsilib". İlk dəfədir belə xidmətin olduğunu öyrənirəm. Sən demə, nəsə sorğu xidmətidir, hər dəqiqəsi 47 qəpikdir. Bizdən 2 dəqiqə gedib. Kim edib, bilmirəm. Bəlkə də uşaqlar qurdalayıb. Hər halda, internet dövründə hansısa gerizəkalı xidmətdən sorğu öyrənəcək halım yoxdur. Ancaq axı bu nə matah şeydir ki, bunun dəqiqəsi 47 qəpik olsun? 60 saniyəyə ordan bizə nə qiymətli kəlam öyrədəcəklər? Məncə, çox həyasız qiymətdir.

O cümlədən, qəpik-quruşa görə telefon bağlamağın mənası nədir? Hələ məndə 94 qəpik idi, poçtda 20 qəpiyə görə də telefonu bağlanan zəhmətkeş var idi! Dəlixanadır.

Məni ən çox yandıran bu əhvalatın həm də italiyalı deputata AŞ PA-da yalan danışması üçün verdikləri rüşvətin əyan olmasıyla eyni vaxta düşməsidir. Axı yapistlər Azərbaycandakı repressiyanı ört-basdır üçün verdikləri o rüşvəti məhz rabitə sektoru, konkret "Baktelekom" dövlət şirkəti üzərindən ötürüblər. Deməli, Luka Volonte-yə 2 milyon 390 min avro rüşvət vermək olur, ancaq Zamin Hacının 94 qəpik borca görə telefonunu kəsirsiniz? Utanın ölün. Ayıb olsun. Gələn dəfə heç olmazsa imkan verin borc 2 manat 39 qəpiyə-zada qalxsın. Kosmik-asan-xidmətli-formula-1-sokar dövlətimizə yaraşan rəqəm deyil 94 qəpik.

Yaxşısı budur, sizə Latviyadan nəql edim. Görün dünyada necə gülməli, karikatur dövlətlər yaranıbdır. Özü də dünənə qədər bizimlə eyni ittifaqda idilər, indi isə tamam korlanıblar. Söhbət Latviyadan gedir. Yaxın oturun.

Dünən Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs rəsmi şəkildə xalqdan üzr istəyibdir, korrupsiyaya yol verdiyini, xalqın əmlakını çırpışdırıb ofşora yatırdığını, uşağını polis rəisi, arvadını icra başçısı, bacanağını JEK müdiri, nənəsini bələdiyyə sədri qoyduğunu etiraf edibdir... Zarafat edirəm, ağlınız bizə getməsin. Latviya ədliyyə nazirinin üzrxahlıq səbəbi Azərbaycandan baxanda çox gülüncdür.

Deməli, mart ayında bu adam təzə evə köçürmüş, bir şkafı daşımaq üçün Ədliyyə Nazirliyinin mikroavtobusundan yararlanıb! Sürücüyə də buna görə 20 avro verib, şkaf gəlib çıxıb evə, ancaq qurdlu jurnalistlər hardansa xəbər tutublar ki, nazir iş yerinin avtobusundan şəxsi məqsədlər üçün yararlanıb. Bah! Üç aydır buna görə naziri itqusdu ediblər, doğulduğuna, təzə ev aldığına, şkaf daşıdığına peşmandır. İndi nazir deyir üzrlü sayın, nahar vaxtı idi, başqa maşın tutmağa vaxt olmadı, ancaq başa düşürəm, peşə etikasını pozmuşam, qara başım qurban olsun Latviya xalqına, dövlətə dəyən zərəri ödəyirəm, istəsəniz istefa verim!

**Vallah, belə etsələr bir gün başqa xalqlar da qudura-caq, nazirdən xalqa xidmət tələb edəcək. Rabitə nazirimizə deyək, bunun da hesabına bir-iki milyon atsın, özünə şkafdaşıyan avtobus alsın. Pis nümunə yoluxucu olur. Pulun 94 qəpiyini də mən qoyuram, təki bizdə elə bambılı nazirlər yaranmasın. Nazir şkaf kimi olmalıdır, xalqı da minib gəzməlidir.**

# "Mehriban düşmənlər" təzədən bir arada




# Kremldən kritik zəng - məktubu Ərdoğan yazdı, sükutu Putin pozdu...

## Uzun fasilədən sonra Rusiya lideri həmkarına telefon açdı; iki dövlət arasında 7 aylıq əsəb savaşı bitdi; 45 dəqiqə sürən söhbətdə prezidentlər təkbətək görüş barədə də razılığa gəldilər; əməkdaşlığın önü yenidən açıldı, Türkiyəyə qarşı turizm qadağası götürüldü...

**Rusiya ilə Türkiyə arasında ötən il noyabrın 24-də, "Su 24" hərbi təyyarəsinin vurulması ilə qırılan ikitərəfli münasibətlər qaydaya düşmüş sayıla bilər. Gözlənildiyi kimi, dünən Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana telefon açıb.**

Bununla da böhranlı mərhələdə olan münasibətlərdə rəsmən yeni bir səhifə açılmış olub. Necə deyərlər, 7 aylıq əsəb müharibəsi, çəkişmə, informasiya və psixoloji savaş dönəmi arxada qalmış sayıla bilər...

Türkiyə və Rusiyanın regional supergüc olaraq proseslərə təsir imkanları səbəbindən bu telefon zənginə bölgədə, həmçinin dünyada maraq və diqqət böyük idi. Əslində "Su 24" insidentindən sonra tərəflər arasında diplomatik əlaqələr kəsilməmişdi. Hər iki ölkədə səfirlər öz fəaliyyətlərini davam etdirirdi. Bu da ümid yaradırdı ki, "mehriban düşmənlər" uzun müddət küsülü qalmayacaq. Elə də oldu.

***

Türkiyə telekanallarının məlumatına görə, Putinlə Ərdoğan arasında Bakı vaxtilə saat 13:00-da başlayan telefon danışığı 45 dəqiqə çəkib. "Reuters" isə Türkiyə prezidentinin yaxın ətrafına istinadən bildirib ki, danışıq "çox məhsuldar və pozitiv" keçib.

Danışıqların detalları ilə bağlı ilk rəsmi açıqlama Türkiyənin Prezident Administrasiyasından gəlib. Qurumdan bildirildiyinə görə, prezidentlər ikitərəfli əlaqələrin normallaşmasının vacibliyi üzərində dayanıb, bu əlaqələri yenidən canlandırmaq üçün zəruri addımları atmaqla bərabər, bölgədəki siyasi, iqtisadi və humanitar böhranlara qarşı əməkdaşlıq içində olmağın vacibliyini vurğulayıblar.

Putinin telefon zəngi həm də İstanbul Beynəlxalq Hava Limanında törədilmiş və onlarla insanın ölümünə səbəb olan qanlı terror aktından bir gün sonraya təsadüf edirdi. Təbii ki, prezidentlər bu mövzuya da toxunub.

"Cənab Putin İstanbuldakı mənfur terror aktını qınayaraq, prezidentimizin timsalında bütün türk xalqına başsağlığı verib. İkitərəfli münasibətlərin canlanması və terrorla ortaq mübarizə mövzusunda anlaşan prezidentlər təkbətək görüş barədə razılığa gəliblər" - Türkiyə Prezident Administrasiyasından yaydığı açıqlamada qeyd edilir.

Kremlin mətbuat xidmətinin yaydığı açıqlamada isə telefon danışığında V.Putinin ilk olaraq Ərdoğanın məktubu məsələsinə toxunduğu bildirilir. Qurumdan verilən məlumatda deyilir ki, Rusiya prezidenti məktubu iki ölkə arasında gərginliyə son qoyulması və ikitərəfli münasibətlərin inkişafı üçün "vacib addım" kimi dəyərləndirib.

Bəzi məlumatlara görə, prezidentlər "Böyük 20"lərin noyabrda Çində keçiriləcək sammitində bir araya gələ bilərlər. Lakin Kremlin mətbuat katibi Dmitri Peskov görüşün yerinin və vaxtının hələlik bilinmədiyini, bunun "diplomatik kanallarla dəqiqləşdiriləcəyini" söyləyib.

***

İki lider arasında telefon danışığı gözlənildiyi kimi, iqtisadi, turizm və başqa sahələrdə əməkdaşlığın canlanması üçün stimul rolu oynayıb. Belə ki, Türkiyə prezidenti ilə telefon söhbətindən sonra V.Putin hökumət üzvləri ilə görüşündə Türkiyəyə rusiyalı turistlərin gedişinə qoyulmuş inzibati məhdudiyyətin aradan qaldırılması barədə göstəriş verib.

"Rusiya lideri bəyan edib ki, hökumətə tapşıracaq ki, ticari-iqtisadi və başqa sahələrdə ikitərəfli və qarşılıqlı faydalı əməkdaşlığın bərpası üçün müvafiq Türkiyə idarələri və qurumları ilə danışıqlara girsin. Bu, ikitərəfli iqtisadi və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar yaradacaq. Türkiyəli tərəfdaşlarımızın da oxşar addımlar atacağına ümid edirik". Bu barədə telefon danışığı ilə bağlı Kremlin mətbuat xidmətinin yaydığı növbəti açıqlamada bildirilir.

"Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla rusiyalı turistlərin Türkiyəyə getməsinə qoyulmuş məhdudiyyətlərin götürülməsini də müzakirə ediblər" - məlumatda ardınca qeyd olunur. Lakin rəsmi açıqlama ardınca vurğulanır ki, "Türkiyə hökuməti Rusiya vətəndaşlarının təhlükəsizliyini təmin eləmək üçün əlavə tədbirlər görməlidir".

***

Bu arada isə Türkiyə-Rusiya barışına reaksiya və şərhlər davam edir. Maraqlıdır ki, bu arada Kremlin danışan dillərindən sayılan LDPR sədri, Dövlət Duması sədrinin müavini, qatı antitürkçü kimi tanınan Vladimir Jirinovski ənənəvi leksikonundan fərqli olaraq Türkiyənin ünvanına növbəti dəfə isti sözlər deyib.

"Türkiyə bizə qardaş Belarus, Qırğızıstan və hətta Ermənistandan da yaxın olacaq. Gələcəkdə bu ölkə NATO-dan çıxaraq, Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olacaq. Bizə Türkiyə ilə əlaqələr çox sərfəlidir. Türkiyə üçün də Rusiya ilə əlaqə vacibdir. Moskva və Ankara arasında münasibətlər tam həcmdə bərpa olunmalıdır" - deyə, Jirinovski prezidentlərin telefonla danışdığı gün söyləyib.

Görünür, Kreml yeni situasiya səbəbindən Türkiyə ilə bağlı təlimatı dəyişib. O üzdən təbliğat da, leksikon da artıq müsbətə doğru dəyişib. Təki belə olsun.

❑ **Siyasət şöbəsi**

# Fransa parlamentində Azərbaycana qarşı təklif qəbul olunmadı

**Fransa Milli Assambleyasında qurumun Xarici Məsələlər üzrə Komitəsinin dünən keçirilmiş toplantısında Fransanın Cənubi Qafqaz bölgəsində sülh və demokratiyanın inkişaf hədəflərinə uyğun olaraq, bu ölkə ilə Azərbaycan arasında ikitərəfli siyasi, iqtisadi və diplomatik münasibətlərə dair xüsusi araşdırma komitəsinin yaradılması məsələsi müzakirə edilib.**

APA-nın Avropa bürosunun məlumatına görə, bu Qətnamə təklifi Fransa Parlamentinin mərkəzçi UDİ (Demokrat və Bitərəflərin Birliyi) qrupunun üzvləri, başda ermənipərəst mövqe ilə tanınan Fransua Roşbluan, eləcə də Tyeri Benua, Şarl de Kurson və digər deputatlar tərəfindən irəli sürülüb. İlk olaraq məsələ ilə bağlı məruzə edən Elizabet Giqu bu təklifin qəbul edilə bilməsi və ya bilməməsi haqqında fikirlərini bildirdi. Təklifin hüquqi cəhətdən qəbul edilə bilməsinin mümkün olmadığını qeyd etmiş xanım Giqu bu təklifin, eyni zamanda, qeyri-müəyyən formada tərtib edildiyini, Komitənin qayda və prosedurlarına uyğun olmadığını söyləyib. O, bundan başqa, Fransanın Dağlıq Qarabağ münaqişəsində həmsədr ölkəsi olduğunu vurğulayaraq Fransanın belə məsələlərdə bitərəf qalmalı olduğunu dilə gətirib.

Müzakirələrdə çıxış etmiş komitə üzvlərinin əksəriyyəti belə bir təklifin qəbul edilməsini Fransanın Dağlıq Qarabağ münaqişəsindəki vasitəçi roluna kölgə sala biləcəyini, eyni zamanda Fransa ilə Azərbaycan arasında iki milyard avro həcmində ticarət dövriyyəsini qeyd edərək iki ölkə arasındakı sıx iqtisadi əlaqələri mənfi təsir göstərə biləcəyini vurğulayıblar. Fransua Roşbluan öz təklifinin müdafiəsinə ayrılmış çıxışında Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməyə, hər vəclə bu təklifi keçirtməyə cəhd etsə də, sonda keçirilmiş səsvermələrdə qətnamə təklifi keçməyib və qəbuledilməz elan olunub.

**Bununla belə, sözügedən qətnamə təklifinə qarşı çıxmış məruzəçi, xanım Elizabet Giqu Milli Assambleyanın Xarici Məsələlər üzrə Komitəsində Dağlıq Qarabağ münaqişəsi və ATƏT-in Minsk qrupunun fəaliyyətinə dair məlumat missiyasının yaradılması təklifi ilə çıxış edib və onun bu təklifi səsvermədə komitə tərəfindən qəbul edilərək təsdiq edilməsi üçün Sədrlər Toplantısına göndərilib. Milli Assambleyanın Sədrlər Toplantısının bu məsələyə sabahkı iclasında baxacağı gözlənilir.**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinə barışıq məktubu yazıb. O, Su-24 qırıcısının vurulması zamanı həlak olan pilotun ailəsindən üzrxahlıq edib. Kremlin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, Ərdoğan məktubunda "üzr istəyirəm" ifadəsindən istifadə edib. Bundan başqa, Türkiyə prezidenti Moskvanı Ankaranın strateji tərəfdaşı adlandırıb və ölkəsinin Rusiya ilə münasibətləri korlamaq istəmədiyini bildirib.**

# Prezidentin üzr istəməsi utanc sayılırmı?

## **Ərəstun Oruclu:** "Dünya siyasətində çoxlu belə faktlar var, burada qəbahət heç nə yoxdur"



Dünya mətbuatında bu xəbər "Ərdoğan Putindən üzr istədi" kimi yazılsa da, məktubun mətni Kremlin rəsmi saytında dərc edilib və orada görünür ki, Türkiyə prezidenti həlak olan pilotun ailəsindən üzr istəyib. Məktubun mətni belədir: "Bizim heç vaxt Rusiyaya məxsus təyyarəni vurmaq kimi niyyətimiz olmayıb. Biz öz üzərimizə böyük risk götürərək və ciddi səy göstərərək rusiyalı pilotun cəsədini Suriya ərazisindən çıxardıq və onu Türkiyəyə gətirdik. Mən bir daha həlak olan pilotun yaxınlarına başsağlığı verirəm və üzr istəyirəm. Onların acısını bölüşürəm. Rusiyalı pilotun ailəsini türk ailəsi kimi qəbul edirəm. Ailənin acısını yüngülləşdirmək üçün istənilən təşəbbüsə hazırıq".

Qeyd edək ki, Ərdoğanın Rusiyadan üzr istəmək məsələsi məlum hadisədən sonra uzun müddət həm Türkiyə, həm də Azərbaycan mediasında müzakirə olunmuşdu. Türkiyə tərəfi öz mövqeyini müdafiə edərək üzr istəməkdən imtina edirdi. Lakin görünür, bu prosesdən sonra baş verənlər Ərdoğanın qərarına təsir edib.

Bəs, görəsən beynəlxalq siyasətdə prezidentlərin üzr istəməsi utanc sayılırmı? Nə üçün üzr istəmək məsələsi bu qədər qabardılır.

**Politoloq Ərəstun Oruclu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, beynəlxalq təcrübəsində belə faktlar kifayət qədər var və bu normal bir addımdır: "Dünya siyasətində çoxlu belə faktlar var ki, dövlətin hansısa siyasətinə görə, prezident və ya baş nazir üzr istəyir. Burada qəbahət heç nə yoxdur. Normal bir praktikadır. Əgər bunu Türkiyə-Rusiya münasibətləri baxımından da qiymətləndirsək, hesab edirəm ki, normal bir haldır. Əslində Türkiyəni Rusiya ilə toqquşdurmaqla üçüncü bir tərəf Türkiyəyə həddindən artıq ziyan vurmuş oldu. Türkiyə də bu ziyandan qayıtmaq üçün məhz bu addımı atmalı idi. Bu addım Türkiyənin maraqlarına xidmət edir və tamamilə normaldır. Siyasətdə də həyatda olduğu kimi üzr istəmək, səhvini etiraf etmək böyüklük əlamətidir. Mən buna başqa don geyindirməyin tərəfdarı deyiləm".

**Politoloq Qabil Hüseynli** də qeyd etdi ki, beynəlxalq siyasətdə üzr istəmək qətiyyən ayıb sayılmır: "Birincisi, Ərdoğan Rusiyadan üzr istəmədi, baş vermiş hadisədən təəssüfləndiyini bildirdi və həlak olmuş pilotun ailəsindən üzr istədi. Təəssüflənmək başqadır, üzr istəmək başqa. Bundan əvvəl də İsrail Türkiyədən üzr istəmişdi. Bu üzr istəmək məsələsi əksinə beynəlxalq münasibətlərdə yüksək qiymətləndirilir. ABŞ-da üzr istəmək məsələsi daha tez-tez baş verir. Çünki Amerika demokratiyanın, siyasi mədəniyyətin ən çox inkişaf etdiyi ölkələrdən biridir və öz vətəndaşı qarşısında böyük bir məsuliyyət hiss edir. Başqa ölkələrə münasibətdə də eyni məsuliyyəti hiss edir. Amerika baş verən hadisələrdə öz səhvini görürsə, qəbul edirsə dərhal üzr istəyir. Bu prezident səviyyəsində də ola bilər, vitse-prezident səviyyəsində də ola bilər, ayrı-ayrı nazirlər səviyyəsində də ola bilər. Ona görə də, bu məsələ qəribə qarşılanmamalıdır".

**Ərdoğanın üzr istəməsinə gəlincə, Q.Hüseynli bildirdi ki, Ərdoğanın ölkəsinin vəziyyətində olan istənilən dövlətin prezidenti bu addımı atmalıdır:** "Bu hətta bir qədər gecikmiş addımdır. Rusiya dünya siyasətində ipə-sapa yatmayan ölkədir, dünyaya əzələ nümayiş etdirir, Türkiyəni güclü iqtisadi-siyasi çətinliklərə düçar etmək istəyir. Bu səbəbdən də Türkiyə həm İsraillə qarşıdurma səviyyəsində idi, həm Rusiya ilə qarşıdurma səviyyəsində idi. Rusiya ilə münaqişə Türkiyəyə daha böyük ziyan verirdi. Üstəlik onun yaxın müttəfiqləri də Rusiyanın bu hərbə-zorbasından istifadə edib Türkiyəni təkləməyə çalışırdılar. Belə olan şəraitdə ən çox uduzan da Türkiyə dövləti idi. Bu baxımdan Ərdoğanın son hərəkəti alqışlanmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Müsəlman amili öz sözünü dedi, Tramp geri çəkildi

## **Arzu Nağıyev:** "Bu, prezidentliyə namizədin seçkiöncəsi siyasi manevridir"

**Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd, milyarder Donald Tramp Orlando şəhərində baş vermiş terror aktından sonra müsəlmanların ölkəyə gəlməsi ilə bağlı fikrini dəyişib. İndi o, hesab edir ki, "terrorçu ölkələrdən" gələn müsəlmanların ABŞ-a girişi yasaqlanmalıdır.**



Bu barədə CNN telekanalı Trampın mətbuat katibi Xoup Xiksə istinadla məlumat yayıb. O, hansı ölkələrin nəzərdə tutulduğunu açıqlamayıb. (strateq.az) Bundan əvvəl isə Tramp CNN-ə müsahibəsində qeyd etmişdi ki, terrorçuların çox fəal olduğu ölkələrdən belə müsəlmanlar ABŞ-a gələ bilərlər. Amma bunun üçün onlar ciddi yoxlamadan keçməli olacaqlar. Xatırladaq ki, ötən ilin dekabr ayında Tramp özünün ən qalmaqallı açıqlamalarından birini vermişdi. San-Bernardinodakı atışmadan sonra o, "müsəlmanların ABŞ-a girişinin bütünlüklə qadağan olunmasına" çağırmışdı. Tənqidlərə cavabında isə milyarder qeyd etmişdi ki, "İslam bizə nifrət edir". Bəzi ehtimallara görə, ABŞ kimi nəhəng bir ölkənin prezidentliyinə iddialı olan Tramp müsəlman amilinin ciddiliyini nəhayət, dərk etdiyi üçün geri çəkilməyə və siyasi baxışlarında korrektələr etməyə vadar olub.

**Politoloq Arzu Nağıyev** isə Trampın mövqe dəyişikliyini "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, bu, prezidentliyə namizədin seçkiöncəsi siyasi manevridir: "Məlumdur ki, bu gün İŞİD-in tərkibində vuruşan şəxslərin əksəriyyəti qeyri-müsəlman dövlətlərindən olan muzdlulardır. Daha dəqiq desək, hətta əsas kontingent məhz Avropa dövlətlərindən olan, bir neçə nəsildən sonra yaranan yerli vətəndaşlardır və hətta çoxu İŞİD-ə qoşulduqdan sonra müsəlmançılığın nə olduğunu bilirlər. Bundan başqa əsas təlimatçılar, kompüter mütəxəssisləri də Qərb ölkələrindən gəlmə qeyri-müsəlmanlardır. Bu gün ABŞ cəmiyyətində yetərincə müsəlman dininə ibadət edən vətəndaşlar var. Demokratik dəyərlərdən dəm vuran siyasətçi Tramp gözəl bilir ki, İŞİD xüsusi xidmət orqanları tərəfindən süni şəkildə yaradılan bir terror təşkilatıdır və özünü də dövlət adlandırmaqla gələcəkdə münasibətlərin əsasında olan və bu iddiaya əsaslanaraq dövlət yaratmaq istəyənləri öz ətrafında birləşdirməkdir. Yəni söhbət müsəlman dini və ya müsəlmanlardan getmir, bütün bunlar sadəcə bir vasitədir". **A.Nağıyevin sözlərinə görə, İstanbul terrorunun İŞİD tərəfindən törədildiyini hələ sübuta yetirmək lazımdır:** "Bəli, dəst-xətt var, yayılan şayiələr də İŞİD-in reklamıdır. Çünki son zamanlar onlara qarşı aparılan əməliyyatlar nəticəsində qüvvələri tükənib. PKK isə ən qəddar terror təşkilatlarından biri olsa da, tam müsəlman olmadıqları üçün dini mövzuda onları araşdıran yoxdur. Bir sözlə, Tramp sadəcə olaraq seçkiqabağı manevrlər edir".

❑ **Cavid TURAN**

# Türkiyə dövləti hədəfdə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Terror qardaş Türkiyənin ürəyi İstanbulu təzədən qana bələdi. Onlarla günahsız insan, o cümlədən əcnəbi əziz ayda həyatını itirdi. İlkin məlumata görə, qanlı olayın sifarişçisi və icraçısı İŞİD-dir.**

Təəccüblü deyil. Özlərini guya əsl "İslam davamçıları" sayan bu vəhşilər beləcə, mübarək Ramazan ayında da günahsız müsəlmanlara və qeyri-müsəlmanlara aman tanımadılar. Bununla da gerçək simalarını növbəti dəfə dünyaya göstərib, mərhəmət və şəfahət dini olan İslamın onlara zərrəcə aidiyyəti olmadığını nümayiş etdirdilər.

Zülmkarın, terrorçunun dini-imanı, milliyyəti olmaz. İnsanlara sevgi imandandır. Zülmlə mübarizədə həlak olanları isə Peyğəmbərimiz (ə) şəhid adlandırıb. Öz növbəsində müqəddəs Qurani-Kərimdə bir günahsız insanın öldürülməsi bəşəriyyəti öldürməyə bərabər günah sayılır, günahsız mömini öldürənlərə isə əbədi cəhənnəm vəd olunur.

Türkiyəyə qarşı budəfəki terror hücumunun birinci özəlliyi bu - din adına qanlı cinayətlər törədən İŞİD amili, onun sərhəd tanımayan qəddarlığı, mübarək Ramazan ayında belə sadə insanların, müsəlmanların, oruc əhlinin, iftara hazırlaşanların, uşaqların qanına susaması.

Hücumun ilk dəfə olaraq ölkənin xaricə əsas giriş-çıxış qapısı hesab edilən İstanbul Beynəlxalq Hava Limanında törədilməsi ikinci özəllik sayıla bilər *(Türkiyədə, İstanbul hava limanında bundan əvvəlki terror hadisəsi 34 il qabaq - 1982-ci ildə ASALA tərəfindən törədilmişdi).*

Bu, qardaş dövlətə ciddi bir mesajdır və şübhəsiz ki, onun xarici aləmlə əlaqələrinə, ünsiyyətinə sarsıdıcı zərbə vurmağa, xüsusən də turizm mövsümündə ölkəyə əcnəbi axınını əngəlləməyə, yekun etibarilə Türkiyənin iqtisadi və maliyyə dayaqlarına zərbə endirməyə, nəhayət, onun təcridinə hesablanıb.

Terrorçular və onların arxasında duran regional və beynəlxalq çaplı qüvvələr yaxşı bilir ki, hava limanında əsasən xarici vətəndaşlar, qonaqlar olur. Təsadüfi deyil ki, dünənki terrorun qurbanları arasında əcnəbilər də var. Bu da olsun hədəfin niyə məhz hava limanı seçildiyinə işarə edən üçüncü amil.

Yeri gəlmişkən, qanlı aktın Ankaranın İsrail və Rusiya ilə əlaqələri qaydaya salmağa başladığı günə təsadüfi eləməsi də diqqət çəkir. Hava limanındakı terror hücumunu Türkiyənin bu iki dövlətlə münasibətləri normallaşdırmaq istəməsinə cavab olduğunu düşünən təhlilçilər bu xüsusda az deyil. Terror aktının bu dəfə PKK deyil, məhz İŞİD tərəfindən törədilməsi sonuncu versiyanı gücləndirir. Niyə?

Ona görə ki, İŞİD artıq fərqindədir ki, üç ölkə arasında münasibətlərin normala qayıtması və güclənməsi onun özünə qarşı mübarizəni də mütləq gücləndirəcək, bu mübarizə yeni keyfiyyət fazasına keçirəcək, İŞİD ətrafında halqə daha da daralmış olacaq.

Bütün hallarda hədəflərin mərkəzində sözsüz ki, Türkiyə dövləti, onun xalqı dayanır. Baş vermiş xain hücum həmçinin, beynəlxalq terrorizmlə mübarizədə qardaş məmləkətin ön cəbhədə qərar tutduğuna şübhə yeri saxlamır. Başqa sözlə, Türkiyə sinəsini indi həm də digər dövlətlər və xalqlara görə terrorçulara sipər edib.

**Deməli, bəşəriyyəti bu böyük bəladan qurtarmaq üçün ən əvvəl Türkiyəyə kömək əli uzadılmalı, ona hər cür dəstək verilməlidir. Terrorla mübarizədə qalibin İŞİD kimi bir amansız və qəddar qüvvənin olmasına əsla imkan verilə bilməz. Əks təqdirdə, bu gün özünü ən təhlükəsiz durumda və terrordan sığortalanmış sayan, "məndən ötdü və ötəcək" deyən hər kəs yaşadığı məkandan asılı olmayaraq, günün birində terroru öz evində görəcək.**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

# Rusiya ilə yaxın münasibətdə olmağın faydası

## Rəsmi Bakı Şimal qonşusu ilə qardaş dövləti barışdırmaqla tarixi rol oynayan iki ölkədən biri oldu

**Türkiyə və Rusiya arasında yarım ildən artıqdır davam edən "soyuq müharibə"nin yerini normallaşan münasibətlər əvəzləyib. Azərbaycanın iki nəhəng qonşusunun arasındakı "buzların əriməsi" təkcə bu ölkələr üçün deyil, elə Azərbaycanın özü üçün də müstəsna əhəmiyyətə malikdir.**

Rəsmi Bakının Ankara-Moskva əlaqələrinin yaxşılaşmasında mühüm rol oynadığı isə yüksək səviyyədə təsdiqləndi. "Azərbaycan və Qazaxıstan kimi qardaş ölkələrin göstərdikləri gərgin səylərə görə, təşəkkürümüzü bildiririk. Bundan sonra dostlarmızı artıracaq, düşmənlərimizi azaldacağıq. Rusiya ilə münasibətlərin düzəlməsinə göstərdikləri səyə görə qardaş Azərbaycan və Qazaxstana təşəkkürümüzü bildirirəm". **Türkiyənin baş naziri Binəli Yıldırım** partiyasının parlament fraksiyasının toplantısındakı çıxışı zamanı belə deyib. O, qeyd edib ki, Rusiya ilə münasibətlərin düzəlməsi üçün faydalı addımlar atılır. Təyyarə olayından sonra Azərbaycanın iki dövlət arasında vasitəçilik etməyə çalışdığı barədə yazılanlar sonda rəsmi təsdiqini tapdı. Bu, həm də Azərbaycan siyasətinin uğuru sayıla bilər. Üstəlik, hesab olunur ki, bu fakt Azərbaycanın Rusiya ilə münasibətlərdə ehtiyatlı davranmaqda haqlı olduğunu bir daha təsdiqlədi. Düzdür, Rusiya tarix boyu Azərbaycana təhlükələr gətirməsi ilə yaddaşlarda qalıb. Ancaq sonuncu halda Rusiya ilə yaxın münasibətdə olmağın bir faydasını da gördük: Azərbaycan həm seçim qarşısında qalmaqdan sığortaladı, həm də sonda yaxın qonşusu ilə yaxın qonşusunun barışmasında aktiv rol oynadı ki, bu da onun aktivinə yazılan addımdır.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** da rəsmi Bakının siyasətini təqdir etdi: "Bizim xoşumuza gəlib-gəlməməsindən asılı olmayaraq, hər bir dövlətin özünün maraqları, bu maraqlara yönəlmiş hədəfləri var. Bu hədəflər xüsusilə Rusiya kimi ölkələrdə qonşu dövlətlərə, daha geniş formada, bəzən qlobal proseslərə mənfi təsir göstərə bilir. Lakin bu cür dövlətlər özünün strateji xəttindən, maraqlarından əl çəkmirlər. Bu, adətən iri dövlətlərin siyasətində və fəaliyyətində birmənalı şəkildə özünü göstərir və bundan sonra da göstərəcək".



**F.Ağamalı qeyd etdi ki, Rusiya ilə bizim münasibətlərdə bunların hamısı nəzərə alınır**: "Ölkə prezidentinin xarici siyasətinin ən üstün cəhətlərindən biri odur ki, daha çox praqmatikdir, daha çox ikitərəfli münasibətlərin inkişafının daha çox möhkəmlənməsinə çalışır, qonşu dövlətlərə, xüsusi olaraq qarşılıqlı faydalı münasibətlərin qurulması və buna birmənalı olaraq əməl edilməsinə yönəlib. Baxın, artıq biz bunun konkret nəticələrini görürük. Rusiya ilə Türkiyə arasındakı münasibətlərin normallaşmasında təbii ki, Azərbaycan da özünəməxsus rol oynayıb. Bu iki dövlət arasındakı münasibətlərin yaxşılaşması Azərbaycanın da maraqlarına tamamilə uyğun gəlir. Çünki ortalıqda Qarabağ məsələsi var. Yaxud bu iki dövlətin münasibətlərinin inkişafı, eyni zamanda Azərbaycanın da bu və ya digər xoşagəlməz münasibətlərdən sığortalanması deməkdir".

**F.Ağamalı vaxtilə İran ətrafında baş verənləri və Azərbaycanın tutduğu mövqeni də xatırlatdı:** "Vaxtilə İrana qarşı sanksiyaların tətbiqində Azərbaycanın oynadığı müsbət rol indi özünün bəhrəsini, konkret nəticələrini verir. Söhbət Ruhaninin hakimiyyətə gəlməsindən sonra Azərbaycana münasibətlərin daha da isti olması, ölkə prezidentinin Tehrana səfəri zamanı çox mühüm sənədlərin imzalanması bunun sübutudur. Xüsusilə də Araz çayının imkanlarından birgə istifadə ilə bağlı əldə olunan razılaşmanı qeyd etmək olar. Eyni zamanda imzalanan sənədlərdə birmənalı olaraq Araz çayının ətrafındakı ərazilərin Azərbaycan ərazisi kimi təsdiq olunması kimi məsələlər hamısı ölkə prezidentinin olduqca uzaqgörən, praqmatik və müdrik siyasətinin konkret nəticələridir".

**Deputat əlavə etdi ki, hazırda Türkiyə-Rusiya münasibətlərinin normallaşmasında Azərbaycanın oynadığı yol şəksizdir və çox mühümdür**: "Bu, təkcə iki dövlət arasındakı münasibətlərin tənzimlənməsində həyata keçirilən xeyirxah bir addım deyil. Eyni zamanda bu, Azərbaycanın maraqlarına uyğun gələn bir davranışdır ki, Azərbaycan da bunu edir. Çünki burada Azərbaycanın özünün də maraqları var. Ona görə də Rusiya ilə münasibətlərin ritorika üzərində, daha çox radikal çağırışlar üzərində qurulması ilə bağlı edilən çağırışlar doğru deyil. Mən özüm zamanında sovet imperiyasına qarşı ən ardıcıl və kəskin mübarizə aparanlardan biri idim. Ancaq bu gün Rusiya həmin Sovet İttifaqı deyil. Biz Rusiya ilə münasibətlərimizi təbii ki, hər zaman saxlamalıyıq, özümüzün suverenliyimizə, dövlət müstəqilliyimizə zərrə qədər zərər dəyməməsi naminə buna xüsusi diqqət yetirməliyik".

**Rusiya-Türkiyə münasibətlərinin Qarabağ məsələsinin həllinə fayda verəcəyini düşünənlərlə yanaşı, əksini düşünənlər də var. F.Ağamalı hesab edir ki, Ankara-Moskva yaxınlaşması Qarabağ məsələsinin həllinə yalnız müsbət təsir göstərə bilər:** "Çünki artıq bu ölkələrin arasındakı münasibətlərdə qarşılıqlı inam varsa, hər iki tərəfin marağındadır ki, işğal olunmuş Azərbaycan torpaqları azad edilsin. Türkiyə bunu daha çox istəyir. Rusiyadan fərqli olaraq, Türkiyənin özünün burada qarşısına qoyduğu xüsusi məqsəd yoxdur. Təbii ki, Türkiyə istəyər ki, Qafqazda öz mövqeyini möhkəmləndirsin. Təbii ki, Azərbaycanda və Gürcüstanda Türkiyənin mövqeyi Rusiyaya nisbətən daha güclüdür, bu, etiraf olunmalıdır. Ancaq Rusiya da çalışır ki, onun maraqları hansısa bir şəkildə təmin olunsun. Çünki Rusiya heç bir halda Qafqazdan getmək istəmir, Qafqaz onun üçün həyati əhəmiyyət kəsb edən bir bölgədir. Bu mənada Rusiyanın özü də istəyər ki, hər bu münaqişə öz həllini tapsın. Çünki Qarabağda müharibənin getməsi "beş addımlıqda" olan Rusiya üçün də ciddi problemlər yarada bilər. Ancaq təbii ki, Rusiya münaqişənin həlli ilə bağlı özünün müəyyən maraqlarını təmin etməyə çalışır".

❑ **Cavìd TURAN**

# Britaniyasız Avropa İttifaqı - hansı tərəfin zərəri böyük olacaq?

## Şotlandiya və Şimali İrlandiya Aİ-yə üzv olmaq üçün krallığı tərk edə bilərlər; **Qabil Hüseynli:** "Əhali qərardan imtina edilməsinin lehinədir"

**Böyük Britaniyanın Avropa Birliyini tərk etməsi dünyanın gündəmindən düşmür. Əslində AB üçün Britaniya necə əhəmiyyət daşıyırsa, ingilislər üçün də bir o qədər önəmi var.**

Hazırda əsas müzakirələr tərəflərdən hansının daha çox zərər görəcəyi ilə bağlıdır. Əksər ekspertlər Britaniya hökumətinin ciddi ziyan çəkəcəyini düşünür. Bunun əksini düşünənlər də az deyil. Doğrudur, AB-yə üzv olmayan Avropa ölkələri arasında ittifaqda Böyük Britaniyanı hər cəhətdən əvəzləyə biləcək kifayət qədər ölkələr var. Amma onu da unutmaq olmaz ki, birliyə üzv olmaq elə də asan məsələ deyil. İstənilən ölkənin birliyə daxil olması quruma üzv dövlətlərin hər birinin maraqlarına cavab verməlidir.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Böyük Britaniyanın ittifaqı tərk etməsi quruma heç bir zərbə vurmayacaq: "Müşahidə edəndə açıq şəkildə görünür ki, Britaniyanın özündə ciddi qarışıqlıq var. Şotlandiya krallıqdan çıxıb, Avropa Birliyinə üzv olmağa hazırlaşır. Şimali İrlandiyanın özü çoxdan bu fikirdə idi. İndi əlinə gözəl bir fürsət düşüb. Vəziyyət elə yerə gəlib ki, Britaniyada elektron petisiya toplayırlar. Funt sterlinqin qiymətdən düşməsi onu göstərir ki, ittifaqdan çıxmaq qərarı Britaniyaya zərbə oldu. Dünyada qlobal böhranın tüğyan etdiyi bir vaxtda Britaniya bu qurumu tərk edir. Avropa Birliyinin əleyhdarları ittifaqın dağılacağı barədə müxtəlif fikirlər səsləndirirlər. Birlik dağılmayacaq. Britaniyanın özünün oradan çıxma mexanizmi yoxdur. Bu mexanizm bir neçə il çəkə bilər. Sonda ingilislərin özlərinin fikirləri dəyişə bilər. Üstəlik, Avropa Birliyinə daxil olmaq üçün Türkiyə, İsrail, Gürcüstan və başqa ölkələr növbədədir. İttifaqın dağılacağı barədə səslənən fikirlərə inanmıram. Rusiya daha çox tiraj yığmaq üçün belə fikirlərə önəm verir. Birliyin lokomotivləri olan Almaniya və Fransa işləri daha sürətli aparacaqlar. Bunun nəticəsində qurum yoluna daha intizamlı şəkildə davam edəcək. Belə fikirlər var ki, guya Britaniyanın ittifaqdan çıxmasında Amerika böyük rol oynayıb. Bunlar uydurmalardır. Guya Amerikaya güclü Avropa lazım deyil. Amma tamam əksidir. ABŞ-a güclü Avropa və güclü müttəfiqlər lazımdır. Mənə elə gəlir ki, Böyük Britaniyanın birlikdən çıxmasına ən çox maneçilik törətməyə çalışan Amerika idi. Sadəcə, buna gücü çatmadı. İndi də bu hadisədən ən çox təəssüflənən rəsmi Vaşinqtondur. Güman edirəm ki, Amerikanın təsiri nəticəsində bir çox proseslər tərsinə dönə bilər".



**Politoloq proseslərin Britaniyanın geri qayıtmasına doğru getdiyi qənaətindədir:** "Əgər referendumun təzədən keçirilməsi tələbləri varsa, imzatoplama kampaniyası başlayıbsa, əgər bu kampaniya elektron üsullarla həyata keçirirlərsə, Şotlandiya və Şimali İrlandiya Avropa Birliyinə daxil olmaq üçün krallığın tərkibindən çıxmaq istəyirlərsə, Londonun özündə əhalinin 90%-i yenidən ittifaqa qayıtmaq üçün petisiya toplayırsa, demək, əhali qərardan imtina edilməsinin lehinədir".

**Q.Hüseynli Türkiyənin Rusiyaya məktub göndərməsinin Aİ-yə üzv olmasına gedən yola maneçilik törətməyəcəyini də qeyd etdi:** "Türkiyə sadəcə Rusiya ilə münasibətlərini düzəltməyə çalışır. Ətrafındakı düşmənçilik çəpərlərini dağıtmağa səy göstərir. Ola bilsin ki, Türkiyənin Rusiyaya qarşı münasibətinin dəyişməsini bəzi Avropa ölkələri qısqansınlar. Amma bunun Türkiyə üçün elə də böyük əhəmiyyəti yoxdur. Bu gün Rusiya ilə əlaqələr Avropa Birliyi ilə əlaqələrdən az əhəmiyyət daşımır. Bu baxımdan Türkiyəni bu məsələdə suçlayanlar ciddi yanlışlıqlara yol verirlər".

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Prezidentin Peterburq görüşü ilə bağlı bəyanatı yeni situasiya yaradıb

## Politoloq: "İlham Əliyevin cavabı konkretdir: "Azərbaycan münaqişənin dondurulmasına şərait yaradacaq təklifləri qəbul etməyəcək"; erməni nazir ölkəsindəki anti-Rusiya ovqatını dəyişmək üçün vədlər verdi...

**İrəvanda Rusiya ilə Ermənistan arasında vahid Hava Hücumundan Müdafiə sistemlərinin yaradılmasına qarşı başlayan yeni etirazları səngitmək üçün ən müxtəlif üsullardan istifadə olunmaqdadır. İşğalçı ölkədə bəzi dairələr hesab edir ki, hava məkanını da Rusiyanın ixtiyarına verməklə Ermənistanın formal şəkildə müstəqilliyinə də son verilmiş olacaq.**

İrəvanda çoxları anlayır ki, əslində Ermənistan Rusiyanın forpostudur və müstəqilliyin sadəcə adı var. Aprel döyüşlərindən sonra hakimiyyətdəki mövqeləri ciddi şəkildə sarsılan müdafiə naziri Seyran Ohanyan isə hər kəsi inandırmağa çalışır ki, Rusiya ilə anlaşmanın Ermənistanın müstəqilliyinə hər hansı zərəri olmayacaq. Əslində son döyüşlərdə rəhbərlik etdiyi strukturun ciddi itkilərə məruz qalması Ohanyanı Rusiyadan əlavə dəstək almağa vadar edib və o, son anlaşmanın reallaşmasına çox çalışır. Üstəlik də Kremlin gözündə "yaxşı oğlan" kimi görünüb postunu qorumağa çalışır.

"Ermənistan-Rusiya Hava Hücumundan Müdafiə sistemlərinin birləşdirilməsi erməni tərəfinə Rusiyanın Hava Hücumundan Müdafiə potensialından istifadə etmək imkanı yaradacaq"- deyə, Seyran Ohanyan bəyan edib. Ermənistan mətbuatının verdiyi məlumata görə, S.Ohanyan deyib ki, razılaşma əldə olunacaqsa, onun ölkəsi üçün Rusiyanın çoxfunksiyalı dördüncü nəsil qırıcılardan, S-300 sistemlərindən, raket əleyhinə müdafiə qurğularından istifadə imkanı yaranacaq. Onun iddiasına görə, Ermənistan hava kəşfiyyatı sahəsində geniş radiolakasiya imkanlarından istifadə edə bilər. S.Ohanyan onu da əlavə edib ki, birgə Hava Hücumundan Müdafiə sistemlərinə komandanlığı Ermənistanın Hava Hücumundan Müdafiə Qoşunları və ölkənin aviasiya idarəsi edəcək. "Əmrlər Ermənistanın aviasiya idarəsi, Hava Hücumundan Müdafiə Qoşunları və ölkənin Silahlı Qüvvələrinin Baş Qərargahı tərəfindən veriləcək"-deyə, nazir anti-Rusiya mövqeli insanları sakitləşdirməyə çalışıb.

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a dedi ki, Ermənistan rəsmiləri öz hava məkanlarının Rusiyanın HHQ və HHM qoşunları tərəfindən müdafiə olunması məsələsində çətin duruma düşüb: "Əgər diqqət yetirdinizsə, onlar əvvəl bu haqda razılaşmanın müzakirəsini parlamentlərində təxirə saldılar. Sonra isə, görünür rəsmi Moskvanın təpkilərindən və "məsləhətlərindən" sonra indi yenə tələm-tələsik müzakirə edib qərar qəbul etmək haqda razılığa gəliblər. Onsuz da görünən odur ki, bu addım erməni ictimaiyyətini də parçalayıb. Elə bu gün *(dünən-red.)* Ermənistan parlamentinin adioz deputatlarından biri Zarui Postandjanyan çox sərt, hətta deyərdim təhqiramiz formada bu məsələyə münasibət açıqlayıb. O, Serj Sərkisyanı və komandasını satqınlıqda və ziyankarlıqda ittiham edib. Bunun davamı mütləq gələcək. Hələ üstəlik, daxildəki narazılıqları sakitləşdirmək üçün müdafiə naziri indi daha bir absurd açıqlama ilə çıxış edib. Guya ermənilər bundan sonra 102-ci Rusiya bazasından istədikləri silah və sursatı götürüb istifadə edəcəklər. Özləri də bilirlər ki, bu sadəcə, onların reallıqdan uzaq olan arzularıdır. İndi artıq 90-cı illər deyil".

Yeri gəlmişkən, S.Ohanyanla prezident S.Sərksiyanın arasında ixtilafların olması da faktdır. Hətta erməni nazir ondan istefaya getməyi tələb edən prezidentin sözlərinə məhəl qoymayaraq fəaliyyətinə davam edir. Tamamilə mümkündür ki, Ohanyan post-Sərkisyan dövrünə hazırlaşır və özünə komanda toplamaqla yanaşı, Moskvadan dəstək almaq üçün manevrlər edir. Ancaq Ermənistan müdafiə naziri istefası barədə şayiələri şərh etməkdən imtina edib. "Ermənistan müdafiə naziri heç vaxt vətən qarşısında borcunu yerinə yetirməkdən imtina etməyəcək" - deməklə kifayətlənən Ohanyan suallardan yayınıb.

Xatırladaq ki, Seyran Ohanyan və Baş Qərargah rəisi Yuri Xaçaturovun istefaya göndərilməsi barədə şayiələr gəzir. Yayılan xəbərlərdə ölkə hakimiyyətinin aprel döyüşlərində zamanı bu iki şəxsin fəaliyyətindən narazı qaldığını bildirilir.

***

Bu arada isə Sankt-Peterburq görüşündə oyundankənar vəziyyətə salınan ATƏT yenidən təşəbbüsə yiyələnmək üçün hərəkətə keçib. ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayerin Cənubi Qafqaz regionuna səfər etməsi də bunu nümayiş etdirir.

**O, səfər öncəsi açıqlamasında deyib ki, "Dağlıq Qarabağ münaqişəsinin eskalasiya potensialı var". ATƏT sədri gərginliyin azaldılması üçün ATƏT sədrliyinin məsuliyyət daşıdığını bildirib:** "Almaniyanın ATƏT-ə sədrliyi dövründə biz atəşkəs rejiminin möhkəmləndirilməsi, etimadın yaradılması və tez bir zamanda danışıqların başlanması yolu ilə belə təhlükələrin azaldılması üçün məsuliyyət daşıyırıq".

Qeyd edək ki, dünən ATƏT sədrinin regiona səfəri başlayıb. İlk görüşlərini o, Ermənistanda keçirəcək. İyunun 30-da isə ATƏT sədri Azərbaycana gələcək. Onun hər iki ölkədə keçirəcəyi görüşlərdə Qarabağ münaqişəsinin həlli yolları əsas müzakirə mövzusu olacaq. ATƏT sədrinin Xankəndinə gedəcəyi xəbəri də yayılıb. Ştaynmayer iyulun 1-də Gürcüstana gedəcək və ATƏT PA-nın illik sessiyasına qatılacaq.




Hesab olunur ki, aprel döyüşlərindən sonra Azərbaycanın mövqelərinin bir daha qətiyyətli şəkildə ifadə etməsi həmsədrləri, o cümlədən ATƏT-i hərəkətə gətirib. Ümid etmək olar ki, Ankara-Moskva münasibətlərinin normallaşması da Qarabağ məsələsinin həlli üçün əlverişli şərait yaradır.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a mövcud vəziyyəti şərh edərkən Azərbaycan prezidentinin son mesajlarını xatırlatdı: "İlham Əliyevin ordu günü münasibətilə hərbçilər qarşısındakı çıxışında önəmli mesajlar var idi. Əsas mesaj ondan ibarət idi ki, İlham Əliyev Ermənistanın aprel döyüşlərindən sonra danışıqları davam etdirmək üçün irəli sürdüyü şərti qəbil etməyib. İlham Əliyev şərtin nədən ibarət olduğunu söyləmədi. Ancaq böyük ehtimalla söhbət Azərbaycanın işğaldan azad etdiyi strateji yüksəkliklərdən gedir. Çünki Ermənistan prezidenti yenidən yüksəkliklərin onlara qaytarılmasından sonra danışıqların bərpasını mümkün hesab edirdi. Bu mümkün olan məsələ deyildi. Hansı dövlət belə aşağılayıcı təklif və tələbə razılaşar? Azərbaycan Ermənistana aid bölgəni ələ keçirməyib ki, hərbi qüvvələrini geri çəksin. Təsadüfi deyildi ki, Ermənistan prezidenti Serj Sərkisyan aprel məğlubiyyətindən dərhal sonra mövcud vəziyyətdə danışıqlara qatılmayacağını söyləmişdi. Ancaq Sərkisyan dediyini elə bilməzdi. Çünki məsələn, o, Rusiya prezidenti Vladimir Putinə necə deyə bilərdi ki, danışıqlara qatılmıram. Ona görə Sərkisyan mövcud vəziyyətlə barışaraq həm Vyana, həm də Sankt-Peterburq görüşlərində iştirak etdi. İlham Əliyev açıqlamasında həm də ona işarə vurdu ki, rəsmi İrəvan danışıqlardan imtina etsəydi, bu yenidən müharibənin başlanması demək olacaqdı. Həqiqətən də əgər danışıqlar yoxdursa, münaqişənin həllinin alternativ yolları hərəkətə gətirilir".

**Politoloqun fikrincə, prezidentin sözlərindən həm də o aydın oldu ki, onun 2015-ci ilin dekabrında Ermənistan prezidenti ilə görüşü formal xarakter daşıyıb:** "İlham Əliyevin hərbçilər qarşısında çıxışındakı ikinci mesajı isə ondan ibarət idi ki, həm Vyana, həm də Sankt-Peterburq görüşündə Azərbaycanın maraqları əleyhinə heç bir sənəd qəbul edilməyib. Ancaq prezident belə bir fikir də səsləndirdi: "Danışıqlar mənalı, predmetli olmalıdır, sadəcə olaraq görüntü, imitasiya naminə aparılmamalıdır". Yəni İlham Əliyev bu sözlərlə faktiki Vyana və Sankt-Peterburq görüşündə predmetli danışıqların getmədiyinə işarə edib. Həqiqətən Ermənistan hələ Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazırlaşmır, bunsuz isə münaqişənin həlli mümkün deyil. İlham Əliyevin Sankt-Peterburq görüşünün nəticəsi ilə bağlı üçüncü mesajı rəsmi Bakının ATƏT sədrinin şəxsi nümayəndəsinin ofisinin işçilərinin say tərkibinin artırılmasına razılaşmasıyla bağlıdır. Əslində bunu rəsmi Bakının güzəşti kimi qəbul etmək lazımdır. Çünki cəbhə bölgəsində monitorinqin aparılması Azərbaycan ordusunun işğalçıya təzyiqin artırılmasına maneə məqsədi daşıyır. Ancaq İlham Əliyevin güzəştin elə də böyük olmadığına eyham vurub. Məsələn, prezident deyib ki, əgər ATƏT ofisində 6 nəfər işləyirsə, bu, maksimum 2 dəfə və ya 2,5 dəfə artırılacaq. Yəni böyük missiyadan söhbət getmir. İlham Əliyevin "təmas xəttinin on kilometrlərlə olduğunu nəzərə almaq lazımdır" sözləri o deməkdir ki, Azərbaycan ordusu işğalçını cəzalandırmaq imkanlarını əlində saxlayır. Çünki ATƏT ofisinin mandatında dəyişiklik yoxdur".

**E.Şahinoğlu təsdiqlədi ki, həqiqətən cəbhə bölgəsində ATƏT müşahidəçilərinin 6 nəfərdən 14 nəfərə yüksəlməsi heç nəyi dəyişməyəcək:** "Əsas odur ki, danışıqlarda Ermənistanın təklif etdiyi insidentlərin araşdırılması təklifi qəbul edilməyib. Rəsmi Bakının mövqeyi bundan ibarətdir ki, insidentlərin araşdırılması mexanizmi yoxdur. Bu təklifin mənası ondan ibarətdir ki, Azərbaycan ordusu hücum edib işğal altındakı torpaqları azad edə bilməsin. İlham Əliyevin buna cavabı konkretdir: "Azərbaycan münaqişənin dondurulmasına şərait yaradacaq təklifləri qəbul etməyəcək". Nəhayət, İlham Əliyev hərbçilər qarşısındakı çıxışında aprel döyüşlərindən əvvəl səsləndirdiyi fikirlərini yenidən təkrarladı. Birincisi, Azərbaycan dövləti öz tarixi torpaqlarında heç vaxt ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək və bu, danışıqlar mövzusu deyil. İkincisi, Azərbaycan Dağlıq Qarabağa Avropada mövcud olan istənilən muxtariyyət modelini tətbiq etməyə hazırdır. İlham Əliyevin misal kimi, Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasını göstərməsi də yerindədir. Naxçıvanın parlamenti və hökuməti də var, Azərbaycanın maliyyə imkanlarından da bəhrələnir. Dağlıq Qarabağın da erməni və azərbaycanlı nümayəndələrindən ibarət parlamenti, hökuməti, hətta azsaylı polis qüvvələri formalaşdırıla bilər. Üstəgəl, hazırda Dağlıq Qarabağ səfalət içindədir, kasıb Ermənistan bölgəni ayaq üstdə saxlaya bilmir. Dağlıq Qarabağ Azərbaycanın tərkibinə qayıdan kimi bölgənin inkişafı ilə bağlı xüsusi proqram qəbul oluna bilər. Yetər ki, bu deyilənləri işğalçı ölkə dəyərləndirə bilsin. Mən şübhə etmirəm ki, bütün bu təkliflər müxtəlif danışıqlarda Ermənistan hakimiyyətinə çatdırılıb. Sadəcə, İrəvan müsbət cavab vermək iqtidarında deyil. Demək, biz əlimizdəki güc alətlərini yenidən işə salmalıyıq. Başqa alternativ yoxdur. Yoxsa elə İlham Əliyevin də dediyi kimi, nəticəsiz danışıqlar acı bağırsaq kimi uzanacaq".

Hər halda görünən budur ki, Azərbaycan prezidentinin Rusiyanın vasitəçiliyindən sonra da hansısa güzəşti istisna etməsi ermənilərə və onların havadarlarına Bakının qətiyyətli mövqeyinin dəyişməyəcəyi barədə ciddi mesaj oldu. Yəni bundan sonra seçim etmək növbəsi qarşı tərəfindir. Bunu bölgəyə səfər edən ATƏT sədri də yaxşı anlayır və güman ki, o, səfərində hansısa nəticələr əldə etməyə çalışacaq. Almaniya kansleri Qarabağın açarının Rusiyada olduğunu demişdi. İndi bu ölkənin XİN başçısı Qarabağ naminə nə isə ciddi bir addım atması az inandırıcıdır. Olsa-olsa təmas xəttində növbəti gərginliyin baş qaldırmaması üçün tövsiyələr verəcək. Bu vəziyyət isə Azərbaycanı qane etmir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

# Bakıda 1 çaynik çay 1 şiş kababdan bahadır

## Paytaxtda bəzi obyektlərdə fantastik qiymətlərdən hamı narazıdır, amma...



**İstirahət mövsümünün başlaması özü ilə bərabər bir çox problemləri də gətirib. Belə ki, Azərbaycanda xidmət sektorunda yetərincə, problemlərin olması vətəndaşların narazılığına səbəb olur. Hazırda tez-tez sosial şəbəkələrdə Bakının mərkəzindəki kafe və restoranlarda müştəriləri narazı salan hallarla bağlı tənqidi şərhlərə rast gəlirik. Belə ki, bir sosial şəbəkə istifadəçisi kafelərdən birində 1 çaynik çayın 16 manata verildiyini yazır. Şərtlər elədir ki, çay yalnız şirniyyatla verilir, yanında qənd təqdim edilmir. Həmin şirniyyat isə dəsgah hesab olunduğundan qiymət 16 manata qalxır. Yəni əgər yolda susayıb 5 dəqiqəlik hansısa kafeyə dönürsənsə, iki nəfərlik nahar yeməyinin puluna bir stəkan çay içə bilərsən.**

Bu vəziyyət şəhərin hər yerində, xüsusən də Milli Park və İçərişəhər ərazisində müşahidə olunur. Bu qiymətlər isə təkcə yerli sakinləri yox, həm də turistləri narazı salır. Paytaxt sakinləri ən azından hansı kafedə qiymətlərin necə olmasından məlumatlı olduğu üçün bahalı kafelərə müraciət etmirlər. Turistlərin isə bu haqda anlayışı olmadığından hesab ödəyərkən şok qiymətlərlə üzləşməli olurlar.

Məsələyə münasibət bildirən **iqtisadçı-ekspert Rəşad Həsənov** bildirdi ki, bu problemin aradan qaldırılması üçün rəqabət mühitinin formalaşdırılması və daha ucuz xidmət göstərən müəssisələrin yaradılması önəmlidir: "Bu müəyyən qədər mürəkkəb məsələdir. Xidmət sektorunda aparılan siyasət bir çox hallarda iqtisadi normalara uyğun deyil. Buraya qiymətlərin müəyyənləşdirilməsi də daxildir. Məsələ ondadır ki, vətəndaşlar öz büdcələrinə uyğun istirahət mərkəzlərinə, kafelərə ,restoranlara üz tutmalıdırlar. Belə olduğu təqdirdə gözlənilməz hesabla da qarşılaşmazlar. Lakin burada bir məqam da var ki, turistlər ölkədəki xidmət müəssisələrini qiymətinə görə fərqləndirə bilmirlər və göstərilən xidmətlər qarşısında onlardan tələb olunan böyük məbləğlər son nəticədə turizm xərclərinin bahalaşmasına gətirib çıxarır ki, bu baxımdan növbəti dövrlərdə turistin həmin ölkəni seçməsi problem olur. Başqa bir məsələ isə ondan ibarətdir ki, dənizkənarı park ərazisində də qiymətlər həddindən artıq bahadır".

**Ekspertin fikrincə, Bulvar İdarəsi orada xidmət göstərən obyektlərlə müqavilə bağlayarkən, onlara öz ərazisində fəaliyyət göstərməyə icazə verərkən müəyyən öhdəliklər qoymalıdır**: "Çünki Milli Park hər kəsin müraciət edə biləcəyi xidmətləri təqdim etməlidir. Biz isə onu görürük ki, bu qiymətlər ölkə əhalisinin çox az bir qismini, əsasən imkanlı təbəqəni hədəf götürür deyə sadə insanlar həmin xidmətlərdən istifadə edə bilmirlər.

Bu sahədə bir çox işlər görülməlidir. İlk növbədə rəqabət mühitinin formalaşdırılmasıdır. Əgər məhdud sayda müəssisələrə şərait yaradılarsa, bu təklif olunan xidmətlərin qiymətini daha baha olmasına gətirib çıxarır. Lakin obyektlərin sayı çox olarsa, o zaman rəqabət artır, müəssisə sahibi çalışır ki, daha optimal qiymətlərlə müştəri kontingentini saxlaya bilsin. Ümumiyyətlə, götürəndə ölkə sferasında rəqabət mühitinin formalaşması üçün müəyyən addımlar atılmalıdır. Söhbət daha çox müzakirə obyekti olan Milli Parkdan və ya İçəri Şəhərdən gedirsə orada Bulvar İdarəsinin nəzarəti önəmlidir".

"Yeni Müsavat"a açıqlamasında qoyulan problemə mövqe bildirən **İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev** bildirdi ki, hər bir müştərinin ona təqdim edilən menyuda özünü arzu elədiyi hissəni sifariş etmək hüququ var və yalnız aldığı mala görə pul ödəməlidir: "İstehlakçı təkcə çay içmək istəyirsə, ona dəsgah təklif olunsa belə, yalnız çay götürə bilər".

Nazirlik sözçüsü qanunvericiliyə də toxunaraq, bildirdi ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun 14-cü maddəsi "Ticarət və başqa xidmət növləri sahələrində istehlakçıların hüquqları"ndan bəhs edir və orada qeyd edilir ki, istehlakçı satıcının süni surətdə yaratdığı dəstdən ona lazım olan malı almaq hüququna malikdir.

**A.Əliyev qeyd etdi ki, bu cür qanun pozuntuları ilə rastlaşan şəxslər nazirliyin qaynar xəttinə müraciət edə bilərlər**: "Biz bunun üçün Nazirliyin 195-2 çağrı mərkəzinin , İqtisadiyyat Nazirliyi yanında Antiinhisar siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiə xidmətinin 498-15-01, 498-15-04 nömrəli telefonlarını həmişə istehlakçıların nəzərinə çatdırırıq ki, istehlak bazarında qarşılaşdıqları hər hansı məsələ ilə bağlı müraciət eləsinlər və biz o müraciətləri operativ şəkildə araşdırmağa və lazımi tədbirlər görməyə hazırıq".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** da bildirdi ki, hazırda şəhərdə xidmət göstərən ictimai iaşə obyektlərində bu cür problemlərə rast gəlinir: "Bakıda belə bir proses gedir və mən bunu qətiyyən düzgün hesab etmirəm. Mən sadəcə, bir stəkan çay içmək istəyirəmsə, nə üçün məcburi şəkildə dəsgahın da pulunu ödəməliyəm. o baxımdan mən hesab edirəm ki, Bakı Şəhəri İcra Hakimiyyətinin müvafiq departamenti və başqa dövlət təşkilatları bu işlə məşğul olmalıdırlar. Bəzən elə hallar olur ki, bir stəkan çay yeməkdən baha başa gəlir. Bunun qarşısı alınmalıdır. Bu hallar qeyri-qanunidir".

❑ **Nərgiz LİFTİYEVA**

# İsti yay günlərinin qida menyusu - nə yeyək?

## Adil Qeybulla: "Təmiz su qəbuluna ciddi fikir vermək lazımdır"

**Havaların isti olması bir çox insanlarda iştahasızlıq yaradır ki, bunun əsl səbəbi düzgün qidalanmamaqdı. Düzgün qidalanmağın isə 5 qızıl qaydası var: daha çox maye qəbul etmək, rasionun kalori miqdarını azaltmaq, qidalanma saatını qabağa çəkmək, səhər və axşam yeməyini mütləq yemək və daha çox vitamin, yəni meyvə tərəvəz qəbul etmək.**

İsti havalarda bədənimizin nəm tarazlığı dəyişir və daha çox su itiririk . Həddindən artıq istilərdə qan qatılaşır. Buna görə də isti havalarda qidalanmaya diqqət etmək lazımdır. Bu cür havalarda maye qəbulunu artırmaq, maye tərkibli qidalara üstünlük vermək lazımdır. Maye itkisinin qarşısını almaq üçün hər saatda bir stəkan su içilməlidir. Susuzluğu daha çox adi su və ya şəkərsiz (acı) yaşıl çay yatırır. Çox isti hava şəraitində hər 40-50 dəqiqədən bir 100-200 ml sərin su (18-20°S) içmək tövsiyə edilir. Bundan başqa, soyuq doğramac və ya qaspaçço kimi yeməklər də sizi həm sərinləşdirəcək, həm də orqanizminizi lazımlı rütubətlə təmin edəcək. Yalnız ürək-damar xəstəlikləri, hipertoniya, piylənmədən əziyyət çəkən və böyrəklərində problemi olan insanlara çox maye istifadə etmək məsləhət deyil. İsti hava - orqanizm üçün əsl sınaqdır. Biz iştahın yoxluğundan əziyyət çəkirik, amma yedikdən sonra mədədə ağırlıq hiss edirik. Ekstremal isti hava şəraitində orqanizmə normal işləməyə kömək etmək üçün diyetoloqlar qidalanma vaxtını dəyişməyi məsləhət görürlər ki, bu zaman əsas qida qəbulu daha çox günün sərin vaxtına düşür.

Yemək saatlarınızı səhər tezdən 6:00-7:00-da, naharı gün qızmadan öncə 11:00-11:30-da, şam yeməyini isə 18:00-da qəbul edəsiniz. Ac qarnına yata bilməyənlər isə 21:00-da yüngül qəlyənaltı edə bilərlər. Səhər və şam yeməyini yemək çox vacibdir. Həzmin nizamlı olması və çəkinin normadan qalması baxımından vaxtında və rejimli qidalanmanın əhəmiyyəti yüksəkdir. Hədsiz isti havalarda qızartma yeməklərindən uzaq durmaq tövsiyə edilir. Bu cür havalarda qızartma yerinə qaynatma, öz suyunda və ya az suda bişirmə kimi sağlam üsullar seçilməlidir. Çünki yağlı qızartmalar və xəmir yeməkləri bədəndə yorğunluğa, baş ağrısı və yüksək təzyiqə səbəb olur. Ancaq tərəvəz və meyvə salatları, qarabaşaq və düyü, kartof və pəhriz şorbaları mədədə ağırlıq hissi yaratmır, bu səbəbdən onları günorta qəbul etmək məsləhətdir. Belə karbohidratlar orqanizm tərəfindən asan mənimsənilir. Ət yeməklərini şam yeməyinə saxlamaq tövsiyə edilir, çünki sərin havada onlar daha asan həzm olunacaq.



Yay aylarında bədən müqavimətini artırmaq və bədənin kifayət qədər vitamin və mineral almasını təmin etmək üçün gündə ən az 5 boşqab tərəvəz və meyvə yeyilməlidir. Həkimlər yayda balıq yeməklərindən uzaq durmağı məsləhət görürlər. Belə ki, tərkibi sink, zülalla zəngin bu qida yayda qəbul edildikdə gec həzm olunur və bu maddələr mədədə çox qaldıqda zəhərlənmə ilə nəticələnir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** isti havalarda yüngül qidalanmağın vacib olduğunu dedi: "Yayda nisbətən yüngül qidalanmaq lazımdır və təmiz su qəbuluna ciddi fikir vermək lazımdır. Çünki hətta artıq isti olanda həm dəri səthindən, həm də ağ ciyərlər vasitəsilə bədəndən xeyli su utilizasiya olur, bədəndən xaric olur. Su ehtiyatları azaldığına görə qan qatılaşır, bədən mayelərin konsetrasiyası artır və nəticədə bu mikrosirkulyasiya və həyati vacib funksiyalar zəifləyir. Bunlar olmasın deyə su qəbuluna ciddi fikir verilməlidir. Qida qəbulu nisbətən azalmalı, məhdudlaşdırılmalıdır. Daha çox meyvə qəbuluna üstünlük verilməlidir. Yay zamanı həddən artıq, xüsusən də saat 12-dən 4-5-ə qədər günəş şüası altında dayanmaq məsləhət deyil. Ultra bənövşəyi şüaların neqativ təsirindən bu dövrdə qorunmaq lazımdır. Ümumiyyətlə xəstə, yaşlı adamlar, qanının qatlaşmasında problemləri olan şəxslər su qəbuluna daha çox önəm versinlər və günü sərin yerdə keçirsinlər. Xüsusən də uşaqlar çünki uşaqların bədən tutumu, çəkisi az olduğuna görə su tutumu da azdır. Su buxarlanması onları pis vəziyyətə sala bilər. Ona görə də bu məsələlərdə diqqətli olmaq lazımdır. Kondisioneri də aludə olmaq lazım deyil. Əgər bayırda çox yüksək temperatur olanda evdəki kondisioner ona uyğun temperatura qoymaq lazımdır ki, nəmişliyi götürsün, nəfəs almanı normallaşdırsın. Xaricdə 30 dərəcədən yuxarı temperatur olduqda kondisioneri 18 dərəcəyə qoymaq düzgün deyil. Bu zaman kondisioner 23-25 dərəcədə olmalıdır ki, o həmin aktiv temperaturu saxlasın və bədənin həddən artıq soyuqlamasına gətirib çıxarmasın".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

**Artıq Azərbaycanda da “Tax Free” sistemi tətbiq edilir. Milli Məclis son iclasında Vergi Məcəlləsinə dəyişikliklər haqqında qanun layihəsini təsdiq edib. Dəyişikliklərə əsasən, ölkə ərazisində xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər tərəfindən alınan mallar ƏDV-dən azad ediləcək.**

# “Tax Free” sistemi Azərbaycana nə vəd edir?

## Ekspert: “Hədəf odur ki, turistlər ölkədə maksimum alış-veriş etsinlər”

“Tax Free” sisteminin tətbiq edilməsinin məqsədi əcnəbilərin Azərbaycanda mal və məhsullar almasının təşkil və təşviq edilməsi, turistlərin cəlb edilməsi və əmtəə dövriyyəsinin artırılmasıdır. "Tax Free" imkanlarından istifadə etmək üçün bir elektron hesab-fakturası üzrə alınmış malların dəyəri 300 manatdan aşağı olmamalıdır *(ƏDV nəzərə alınmaqla)*.

Mütəxəssislərin fikrincə, “Tax Free” ölkəmizə gələn turistlərin daha çox alış-veriş etməsini təşviq edəcək. **İqtisadçı-ekspert Rəşad Əliyev** də “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu sistem hazırda dünyanın əksər ölkələrində işləyir və xarici təcrübədə müsbət nümunələri var: “Tax Free” sistemi hazırda 50-dən artıq ölkədə işləyir. Dünyanın digər regionları ilə müqayisədə bu sistem daha çox Avropada yayılıb. “Tax Free” sistemi mahiyyəti ölkələrin hamısında eynidir. Bir sözlə desək, əcnəbi vətəndaş həmin ölkənin ərazisində aldığı mallara görə ödədiyi ƏDV-ni ölkəni tərk edərkən geri alır. Ölkələr üzrə fərq ancaq şərtlərdədir. Məsələn, pulun geri alınması müddəti, pulun alınmasına görə tutulan komissiya haqları, ölkəni tərk etmə müddəti, minimal alış məbləği və sair şərtlər ölkələr üzrə fərqlidir. ƏDV ölkələr üzrə fərqli olması da öz yerində. Məsələn, bizdə “Tax Free” üçün minimal alış qiyməti ƏDV ilə birlikdə 300 manat təşkil edir. Müqayisə üçün deyim ki, Fransada bu məbləğ 175 Avro, Almaniyada 25 avro, İsveçrədə 300 isveçrə frankı təşkil edir.

Bundan az mal alanda “Tax Free” sistemi alınmış mal üzrə ƏDV-ni geri almaq olmur. Bunun ölkəyə nəsə verməsi isə gələcəyin məsələsidir. Çünki bizim ölkəyə elə də böyük turist axını yoxdur. “Tax Free”nin hədəfi odur ki, turistlər ölkədə maksimum alış-veriş etsinlər. Yəni şopinq baxımından ölkə əcnəbilər üçün əlverişli görünsün".

Qeyd edək ki, “Tax Free” sistemi bütün mağazalarda deyil, yalnız bəlli dükan və mağazalarda keçərlidir. Vergilər Nazirliyindən bildirilib ki, artıq bu sistem 70-dən çox mağazada, o cümlədən Heydər Əliyev adına Beynəlxalq Hava Limanında test rejimində işə salınıb və xarici vətəndaşlar bu xidmətdən yararlana bilərlər.



Ölkənin digər hava limanlarının da bu sistemə qoşulması istiqamətində işlər aparılır.

“Tax Free” sisteminin tarixçəsinə gəlincə, bu ilk dəfə İsveçdə yaranıb və hazırda Avropa Birliyinin bütün ölkələrində və digər ölkələrdə tətbiq olunur. Bu xidmət bütün ölkələrdə yalnız xarici vətəndaşlar üçün nəzərdə tutulub. Ölkələrə görə, ƏDV-nin məbləği də dəyişir. Adətən xarici turistlər hərt hansı ölkəyə gedərkən, orada “Tax Free” sisteminin tətbiqinin şərtlərini də öyrənir və etdikləri alış-veriş məbləğindən neçə faizinin geri dönüşünü də hesablayırlar.

**İqtisadçı ekspert Natiq Cəfərli** isə bildirdi ki, bu sistemin tətbiq edildiyi ilk illərdə Azərbaycana böyük bir turist axınının olması gözlənilmir: “Tax Free” turizmin yüksək səviyyədə inkişaf etdiyi ölkələrdə tətbiq olunan, turistlərə müəyyən dərəcədə əlavə motivasiya verən bir sistemdir. Turistlər hesablayır ki, bu sistemin tətbiq edildiyi hər hansı alış-veriş edərkən, ən azından ƏDV-ni geri alacaqlar. Lakin bu çox yaxşı təşkil edilməlidir ki, turistlər həmin məbləği almaq üçün saatlarla gözləməli olmasınlar. O zaman bu system əhəmiyyətini itirər. Bir çox ölkələrdə hava limanına və ya dəniz limanına getmədən belə “Tax Free”-nı geri almaq mümkündür. Azərbaycanda isə bu yeni bir məsələdir. Qanunvericilikdə illərdir belə bir qayda var idi, lakin tətbiq olunmurdu. Artıq Azərbaycan hökuməti turistlər üçün müəyyən addımlar atmağı düşünür və bu addımlardan biri kimi “Tax Free” sistemini tətbiq edir. Bu, turizmə dəstək verən addımlardan sadəcə biridir. Turizmdə olan digər problemlər həll olunmasa bunu tətbiq etməklə elə də böyün canlanmaya nail olmaq mümkün deyil. Məsələnin büdcə tərəfində gəldikdə isə bunun büdcəyə faydası deyil, əksinə müəyyən dərəcədə ziyanı dəyəcək. Düzdür, turistlərin ödədiyi məbləğin ƏDV-si elə də böyük məbləğ olmayacaq, burada uzaq başı bir neçə yüz min manat dövr edəcək. Çünki Azərbaycanda böyük bir turist axını da yoxdur. “Tax Free” tətbiq edən ölkələrin əsas üstünlüyü odur ki, onlara milyonlarla turist gəlir və tonlarla alış-veriş edirlər. Onu vergilər şəklində geri qaytaranda digər sahələrdən gəlirlərin hesabına o qədər də gözə çarpmır. Azərbaycanda isə belə turist axınının yaxın gələcəkdə də olması gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**

# Çoxevlilik - əvvəl sərvətin, indi isə cahilliyin rəmzi...

## İlahiyyatçı: “Şeyxin 4 arvad almasının İslamla əlaqəsi yoxdur”

**Küveyt şeyxi Amen Alordun toyu səs-küy doğurub. Səbəb də 4 xanımla eyni gündə evlənməsi olub. Təmtəraqlı keçirilən toy mərasimində gəlinlərin dördü də iştirak edib. Toydan fotolar sosial şəbəkədə və xarici mətbuatda rezonans yaradıb. Sosial şəbəkə istifadəçiləri şeyxin həyat yoldaşları ilə toydan çəkilmiş fotolarını paylaşaraq onları ələ salıblar.**

Ümumiyyətlə, islam dinində çoxarvadlılıq hökmü olsa da, vacib əməllərdən hesab olunmur. Çoxarvadlılıq dedikdə ağla ilk olaraq islam dini gəlsə belə, əslində digər dinlərə sitayiş edən xalqlarda da, məsələn, Qədim Misir, Babil, Yunanıstan, Hindistan və bir çox ölkələrdə də mövcud olub. Brahmanizm və Zərdüştilik kimi dinlərdə də çoxevlilik var.

Çoxevlilik islamdan əvvəlki ərəblərdə qüvvət və sərvətin, fəxr və etibarın, bir qadınla evlənmək isə zəiflik və kasıbçılığın simvolu sayılırdı. Dini ekspertlər yazırlar ki, yəhudilik və xristianlıqda çoxevliliyi qadağan edən heç bir hökm yoxdur. Onların müqəddəs kitabları - Tövrat və İncildə peyğəmbərlərin bir neçə qadınla evli olduğu xəbəri verilir. Yəhudilikdə çoxevlilik orta əsrlərə qədər davam edib, yalnız XI əsrdə qadağan edilib.

Ancaq müasir dövrümüzdə hələ də bu qayda-qanunla yaşayanlar var. Məsələn, XIX əsrdə Amerikada qurulan Mormonlar cərəyanı çoxevliliyə icazə verməklə kifayətlənməyib, əksinə, bu həyat tərzini “müqəddəs və ilahi nizam” olaraq qəbul edib. Amerikada artıq 70 ilə yaxındır ki, Mormonlar Kilsəsi fəaliyyət göstərir. Bu təriqət təsisatı çoxarvadlılığı buyurur. Mormon kişilər 5-6, hətta 10-12 arvad ala bilirlər. Mormonların yaşadığı mühit çox qapalı sayılır. Bu mühitdə yaşayan kişinin arvadları öz hüquqlarını tələb edə bilməzlər. Bəzi məlumatlara görə, sözügedən dini cərəyanın bəzi icmalarında hətta icma rəhbərlərinin icazəsi olmadan qadınlar zarafat etməyə belə cəsarət göstərmirlər. Amerika ictimaiyyəti neçə illərdir mormonlara qarşı mübarizə aparmağa çalışsa da, dünyanı idarə edən dövlətdə çoxarvadlılığa nə vaxt son qoyulacağı məlum deyil.



Sirr deyil ki, cəmiyyətimizdə də 1-dən artıq ailəsi olan kişilər az deyil. Lakin qanunlarımız kişiyə bunu rəsmiləşdirməyə icazə vermir. Yəni bir kişi 2 qadınla rəsmi nikahda ola bilməz. Çoxları, eyni zamanda da ərəb şeyxi çox arvad almağa dini don geyindirməyə çalışsa da, **ilahiyyatçı Bəhruz Camal** şeyxin 4 arvad almasının dinlə heç bir əlaqəsinin olmadığını və onun bunu şou məqsədi ilə etdiyini dedi: “Bu xəbər əslində dini qanunlara icradan daha çox maqazin tipli xəbər təsirini bağışlayır. Şeyxin 4 xanımı birdən alması ilə qeyd olunanlar da ürəkaçan deyil. İslam maksimum dörd evliliyə qədər icazə verir. Bu müəyyən şərtlər çərçivəsində ola bilər. Dörd xanımı eyni anda almağın da məqbul olub-olmamasının özü də müzakirə mövzusudur. Küveyt şeyxinin bu rəftarına dini don geyindirib qələmə vermək dinə yönəlmiş kompramatdan başqa bir şey deyil. Əslində biz dinin icazə verdiyi 4 evlilik hökmünü araşdırsaq, baxıb görəcəyik ki, həyatı boyu belə bir şəraitə sahib kişilər barmaqla sayılacaq qədərdir. Çünki bu hökmün müəyyən sosial, ictimai, fərdi tərəfləri var. Küveyt şeyxinin 4 xanımla ailə qurub bunu yaymasının İslam qayda qanunları ilə yaxından uzaqdan heç bir əlaqəsi yoxdur. Yəni onun addımını islam və onun şəriəti ilə bərabərləşdirmək olmaz”.

**İlahiyyatçı dində buyurulan hökmlərin müxtəlif kateqoriyalara bölündüyünü dedi**: “Dində elə hökmlər var ki, onların icrası vacibdir. Yəni o hökmlərə əməl etməməyin cəzası var - namaz qılmaq və yaxud oruc tutmaq kimi. Elə hökmlər də var ki, onların icrası bəyənilməndir. Məsələn, suyu oturaq halda içmək bəyənilən işdir. Əlbəttə, bunun müəyyən faydalarını nəzərə almaq şərti ilə. Amma elə hökmlər də var ki, onlar tövsiyə xarakterlidir. Həmin tövsiyə xarakterli işlərin icrası bəziləri üçün vacib, qaçılmaz ola bilər, bəziləri üçün isə icrası bəyənilməyən ola bilər. 4 evlilik məsələsi də o kateqoriyadandır. Yəni 4 evliliyə icazə o demək deyil ki, bütün müsəlmanlar bu hökmə birmənalı şəkildə əməl etməlidirlər. Kimlərdə 4 evlilik üçün Quranda, hədislərdə qeyd edilən şərait varsa, o hökmdən ancaq onlar istifadə edə bilər. İslam 4 evliliyə icazə verir deyə, hamı 4 ailə qursun deyə, bir hökm yoxdur. Bəzilərinin bu hökmü birmənalı qəbul edib 2-ci, 3-cü evliliyi islam nöqteyi-nəzərindən bəyənilməyə də bilər və hətta harama gətirib çıxara bilər. Çünki 4 evlilik şərtləri nəzərə alınmadan sırf müəyyən məsələlərə köklənib. Bu baxımdan biz deyə bilmərik ki, islam 4 evliliyə icazə verirsə, deməli, bu icra olunmalıdır. Rus pravoslavı olan doktor Razum adlı energetik var. Ona 4 evlilik haqda sual veriləndə ki, islamda bu qayda var, amma başqa dinlərdə yoxdur, o belə bir ifadə işlədir ki, 4 evlilik islamdan önçəki dinlərdə də olub, sadəcə olaraq sonradan zaman-zaman çoxarvadlılıq məsələsi həmin dinlərin şəriətindən bu və ya digər şəkildə bilərəkdən çıxartdırılıb. Sonradan İslamın 4 evlilik konsepsiyası bəyənilib və sırf sosial bərabərliyə xidmət edən, cəmiyyətdə qadınlar arasında əxlaqsızlığın yayılmasının qarşısını alan, hansısa qadının cəmiyyətdə atılmış kimi bütün sosial hüquqlarından məhrum edilməməsi üçün 4 evlilik nəzərdə tutulub ki, hansısa boşanmış, yaxud dul xanımlar sosial problemlərinə görə gedib başqa yollara düşməsinlər. Ailənin ikinci, üçüncü xanımı evləndiyi kişinin himayəsində qalır, övladları təmin olunur. Bunun sosial tərəflərini həmin rus doktor Razum çox gözəl şəkildə izah edib. 4 evlilik məsələsi elə məsələdir ki, bu, hərtərəfli şəkildə araşdırılarsa, dərrakəli, aydın fikirli insanlar bunu heç də qadın hüquqlarının tapdalanması kimi yox, əslində sosial bərabərliyin tənzimlənməsi kimi və müəyyən mənada cəmiyyətdə balansı qorumaq, müəyyən fəsadların qarşısını almağa xidmət etdiyini görə bilərlər. Amma qeyd etdiyim kimi, bu, o demək deyil ki, islamın icazə verdiyi 4 evlilik kimi bir hökm varsa, hamı buna əməl etməlidir kimi bir qayda yoxdur”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 142 (6463) 30 iyun 2016

# Cəlilabadda 34 yaşlı əlil qız itkin düşüb



**Cəlilabadda 34 yaşlı qız itkin düşüb. Bu barədə APA-nın cənub bürosuna itkin düşən şəxsin anası məlumat verib. Cəlilabad rayonunun Göytəpə şəhər sakini Zərifə Xəlilova bildirib ki, dörd qardaşın 1 bacısı olan qızı Xəyalə Xəlilova bir müddət əvvəl yol qəzasına düşməsi nəticəsində ikinci qrup əlil olub. O bu il aprelin 18-də günorta saatlarında evdən çıxaraq bir daha geri qayıtmayıb.**

Zərifə Xəlilovanın sözlərinə görə, qızını görənlər olub. Amma kim tərəfindən hara aparıldığı, yaxud hansı ünvana getdiyi barədə heç bir məlumat yoxdur.

Ana qızının itkin düşməsi ilə bağlı Cəlilabad Rayon Poliş Şöbəsinin Göytəpə şəhər polis bölməsinə məlumat verildiyini bildirib. Polis bölməsi tərəfindən axtarışlar aparılsa da, hələlik Xəyalədən xəbər yoxdur.

Qeyd edək ki, Xəyalə Xəlilova evdən çıxan zaman əynində kül rəngində köynək və şalvar, başında isə qırmızı papaq olub.

**Onu görənlərdən xahiş olunur ki, aşağıdakı telefon nömrələrinə zəng vura bilərlər: (051)-348-95-66; (050) 384-28-18; (055) 248-17-33**.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## Peterburqda azərbaycanlı biznesmenin qətlinin sifarişçisi olan digər azərbaycanlı tutuldu

**Sankt-Peterburqda azərbaycanlı biznesmen Maarif İsmayılovun qətlinin sifarişçisi saxlanılıb. APA-nın "life.ru"ya istinadən verdiyi məlumata görə, Azərbaycan vətəndaşı, 1971-ci il təvəllüdlü Əfqan Əliyev Sankt-Peteburqdakı meyvə-tərəvəz bazasında ticarətlə məşğul olan 43 yaşlı M.İsmayılovun qətlini sifariş verməkdə şübhəli bilinir. Onun qətli icra edən 27 yaşlı Emil Hüseynova silah verdiyi də ehtimal olunur.**

Əfqan A. barəsində həbs-qətimkan tədbirinin seçilməsi məsələsinə baxılır.

Qeyd edək ki, bu il iyunun 20-də Sankt-Peterburqda meyvə-tərəvəz bazasında qətl hadisəsi baş verib. Şahidlərin bildirdiyinə görə, qatil M.İsmayılova yaxınlaşaraq silahındakı bütün gülləri onun bədəninə boşaldıb, sonda isə başına atəş açıb.

Hadisə yerindən qaçmağa çalışan qatil bazanın 500 metrliyində tutulub. E.Hüseynov M.İsmayılovu sifarişlə öldürdüyünü, ona 10 milyon rubl (238 min manat) vəd olunduğunu bildirib.

Faktla bağlı cinayət işi başlanılıb.

Maarif İsmayılov anadan olduğu Lənkəran rayonunun Boladi kəndinə gətirilərək dəfn edilib.

## Bakıda 36, rayonlarda 39 dərəcə isti olacaq

**Bakı və Abşeron yarımadasında iyunun 30-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 22-26, gündüz 31-36, Bakıda gecə 23-25, gündüz 34-36 dərəcə isti olacaq.

Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Noxvanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 21-22, Buzovna, Mərdəkan, Şüvələndə 23-24, Türkan, Hövsan, Sahil, Şıxda 25-26 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında iyunun 30-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

**Havanın temperaturu gecə 20-25, gündüz 34-39, dağlarda gecə 14-19, gündüz 24-29 dərəcə isti olacaq.**


### Elan

**"TİKMAT" təchizat şirkəti tərəfindən inşa edilmiş, M.Hadi küçəsi ev 74 saylı binanın birinci girişində Abıyev Həbib Bəhlul oğlunun adına olan 44 saylı, sahəsi 93,6 kv.m olan mənzilin maliyyə arayışı və alqı-satqı müqavilləsi itdiyi üçün etibarsız sayılır.**

### Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Telefon: (070) 335-90-15.**




## Kürdəmirdə ailə dramı; oğul atasını öldürdü

**Kürdəmirdə qətl törədilib. Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, rayon sakini, 1983-cü il təvəllüdlü Mətləb Nizamov yaşadığı evdə ailə-məişət münaqişəsi zəminində atası, 1955-ci il təvəllüdlü Əflatun Nizamovu bıçaqlayaraq öldürüb.**

Hadisəni törədən M.Nizamov tutulub.

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.

## Göyçay sakini həmkəndlisini güllələdi

**Göyçay rayon sakinləri arasında silahlı insident baş verib, bir nəfər xəsarət alıb. APA-nın yerli bürosunun xəbərinə görə hadisə Kürdəmir rayonunun Qarabucaq kəndi ərazisində baş verib.**

Göyçay rayonunun İnçə kənd sakinləri Zaur Cabbarov və Namiq Hacıyev Qarabucaq kəndinə ov etməyə gediblər. Dostlar ov etdikdən sonra əldə etdikləri qəniməti bölə bilməyiblər və aralarında yaranan mübahisə zamanı Namiq Hacıyev tüfəngindən Zaur Cabbarova atəş açıb. Qarın boşluğundan ağır xəsarət alan Zaur Cabbarov Göyçay rayon Mərkəzi Xəstəxanasına çatdırılaraq əməliyyat olunub.

**Faktla bağlı Göyçay rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.**

## Bakıda 13 milyon manatlıq narkotik məhv edildi

**Bakıda 213 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul olunmuş 400 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə məhv edilib.**

APA-nın xəbərinə görə, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 250 kq 885 qram marixuana, 78 kq 886 qram tiryək, 89 kq 211 qram heroin və s. narkotik və psixotrop maddə yandırılıb.

Müsadirə edilmiş müxtəlif növ narkotik və psixortrop maddənin "qara bazar"da ümumi dəyəri 13 milyon manat təşkil edir.

## Sumqayıtda avtobus minik maşını ilə toqquşdu; iki nəfər öldü

**Sumqayıtda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Sumqayıt şəhərinin Sülh küçəsində Ramil Tahirovun idarə etdiyi "Hyundai" markalı və şəhər sakini Şəmsəddin Nəcəfovun 3 saylı xətt üzrə idarə etdiyi "Isuzu" markalı avtomobillər toqquşub.**

Nəticədə R.Tahirov və sərnişinlərindən Əzizə Əzimova hadisə yerində ölüb, digər 2 sərnişini isə xəstəxanaya yerləşdirilib.

## Bakıda çay evində qadını balta ilə kəsdilər

**Bakının Nərimanov rayonunda bıçaqlanma hadisəsi baş verib. "Report"un xəbərinə görə, Ə.Əlizadə küçəsində yerləşən çay evində naməlum şəxs xuliqanlıq zəminində 26 yaşlı Tural Məmmədova bıçaqla xəsarət yetirib. T.Məmmədovun qohumu olan Rövşən adlı şəxs isə həmin çay evində işləyən 38 yaşlı Ruhəngiz Abbasovaya balta ilə hər iki qolundan kəsici xəsarət yetirib.**

Hər iki yaralı xəstəxanaya aparılıb. R.Abbasova xəstəxanadan evə buraxılıb. T.Məmmədovun isə vəziyyəti qənaətbəxşdir.

**Faktla bağlı istintaq aparılır.**


# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Bu gün "Avro-2016" da ilk yarımfinalçının adı məlum olacaq. Saat 23:00-da Marselin "Velodrom" stadionunda Polşa yığma komandası Portuqaliya millisi ilə görüşəcək. Oyunu almaniyalı referi Felikis Brix idarə edəcək. Hər iki komanda 1/4 mərhələsinə digər komandalardan fərqli olaraq böyük çətinliklə çıxıblar. Almaniya Slovakiyanı 3:0 hesabı ilə məğlub edərək turnirdən kənarlaşdırdı, Belçika Macarıstanın qapısına 4 cavabsız qol vurdu, İtaliya son Avropa çempionu İspaniyanı 2:0 məğlub etdi, Uels Şimali İrlandiyanı 1:0, İslandiya da İngiltərəyə 2:1 qalib gələrək adını növbəti mərhələyə yazdırdı. Amma məhz bugünkü rəqiblər mərhələ adlamaq üçün daha çox tər tökdülər.**





# Bu gecə ilk yarımfinalçının adı biləcək: iki "P"dən hansı?

## Polşa bütün göstəricilərinə görə bu çempionatda Portuqaliyadan bir boy üstün nəticə göstərib, amma bəxt...

Polşa-İsveçrə oyununda 90 dəqiqədə qalib müəyyənləşmədi. Hərəyə 1 dəfə fərqlənən komandalar meydandan bərabərliklə ayrıldı - 1:1. Əlavə vaxtda da qol olmadığından qalib penaltilər seriyasında müəyyənləşdi. Burada daha dəqiq zərbələr vuran Polşa (5:4) 1/4 finala yüksəldi.

Portuqaliya və Xorvatiya arasında da matçın əsas vaxtında qapılara qol vurulmadığından əlavə vaxt təyin edildi. Portuqaliya yığması 116-cı dəqiqədə millidə müqavilэsi bitən "Beşiktaş"lı Kuarejmanın ayağını uzadaraq rəqib qapısına yönəltdiyi topla 1/4 finala yüksəldi. Xorvatiya bədbəxt, Portuqaliya xoşbəxt oldu...

***

Portuqaliya bu çempionatda keçirdiyi 4 oyunda baxımlı oyun göstərməyib. Təəssüf ki, çempionata yaxşı nəticələrlə başlayan Xorvatiya millisi də Portuqaliya ilə oyunda əvvəlki əzmkarlığı nümayiş etdirə bilmədi. Xorvatiyanın Portuqaliya ilə son üç qarşılaşmada uduzması da psixoloji cəhətdən təsirini göstərdi, xorvatları daha da ehtiyatlı olmağa vadar etdi.

Portuqaliyanın guya "oyundan-oyuna daha da açılışacağı" barədə ara-sıra səslənən iddiaların qeyr-ciddi olduğu xorvatlarla oyunda üzə çıxdı. Portuqaliya bu çempionatda gərəkən komanda oyunu oynamır, yalnız ayrı-ayrı oyunçuların fərdi ustalığı sayəsində çempionatda qalmaq üçün çalışır. Portuqaliya qrupda keçirdiyi üç oyunda necə oynayırdısa, Xorvatiya ilə oyunda da meydanda o cür idi. Usta Krişitan Ronaldo da Xorvatiya ilə qarşılaşmada heç bir xüsusi oyunu ilə yadda qalmadı.

Portuqaliya sanki Fransanın havası kimidir: gah tutulur, gah açılır, arada dolu yağır, arada günəş çıxır...Portuqaliya bu cür oyunla "Avropanın Braziliyası" yox, elə ...Portuqaliyasıdır.

Bəli, qalibləri mühakimə etmirlər, xorvatlar cəsarətsiz oyunun qurbanı oldular və məğlubiyyətdən sonra axıtdıqları göz yaşları da yəqin artıq quruyub. Amma inanmıram ki, azca obyektiv olan kimsə bu çempionatda Portuqaliyanın Xorvatiyadan güclü olduğunu desin. Belə komandamı olar: Portuqaliya "Avro-2016"da keçirdiyi 4 oyunda əsas vaxtda qalib gəlməyib! Amma nə edəsən ki, xüsusilə öz ölkəsinin mətbuatında(ötən yazılarımızda Portuqaliya mediasında komandaya yönəlik tənqidlərdən sitatlar vermişdik) ən çox tənqid olunan Portuqaliya millisi hələ də çempionatda qalır. Həm də müdafiəsi bu dərəcədə bərbad ola-ola. Pepe və Karvalyo kimi təcrübəli müdafiəçilər həm hücuma dəstəyə, həm müdafiəyə qayıtmağa nəfəsləri çatmır. Yarımmüdafiədə Mountinyonun təkbaşına mübarizə aparması komandanın orta xəttində də boşluqlar yaradır. Əlbəttə, komandanın 8 güclülər sırasında olmasında Ronaldonun da payı var, onun meydanda olması istənilən rəqib üçün təhlükədir, psixoloji basqıdır, narahatlıqdır. Bukmeykerlər bu oyunda Portuqaliyanı yalnız ona görə qalib görürlər ki, hücum xəttində Ronaldo var. Ronaldo olmasa qələbə də yoxdur, Portuqaliya da...

***

Amma başqa həqiqət də var ki, Portuqaliya növbəti mərhələyə çıxmış 8 komandanın ən zəifidir və bu mövzuda mübahisələrə bu gecə Polşa son qoymalıdır. Niyə Polşa? Axı, elə Polşa da bu çempionatda güclü İsveçrə millisini yalnız bəxt-lotereya sayılan penallarda qalib gəlib.





Polşa və Portuqaliya futbol məktəbləri bir-birindən tam fərqlənir. Portuqaliyada indi o keyfiyyətləri tapa bilmirik, amma məhz yaradıcı, hücumda sürətli, texnikalı olduqları üçün "Avropanın Braziliyası" adı alıblar. Polşa isə olsa-olsa Almaniya futbolunu "kopu" edir, əsasən müdafiədən hücumlar qurur, nəticəyə oynayır, müdafiəyə aşırı meyllidir.

Polşanın "Avro-2016"da keçirdiyi oyunlar parlaq olmadı. Amma Polşa yığmasının keçmişinə nəzər salıb indisi ilə müqayisə edəndə şübhəsiz, polşalıları bu turnirin ən səviyyəli komandalardan biridir. Polşa millisi 2012-cü il Avropa çempionatına ev sahibliyi edən və qrupdan çıxa bilməyən komanda deyil.

Adam Navalkanın komandasının oyununda xüsusi cəlbedicilik, azarkeşi cəlb edən energetika yoxdur, hətta hərdən adama çox darıxdırıcı təsiri də bağışlayır. Bəs, üstünlükləri nədir? Komanda qələbəyə inanır, özünə güvənir. Polşa bütün göstəricilərinə görə bu çempionatda Portuqaliyadan bir boy üstün nəticə göstərib. Navalkanın komandası çempionatda 7 xal toplamış iki komandadan biridir. "Həmişə uduzan Polşa" stereotipi hələ "Avro-2016"nın qrup mərhələsində Almaniya üzərində qalibiyyətdə də sınmışdı. Polşanın Almaniya kimi "A" tipli komandalar sırasına qoşulmasına hələ var, amma onlar bugünkü Portuqaliyadan fərqli olaraq yüksəlişdədirlər. Onlar orta səviyyəni artıq keçib və yaxın gələcəkdə istənilən güclü komanda ilə kəllə-kəlləyə mübarizə apara biləcək. Polşa bu çempionatda keçirdiyi 4 oyunda yalnız bir dəfə-İsveçrə ilə oyunda Şakirinin fantastik qolundan sonra topu mərkəzə aparıb. Bu gün Polşa "gözücımış" xorvatların taleyindən nəticə çıxarmalıdır. Amma necə?

Portuqaliya və Polşa millisi indiyədək 10 dəfə qarşı-qarşıya gəliblər. Bunlardan 4-də Portuqaliya qalib gəlib, üç oyunda polşalılar üstün olub. Üç oyunda isə tərəflər meydandan sülhlə ayrılıblar. Tərəflər heç vaxt Avropa çempionatında qarşılaşmayıblar.

Polşa yığmasının yarımmüdafiəçisi Qjekoqoş Krıxovyak deyib ki, onlar 1/4 final mərhələsində dayanmaq fikrində deyillər. Polşanın da ulduz oyunçuları var, əlbəttə Pepe, Nani, Ronaldo kimi məşhur olmasalar da. Robert Levandovski bu çempionatda ondan gözlənilən oyunu göstərə bilmir. Sanki o, əsl Levandovskini "Bavariya"da meydanda qoyub gəlib. Amma buna baxmayaraq, Polşa xüsusilə müdafiədə qapısından 4 top buraxmış Portuqaliyadan inamlı görünür. Levandovski hələ ki önə çıxa bilmir, amma onun "yoxluğunu" Yakub Błaşikovski unutdurur. Polşanın son 4 oyunda əsas vaxtda qapılara vurduğu 3 qolun ikisi Błaşikovskinin payına düşür.

Yığmanın forvardı Arkadiuş Milik də zədəsinin daha onu incitmədiyini və Portuqaliya ilə oyuna hazır olduğunu deyib. Forvard Portuqaliya haqda xoş sözlər də deyib. "Portuqaliyanın heyətində texnikalı oyunçular var. Onlar həm hücumda, həm əks-hücumda çox təhlükəlidirlər".

Portuqaliyanın yarımmüdafiəçisi Nani Polşa ilə 2012-ci ildə keçirdikləri yoldaşlıq görüşünü (hesab 0:0 olub) xatırladıb. "Polşa mənə yaxşı komanda təsiri bağışladı. Amma bu fərqli oyundur. Zənnimcə, bu dəfə daha çətin oyun bizi gözləyir". Nani penaltilər seriyasına hazırlaşdıqlarını da gizlətməyib. "Çoxları deyir ki, bu lotereyadır. Razılaşmaq olar. Amma 11 metrlik zərbəni vuranda gərək özünə çox inanasan. Əgər qalib penaltilər seriyasında müəyyənləşərsə, gərək biz özümüzə çox inanaq, nəinki bəxtə..."

***

Portuqaliya bu çempionatda bir sıra rekordlara imza atıb: Ronaldo 4 Avropa çempionatında dalbadal iştiraka görə, komanda ən çox Avropa çempionatının 1/4 mərhələsində iştiraka görə... Amma bu çempionatda həm də bəxtə görə bu komanda fəxr edə bilər. Üç oyunda heç-heçə edib, 3 xalla növbəti mərhələyə çıxan yeganə Portuqaliya oldu. Xorvatiyanı bir qolla evə göndərdi. Polşanın başına nə gələcək axşam görəcəyik.

**Portuqaliya bu gecə evə qayıtmasa, bu naxışlıqla çempion da ola bilər.**

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 142 (6463) 30 iyun 2016



# Bir dəfə görüb vurulub, evlənmək üçün onu bütün ölkədə axtarır

Kanadalı diş həkimi Sendi Kroker 8 min kilometr yol qət edərək İrlandiyaya gəlib. Səfərdə məqsədi isə 2011-ci ildə cəmi bir neçə dəqiqə söhbət etdiyi bir qızı yenidən görməsi olub. Lenta.ru saytının xəbərinə görə, 34 yaşlı həkim cavan irland xanımı unuda bilmir və hesab edir ki, bu qız onun qismətidir. Krokerin sözlərinə görə, o, bu gözəl xanımı 2011-ci ilin iyul ayında Kler qraflığında, Ennistimonda görüb. Bu, yerli kafedəki səhər yeməyi zamanı baş verib. Bu gözəl xanımı görən kimi onunla tanış olan Kroker ancaq hava, habelə ölkənin gəzməli yerləri barədə danışmağa fürsət tapıb. Stomatoloq etiraf edib ki, səfərdən sonra da bu qız haqda düşünməyə davam edib və nəhayət, ölkəyə qayıdaraq, qızı tapana qədər onun bütün şəhərlərini gəzməyə qərar verib. Kroker deyib ki, bu qızın 20 yaşı və tünd-sarı rəngdə saçları, habelə çilləri var. Artıq ölkədə bu gəncin axtarışlarının nəticələri ilə bağlı mərclərə də başlanıb. Böyük əksəriyyət stomatoloqun bu qızı tapıb, onunla evlənəcəyinə inandığı halda, bəziləri bunun əksini düşünüb.

# Bu kamera insanın bütün həyatını çəkir

**İsveçdə azarkeşlər komandası, özündə "Memoto" mini-kamerasını birləşdirən və "Layfloqqinq" adlandırılan yeni xidmət və onlayn-əlavə hazırlayıb. Bu, insanın bütün hərəkətlərinin fotoçəkilişini apara biləcək.**



"AzərTAc" xəbər verir ki, kamera hər 30 saniyədən bir şəkillər çəkir və akselerometrin və koordinatın GPS-qəbuledicisinin köməyi ilə onları yaddaşda saxlayır. Ona görə də günlər, aylar və ya illər keçdikdən sonra siz istənilən hərəkətinizi hər dəqiqə eynilə bərpa edə bilərsiniz.

Hazırda "Kickstarter" sosial təşəbbüslərin maliyyələşdirilməsi saytı vasitəsilə qurğunun istehsalının təşkilinə vəsait yığımı aparılır. Layihənin təşəbbüskarları lazım olan 150 min dolların 66 min dollarını artıq toplayıblar. Bu da başlanğıc üçün 2013-cü ildə kameranın istehsalına başlamağa çatacaqdır.

Onlar "Memoto"nu 280 dollara satmaq niyyətindədir.

# Heç nəyi unuda bilmir...

**İngilis Aurelien Hayman "hyperthymesia" adlandırılan bir sindromdan əziyyət çəkir. Sözügedən sindrom bu günə qədər edilən hər şeyi xatırlamaq anlamına gəlir. 20 yaşlı bu ingilisin yaxalandığı sindrom dünyada 20 nəfərdə görülüb. Hayman bu sindrom ucbatından son on ildir heç nəyi unutmur, ən incə detalına qədər xatırlayır. Maraqlıdır ki, gənc hər hansı bir tarixdə təkcə nə etdiyini yox, həm də nə yediyini, nə geyindiyini, kiminlə nə söhbət etdiyini, hətta həmin gün televizorda hansı xəbərlərin nümayiş olunduğunu və hava proqnozunu da xatırlayır. 14 yaşına çatanda keçmişdəki hər şeyi rahatlıqla xatırlaya bildiyini fərq edən Hayman bunları deyib: "Keçmişlə bağlı hər şeyi xatırlamaq dopdolu bir şkafdan istədiyini bir anda tapmaq kimi bir şeydir. Özümdən asılı olmadan xatirələrim kodlanır".**

Haymanı bir çox testlərdən keçirən Hull Universiteti alimləri deyib ki, ona bəzi tarixlərdə nələr baş verdiyi ilə bağlı suallar veriblər. Alimlərin sözlərinə görə, aldıqları cavablarla gerçək məlumatları tutuşdurublar və Haymanın hər şeyi ən incə detalına qədər düz dediyi üzə çıxıb.





# Gəlininin xoruldayan videosunu internetdə yaydı

Gəlin-qayınana davalarında sərhəd yoxdur. Türkiyədə 61 yaşlı Nezife Yahya adlı qadın 32 yaşlı, ingilis dili müəlliməsi olan gəlini ilə mübarizənin ən müasir yoluna baş vurub. Qayınana onunla tez-tez dalaşan, bir evdə yaşadıqları üçün hər günləri dava ilə keçən gəlini Halime Yahyadan intiqam almaq üçün qəribə üsul tapıb. Günorta saatında, oğlu evdə olmayan vaxt gəlininin yatdığını görən qayınana onu telefonla çəkib. Buna səbəb gəlinin yatanda xoruldaması olub. Ona bir neçə dəfə "sən yatanda çox xoruldayırsan" desə də, gəlin bunu inkar etdiyi üçün Nezife xanım dediklərini sübut etmək qərarına gəlib. Beləcə, onun videosunu çəkib və internetdə yayıb. Hazırda Türkiyədə bu video çox populyardır. Qadının oğlu isə gəlin-qayınana davasındakı bu detallara qarışmaq istəmədiyini deyib.




**QOÇ** - Hansısa xoşagəlməzlik gözlənilmədiyi üçün qarşınızda duran vəzifələri həyata keçirməkdə heç bir problemlə üzləşməyəcəksiniz. Bir sözlə, gün ərzində bütün ixtiyar öz əlinizdədir.

**BUĞA** - Gün ərzində qədər Ay bürcünüzdə olduğu üçün yeni və riskli işlərinizi təxirə salın. Səhhətinizdə xırda narahatçılıq gözlənilsə də, müqəddəs yerlərə getməklə bunu həll edə bilərsiniz.

**ƏKİZLƏR** - Qarşınızda olduqca düşərli bir gün durur. Daxilən vicdanlı və təmiz olduğunuzu sübut etdirməyiniz vacibdir. Çoxlarına sevinc bəxş edə bilərsiniz. Yalnız müqəddəs şeylər barədə düşünün.

**XƏRÇƏNG** - Ötən on gündə nail ola bilmədiyiniz maliyyə uğurlarına yetişmək üçün böyük şansınız var. Bunun üçün bürcünüzün "hakimiyyətdə" olmasından maksimum istifadə etməlisiniz. Acıdil olmayın.

**ŞİR** - Həddindən ziyadə maraqlı bir təqvimlə üz-üzəsiniz. Rastlaşdığınız adamların əksəriyyətindən sizə sevinc payı düşəcək. Başınızda dolaşan qorxunc və pis fikirlərdən daşının.

**QIZ** - Bu əsrarəngiz gündə daha çox müqəddəs işlərlə məşğul olun: ibadətlərinizi saxlamayın, hamıya xeyirxahlıq diləyin, bəd fikir yaymayın, qarşınıza çıxan şanslardan düzgün istifadə edin.

**TƏRƏZİ** - Təxminən saat 11-dən 15-ə qədər ayıq-sayıqlığınızı itirməsəniz, gün ərzində ovqatınıza mənfi təsir edəcək hadisələrlə rastlaşmayacaqsınız. Gün ərzində riskli işlərə başlamamalısınız.

**ƏQRƏB** - İşgüzar görüşlərdə iştirakınız gözlənilir. Belə sövdələşmələrdə ehtiyatlı olmağınız vacibdir. Əks təqdirdə məyus ola bilərsiniz. Tərəddüd etdiyiniz bütün işləri təxirə salın.

**OXATAN** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə fəaliyyətə ara verəsiniz. Bütün vaxtınızı gəzinti və əyləncələrə həsr edin. Məhəbbətdən ilham almağa çalışın. Spirtli içkidən uzaq olun.

**OĞLAQ** - Saat 16-ya qədər şanslı məqamlarla rastlaşacağınız güman olunur. İşgüzar danışıqlar aparmaq, köhnə planlara yenidən qayıtmaq uğurludur. Sonrakı saatlarda isə özünüzü qorumalısınız.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimi daha çox başqa ünvanlarda keçirəsiniz. Çünki öz evinizdə maraqlı heç nə olmayacaq. İş yerində gücünüz çatmayan adamlarla baş-başa gəlməkdən çəkinin.

**BALIQLAR** - İş barədə məhsuldar gün olmasa da, nahardan sonra darıxdığınız adamlarla görüşməyə çalışın. Uzaq yola çıxmaq uğurlu deyil. Sevgi münasibətlərinin tənzimlənməsində təşəbbüskarlığı ələ alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# D vitamini çatışmırsa, ölüm riski 30 faiz artır



**Amerikanın "Oregon" Dövlət Universitetində həyata keçirilən araşdırma sübut edib ki, yaşlı insanlardakı D vitamini çatışmazlığı ölüm riskini 30 faiz artırır. Bu faizi azaltmaq üçün gündə 30 mq D vitamini qəbul edilməli və gəzintiyə çıxılmalıdır. Bundan başqa, sözügedən vitamin diabet, ürək xəstəlikləri riskini də lazımi səviyyədə azaldır. Amma gündə 25-30 mq-dan artıq D vitamininin qəbul edilməsi böyrək probleminə səbəb ola bilər.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750